AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

NURLANA MƏMMƏDOVA

TÜRK XALQLARINDA "TAHİR VƏ ZÖHRƏ" DASTANI

BAKI - 2026

AMEA Folklor İnstitutu Elmi Şurasının qərarı ilə
(16 mart 2026-ci il tarixli 5 saylı protokol) nəşr olunur.

Elmi redaktoru: **Elçin ABBASOV**
filologiya üzrə fəlsəfə doktoru, dosent

Rəyçilər: **Seyfəddin RZAYEV**
filologiya elmləri doktoru, professor
Rza XƏLİLOV
filologiya üzrə fəlsəfə doktoru, dosent

Nurlana Məmmədova. Türk xalqlarında "Tahir və Zöhrə" dastanı. Monoqrafiya**.** Bakı, "Turan Advertısıng", 2026, 192 səh.

Monoqrafiya türk xalqlarının epik təfəkküründün vüsətini və bədii ifadə imkanlarının zənginliyini göstərən epik əsərlərdən biri olan "Tahir və Zöhrə" dastanının məlum variant və versiyaları sistemli şəkildə tədqiq olunub.

www.folklor.az

978-9952-8686-1-6



© Folklor İnstitutu, 2026

MÜNDƏRİCAT

Redaktordan 4
Giriş 8

I FƏSİL

"Tahir və Zöhrə" dastanının tədqiqi tarixi 14
1.1. Azərbaycanda "Tahir və Zöhrə" dastanının toplanması, nəşri və tədqiqi tarixi 14
1.2. Başqa türk xalqlarında "Tahir və Zöhrə" dastanının toplanması, nəşri və tədqiqi tarixi 26

II FƏSİL

"Tahir Və Zöhrə" dastanının versiya və variantları 52
2.1. "Tahir və Zöhrə" dastanının Orta Asiya versiyaları ... 54
2.2. "Tahir və Zöhrə" dastanının Anadolu versiyası 82
2.3. "Tahir və Zöhrə" dastanının Azərbaycan versiyası 92
3.4. "Tahir və Zöhrə" dastanının Qıpçaq versiyası 104

III FƏSİL

"Tahir və Zöhrə" dastanı şeirlərinin bədii-poetik xüsusiyyətləri 117
3.1. "Tahir və Zöhrə" dastanında poetik fiqurlar 119
3.2. "Tahir və Zöhrə" dastanı şeirlərinin forma və şəkilləri 142

Nəticə 159
İstifadə edilmiş ədəbiyyat 166



REDAKTORDAN

Türk xalqları arasında mədəni-mənəvi və tarixi birliyin bariz təzahür etdiyi əsas mədəni sfera türk xalqlarının folklorudur. Türk xalqlarının epik folkloru, xüsusən dastan yaradıcılığı bu xüsusda ayrıca mövqeyə malikdir. Türk xalqlarının yaratdığı epik abidələr təkcə bu ədəbi-bədii örnəklərin çoxsaylı olması və poetik kamilliyinə görə seçilmirlər, onlar həm də özlərində ənənəvi türk ədəbi-bədii düşüncə modellərini, mənəvi dəyərlər sistemini əks etdirirlər.

Şifahi söz sənətinin ən iri həcmli və ən çox informasiya daşıyan janrı kimi dastanların müxtəlif aspektlərdən öyrənilməsi hər zaman aktual və vacibdir. Bu baxımdan Məmmədova Nurlana Ramazan qızının "Tahir və Zöhrə" dastanının yayılma arealı" mövzusunda monoqrafiyası ciddi elmi maraq kəsb edir. Şifahi ənənədə populyar olduğu qədər yazılı ənənədə də bir neçə variantda günümüzədək gəlib çatmış "Tahir və Zöhrə" dastanının ümumi analizi, onun yayılma arealının müəyyənləşdirilməsi, türk və qonşu xalqlardakı məlum tarixi mətnlərinin müqayisəli təhlili folklorşünaslığımızın vacib məsələlərindən biridir.

"Tahir və Zöhrə" dastanı türk xalqları içərisində ən geniş yayılmış məhəbbət dastanlarındandır. Yayılma arealı-

na görə onu hətta “Koroğlu” kimi məşhur qəhrəmanlıq eposu ilə müqayisə etmək olar. Epos üçün yayılma arealı mühüm göstəricidir. Belə ki, bu, bir tərəfdən həmin dastanın poetik kamilliyi, daşıdığı ideyanın bəşəriliyi, süjet xəttinin maraqlı olmasına bağlıdırsa, digər tərəfdən xalqların arzu və istəklərini, nəyə dəyər verdiklərini xüsusi formada ifadə edə bilməsi ilə əlaqəlidir. Bu, həm də həmin epik örnəyi yaradan xalqın etnik-mədəni təsir dairəsinin genişliyinin göstəricisidir.

Mənşəyi astral miflərlə də əlaqələndirilən bu dastanın təkcə Azərbaycanda iyirmidən artrıq variantı qeydə alınmış, amma təəssüflər ki, onların böyük qismi itib-batmışdır.

Ümumiyyətlə, epik folklor əsərlərinin yaranması, inkişafı, tarixi yayılma arealını müəyyənləşdirmək çətin problem sayılır. “Tahir və Zöhrə” kimi dastanlara münasibətdə isə bu məsələ bir tərəfdən variant və versiyaların çox olması, digər tərəfdən onun həm şifahi ənənədə, həm yazılı ədəbiyyatda paralel mövcudluğu səbəbindən daha da çətinləşir. Burada şifahi ənənənin yazılı ədəbiyyata mövzu verməsi və əksinə, yazılı ədəbiyyat örnəyinin xalq arasında populyarlaşması halları bir-biri ilə birləşir. Bunlara baxmayaraq, monoqrafiya müəllifi özündən əvvəlki elmi qənaətlərdən və özünün müşahidələrindən çıxış edərək bu prosesləri aydınlaşdırmağa çalışıb və əhəmiyyətli elmi nəticələr ortaya qoya bilib.

Monoqrafiya, demək olar ki, bütün türk xalqları içərisində yayılımış nadir dastanlardan birinin variant və versi-

yalarının bir ərsəyə gətirilməsi, onların sistemləşdirilməsi, müqayisə edilməsi, yayıldığı coğrafiyanın hüdudlarının müəyyənləşdirilməsi və bu geniş coğrafiyada hansı versiyanın və ya variantın hansı mədəni-tarixi təsirlərə məruz qaldığını aşkara çıxarmağa xidmət edir.

"Tahir və Zöhrə" dastanının Balkan yarımadasından Sibirə, Çinədək (Sincan-Uyğur bölgəsinədək) yayılması, çoxsaylı mətnlər, versiya və variantların, onlara münasibətdə fərqli fikirlərin olması belə tipli bir müqayisəli və eyni zamanda ümumiləşdirici işin yazılmasında araşdırıcıdan böyük zəhmət, həvəs və elmi erudisya tələb edir. İlk öncə qeyd edim ki, Nurlana Məmmədova bu əziyyətə qatlaşaraq, monoqrafiyada qarşıya qoyulan vəzifənin öhdəsindən uğurla gələ bilmişdir.

İlk fəsildə müəllif türk xalqları arasından "Tahir və Zöhrə" dastanınınn yazıya köçürülməsi, nəşri və tədqiqi tarixini araşdırmış, eləcə də müxtəlif folklor mühütlərində bu əsərin məşhur söyləyiciləri – aşıqlar, baxşılar və b. barədə məlumatlar əldə etdərək işə daxil etmişdir. Burada həmçinin müəllif Məmmədhüseyn Təhmasib, Azad Nəbiyev, Fikrət Türkmən, Xodı Zarifov, Liliya Muxammetzyanova, Aman Kekilov, Əhməd Gökçəgözoğlu və başqa tanınmış dastanşünasların elmi qənaətlərinə və öz müşahidələrinə əsaslanaraq, "Tahir və Zöhrə" dastanının genezisi, təşəkkül tarixi və miqrasiya yollarına da bir aydınlıq gətirmişdir.

İkinci fəsildə dastanın əldə olan variantları daşıdıqları lokal-regional xüsusiyyətlərə, obrazlar sistemində, motiv

və süjet xəttində müəyyən etdiyi fəqliliklərə görə dörd qrupda (Azərbaycan versiyası, Anadolu versiyası, Orta Asiya versiyası və Qıpçaq versiyası) təsnif edilmiş, bu təsnifat əsaslandırmış və əsas mətnləri ətraflı təhlil olunmuşdur. Burada ayrı-ayrı versiyaların və variantların özünəməxsus xüsusiyyətləri müəyyənləşdirilmiş, obrazlar sisteminin aydın mənzərəsi yaradılmışdır. Bunlardan əlavə, alim bu fəsildə dastanın müxtəlif versiya və variantlarındakı mifoloji, dini-irfani, tarixi-siyasi və sosial məna daşıyan elementlərə ayrıca diqqət ayırmışdır.

Son fəsildə "Tahir və Zöhrə" dastanının müxtəlif versiyalarındakı lirik-poetik nümunələrin – şeirlərin janr, forma-şəkil və poetik xüsusiyyətləri barədə məlumat verilmiş, nümunələr təhlil olunmuş, ümumiləşmələr aparılmışdır.



GİRİŞ

Dastanlar xalqın milli kimliyini, tarixini, ənənəvi mədəniyyətini bədii şəkildə təzahür etdirdiyinə, özündə cəmlədiyi müxtəlif yönlü informasiyanın zənginliyinə görə həmişə elm üçün aktual mövzulardan birini təşkil edir. Qəhrəmanlıq dastanları kimi məhəbbət dastanları da türk xalqlarının, o cümlədən Azərbaycan xalqının mənəvi mədəniyyətinin formalaşmasında önəmli rola sahib olan şifahi xalq yaradıcılığı nümunələrindəndir. Onların türk xalqlarının etnik birlik yaddaşının qorunub saxlanılaraq, gələcək nəsillərə ötürülməsindəki rolu əvəzsizdir. Türk xalqlarının bədii-estetik düşüncəsinin zənginliyini və eləcə də eyniliyini bütün tamlığı ilə ifadə edən məhəbbət dastanlarının öyrənilməsi etnik özünüdərkin, türk xalqları arasında bütünləşmə meyllərinin gücləndiyi bir dövrdə daha böyük önəm daşımaqdadır. Dastanlar bu xalq və toplumların həyat tərzi, duyğusal dünyası, fəlsəfi və estetik baxışlar sistemini əks etdirməklə yanaşı, tarixin gedişatında itirilən və ya itirilməkdə olan maddi və mənəvi mədəniyyət elementlərinin də üzə çıxarılmasında yardım edir. Bunun da nəticəsində nəsillərarası etnogenetik yaddaş və mədəni varislik əlaqələri geniş ölçüdə bərpa olunur, ayrı-ayrı tarixi dövrlərin mədəni mənzərəsi haqqında dolğun təsəvvür yaranır.

Türk xalqlarının epik təfəkkürünün vüsətini və zəngin bədii ifadə imkanlarını göstərən dastanlar təkcə poetik-lirik, ideya, mövzu və məzmun rəngarəngliyi ilə deyil, həm də yayılma arealının genişliyi və bundan irəli gələrək variant və versiyalarının çoxluğu ilə diqqət çəkir. Qəhrəmanlıq və məişət dastanları kimi, məhəbbət dastanları da, o cümlədən "Tahir və Zöhrə" dastanı xalqımızın şifahi poetik yaradıcılığının imkanlarını, eləcə də onun etnoqrafiyasının, sosial həyatının, adət-ənənələrinin, təsərrüfat sisteminin, ailə-məişət münasibətlərinin və s. tədqiqi üçün əvəzedilməz mənbə rolunu oynayır. Belə möhtəşəm epik abidələr xalq mədəniyyətinin, dilinin, psixologiyasının, həyat fəlsəfəsinin, əxlaqının, mənəviyyatının güzgüsü olduğundan onların müxtəlif aspektlərdən tədqiqi hər zaman aktual olaraq qalır. Folklorşünaslıq kontesktində "Tahir və Zöhrə" dastanı poetikası, ifa xüsusiyyətləri və ya kosmoloji təsəvvürlərlə əlaqələndirilən mifoloji semantikası baxımından xüsusi maraq kəsb etməkdədir. Bununla yanaşı, geniş bir areala yayıldığı üçün, variasiyalaşma problemi və folklor əlaqələrinin öyrənilməsi baxımından da böyük elmi əhəmiyyət daşıyır. Bu tip dastanlar türk xalqlarının əsrlər boyu vahid etnik-mədəni areal təşkil etdiyini, türk epos təfəkkürünün sabitliyini ortaya çıxarır.

"Tahir və Zöhrə" dastanının öyrənilməsinə XIX əsrin II yarısından başlanmışdır. Məşhur rus türkoloqu V.V.Radlov 1872-ci ildə onun cağatay variantını, macar alimi və səyyahı H.Vamberi isə 1901-ci ildə əski osmanlıca olan variantını nəşr etdirmişlər. Bundan başqa, eyni dastanın 1850-

ci ildə ilk dəfə mətbəə yolu ilə, 1883-cü ildə ildə isə daşbasma üsulu ilə basıldığı məlumdur.

"Tahir və Zöhrə" dastanının tədqiqi ilə Türkiyədə F.Türkmən, M.Kaplan, S.Sakaoğlu, Y.Boza, D.Kaya, P.N.Boratav, M.And, F.Caner, Ə.Gökçəgözoğlu, K.Türkan, Kiprdə M.İslamoğlu, M.Ertuğ, M.Gökçeoğlu, B.Gökbulut, Azərbaycanda H.Əlizadə, Ə.Cavid, Ə.Axundov, M.H.Təhmasib, İ.Abbaslı, M.Qasımlı, H.İsmayılov, M.Cəfərli, Q.Sayılov, A.Xəlilov, E.Məmmədli, Türkmənistanda A.Mammetjumayev, A.Kekilov, B.Qarrıyev, N.Aşırov, H.Şahberdiyev, M.Köseyev, A.Qovşudov, H.Xallı, B.Şamıradov, O.Yazımov, Tatarıstanda A.Kul-Muxamedov, X.Xismetullin, L.Dmitriyeva, M.Əxmətjanov, Q.Tukay, İ.Maraş, R.Xurmatulina, Q.Şamarova, L.Muxametzyanova, R.İslamov, F.Axmetova və başqaları məşğul olmuş və dəyərli fikirlər söyləmişlər. Dastanın özbək variantının öyrənilməsində T.Nişanbayevanın, qaraçay-balkar variantının tədqiqində R.İslamovun, noqay variantının tədqiq və təbliğində F.Kuseqenovanın, qazax variantının araşdırılmasında isə B.Azibayevanın böyük xidmətləri vardır.

Bütün bu deyilənlər dastanın öyrənilmə səviyyəsinin qənaətbəxş olduğunu söyləməyə əsas verir. Lakin bununla yanaşı, qeyd edilməlidir ki, görülən bütün bu işlər regional səviyyədə və qismən pərakəndə şəkildə aparılmış, dastanın bütün regional və məhəlli versiya və variantlarının bir arada gözdən keçirildiyi, müqayisə olunduğu və ümumi mənzərəsinin yaradıldığı bir iş ortaya qoyulmamışdır.

Diqqətdən kənarda qalan məsələlərdən biri də süjetin türk coğrafiyasında miqrasiyanın xronologiyasının müəyyən edilməsi, problemə tarix, zaman və məkan prizmasından nəzər salınması məsələsidir.

Monoqrafiyada "Tahir və Zöhrə" dastanının yayıldığı türk etnik-mədəni arealının hüdüdlarını müəyyən etmək, bunun hansı tarixi və etno-mədəni proseslərlə əlaqələndiyini, miqrasiya yollarını, yayıldığı fərqli coğrafiyalardakı lokal özünəməxsusluqları aşkara çıxarmağa çalışacağıq.

Dastanın məlum versiya və variantlarını, onların süjet-kompozisiya elementlərini, obrazlar sistemini, bu versiya və variantlardakı poetik fiqurları, orada yer alan şeirlərin forma və şəkillərini tipoloji-müqayisəli təhlilinə də ehtiyac vardır. Monoqrafiyada "Tahir və Zöhrə" dastanının yayılma arealının geniş bir coğrafiyanı əhatə etməsi faktına diqqət yetirilərək aşağıdakı məsələlər əsas götürülmüşdür:

1) "Tahir və Zöhrə" dastanı haqqında Azərbaycan, Türkiyə, Özbəkistan, Türkmənistan, Qazaxıstan, Tatarıstan və başqa türk ölkə və bölgələrində qələmə alınmış elmi məqalə, kitab və dissertasiya işlərində gəlinən nəticələrin ümumiləşdirilməsi;

2) Dastanın türk xalqlarından toplanılması və nəşri tarixinin izlənilməsi;

3) Mövcud versiya və variantların obraz, süjet və epizodlarının sistemləşdirilməsi;

4) "Tahir və Zöhrə" dastanının müxtəlif versiyalarındakı şeirlərin janr, forma-şəkil və poetik xüsusiyyətlərinə dair ümumiləşmələrin aparılması;

5) Versiya və variantların bədii-estetik özəlliklərinin müqayisəsinin həyata keçirilməsi;

6) Versiya və variantların yayılma arealına, eləcə də dastan informasiyasına əsaslanmaqla "Tahir və Zöhrə" dastanının təşəkkül tarixi və inkişaf yollarının müəyyənləşdirilməsi;

7) Problemə zaman və məkan kontekstindən yanaşaraq süjetin miqrasiya istiqamətlərinin, eləcə də bu proses zamanı ortaya çıxmış fərqliliklərin dəyərləndilməsi.

"Tahir və Zöhrə" dastanının yayılma arealının genişliyi bir tərəfdən onun poetik mükəmməlliyi, maraqlı süjet xəttinə sahib olması ilə əlaqəlidirsə də, digər tərəfdən dastanın özəyinin rəvayət halında türklərin vahid etnos şəklində mövcud olduğu və ayrı-ayrı xalqlara parçalanmadığı tarixi dövrdə formalaşa biləcəyinə bağlıdır. Bu baxımdan "Tahir və Zöhrə" dastanı təkcə Azərbaycan xalqının şifahi ədəbiyyat örnəyi deyil, həm də bir ümumtürk epik abidəsidir.

"Tahir və Zöhrə" dastanının yayılma arealı təkcə türk xalqlarını deyil, eləcə də onlarla mədəni təsiri altında olan digər xalqları (erməni, tacik, alban və b.) da əhatə edir. Dastandakı tarixi-etnoqrafik məlumatlar dastanın formalaşması və inkişafının izlənməsində böyük əhəmiyyət daşıyır.

Azərbaycan xalq dastanlarının peşəkar ifaçıları olan aşıqlar "Tahir və Zöhrə" dastanın yayılma arealının genişlənməsində, populyarlıq qazanmasında və eləcə də poetik baxımdan zənginləşməsində mühüm rolu oynamışlar.

"Tahir və Zöhrə" dastanının, əksər variant və versiyaları diqqətə alınmaqla, sistemli şəkildə, bir bütöv halında

tədqiqata cəlb edilməsi zəruridir və monoqrafiyamızda da bu məhəbbət eposunun yayılma arealı haqqında dolğun təsəvvür yaradılması məqsəd kimi qarşıya qoyulub.

Bundan çıxış edərək:

– Dastanın məlum variantları, qeydə alındıqları region, dil, süjet, obrazlar sistemi və motivlər nəzərə alınmaqla müəyyən versiyalar daxilində ümumiləşdirilib və dastanın epik sistemi təqdim olunub;

– Mövcud versiya və variantların süjet və epizodları arasındakı ortaq və fərqli məqamlar kompleks şəkildə tədqiqata cəlb edilib, onların lirik mətnlərinin bədii-poetik xüsusiyyətləri (poetik fiqurlar, şeir forma və şəkilləri daxil olmaqla) də təhlil olunub;

– İlk dəfə bu süjetin miqrasiya istiqamətləri müəyyənləşdirilməyə çalışılıb, konkret zaman kəsiyində süjetə edilən əlavə, əskiltmə və ya dəyişikliklər aşkarlanıb;

– Türk mifoloji düşüncəsinin "Tahir və Zöhrə" dastanının versiyalarında mühafizə olunan elementləri öyrənilib.



I FƏSİL

"TAHİR VƏ ZÖHRƏ" DASTANININ TƏDQİQİ TARİXİ

1.1. Azərbaycanda "Tahir və Zöhrə" dastanının toplanması, nəşri və tədqiqi tarixi

Azərbaycanda 20-yə qədər variantı olan [161, s.78] "Tahir və Zöhrə" dastanının toplanması, nəşri və tədqiqinin maraqlı tarixçəsi var. Onun ayrı-ayrı qoşmalarına müxtəlif illərin əlyazmalarında, cünglərində də təsadüf edildiyini, bəzən bu əlyazmalardan istifadə ilə, bəzən də xalqdan toplanmış materiallar əsasında tərtib edilmiş "Aşıqlar", "El şairləri", "Qoşmalar" və s. kimi kitablarda şeirlərinin çap edildiyini bildirən Məmmədhüseyn Təhmasibin verdiyi məlumata görə, bundan başqa, Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat və Dil İnstitutunun Şifahi ədəbiyyat şöbəsində, Azərbaycan Dövlət Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrasında və Respublika Xalq Yaradıcılığı Evi tərəfində dastanın yazılı halda bir sıra digər variantları da mövcud olmuşdur. "*Az-çox qüvvətli yaddaşa və ifaçılıq qabiliyyətinə malik bütün aşıqlar "Tahir və Zöhrə" dastanını əzbər bilirlər. Şagirdlikdən müstəqil aşıqlığa keçmək dərəcəsinə çatmanın əsas şərtlərindən biri də məşhur das-*

tanları, o cümlədən sözügedən dastanı əzbər bilmək və ifa etməkdir" [101, s. 308].

Hazırda dastanın əldə olan variantlarının hamısı süjet və kompozisiya baxımından bir-birinə çox yaxındır. Hənəfi Zeynallının 1935-ci ildə Tovuzun Yuxarı Öksüzlü kənd sakini Aşıq Ələsgər Cəfərovdan toplayaraq nəşr etdirdiyi ("Tahir Mirzə") və Ə.Hüseynovun 1917-ci ildən əvvəl çap etdirdiyi ("Zöhrə və Tahir Mirzə") variantlar ən mükəmməl variantlar hesab olunur [101, s. 308-309].

Dastanın söyləyiciləri içərisində Ululu Kərim, Dəllək Muradın, Cəbrayıllı Aşıq Humayın [19, s.313-314, 315], Aşıq Həsən Qəffari [52, s.317-398, 414], Qazaxın Düzqışlaq kəndində yaşamış Aşıq Məhəmməd [19, s.324], Cəlilabadın Bəcrəvan kənd sakini Aşıq Ayış Fiyaz oğlu [19, s.314]. Qobustan rayonunun Nabur kəndindən olan Aşıq Xanış Zahidov [22, s.104-119, 318], Tovuzlu Aşıq Əbil [19, s.317] və başqalarının adını xüsusi çəkmək lazımdır.

Dastanın ilk naşirlərindən biri Hümmət Əlizadədir. O, 1937-ci ildə içərisində "Tahir və Zöhrə" dastanının da yer aldığı "Dastanlar və nağıllar" adlı kitabını nəşr etdirmişdir [38]. Professor İsrafil Abbaslının yazdığına görə, Hümmət Əlizadə dastanın sözügedən variantını 1926-cı ildə Qazaxda öz atası Əli Rəhim oğlunun dilindən toplamışdır [3, s.5]. Həmin variant 2013-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu tərəfindən təkrar nəşr edilmişdir [48, s.53- 75].

Azərbaycan folklorunun, dastanlarının toplanması, sistemləşdirilməsi və nəşrində Ərtoğrul Cavidin də xüsusi xidmətləri olmuşdur. Geniş ictimaiyyət onun bu fəaliyyəti

barədə son dövrlərdə işıq üzü görən çoxcildlik "Azərbaycanın qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrul Cavid" kitabı sayəsində məlumat əldə edə bilmişdir. G.Babaxanlının rəhbərlik etdiyi layihə çərçivəsində nəşr edilən kitabın "Azərbaycan dastanları və Ərtoğrul Cavid" adlı altıncı cildində [28] bir sıra dastanlarımızla yanaşı, "Tahir və Zöhrə"nin 1938-ci ildə Hüseyn İsgəndərov tərəfindən Aşıq Zülfüqarın dilindən toplanan "Tahir Mirzə və Zöhrə" adlı variantı [100, s.261-302], eləcə də Ərtoğrul Cavidin ona yazdığı "Quliyev Zülfüqarın söylədiyi "Tahir Mirzə" nağılı haqqında" başlıqlı rəyi yer almaqdadır.

Məlumat üçün bildirək ki, "Azərbaycan dastanları və Ərtoğrul Cavid" mövzusu çoxcildliyin III, IV, V, VI, VII, VIII cildlərini əhatə edir. "*Bu cildlərə 1938-41-ci illərdə Ə.Cavid, H.İskəndərov, H.Əlizadə və C.Cahanbəxş tərəfindən Azərbaycanın müxtəlif bölgələrindən toplanmış Azərbaycan dastanları və Ərtoğrol Cavidin həmin dastanlar haqqında yazdığı elmi rəylər yer almışdır. Qeyd edək ki, bəzi dastanları aşıqlar özləri yazıya almışlar. Eyni zamanda aşıq Əsəd, aşıq Mirzə yaradıcılıqları haqqında məlumat və 1937-ci ildə professor Bülbülün rəhbərliyi ilə aşıq yaradıcılığının əsas formalarını öyrənmək və bir neçə aşıq havasını nota almaq üçün çağırılan iclasın protokolları daxil edilmişdir*" [27, s. 8].

Kitabın VI cildinə ön söz yazan və Ərtoğrul Cavidi "sinkretik təfəkkürlü araşdırıcı" adlandıran Gülbəniz Babaxanlı yazır ki, "*Azərbaycan dastanlarının bir sıra maraqlı örnəklərini içinə alan bu cilddə də Ərtoğrul Cavidin üzərinə düşən vəzifəyə ciddidən-ciddi yanaşdığı, özünəxas səriştə və məsuliyyət göstərdiyi müşahidə edilməkdədir. O, Aşıq Hüseyn Rzayevin söylədi-*

yi "Novruz və Qəndəf", eləcə də "Süleyman və Mələk" dastanlarının başlıca məziyyətini onların aşığın özü tərəfindən yazıya alındığı üçün, dil təbiiliyini və səmimiliyini saxlamışdır " [31, s. 5].

Konkret olaraq VI cilddə dərc edilmiş "Tahir Mirzə və Zöhrə" adlı varianta gəlincə, Ərtoğrul Cavidin ona yazdığı rəyin altında 02.02.1940 tarixi durmaqdadır [28, s. 258].

Müəllif verdiyi rəyə "Tahir və Zöhrə" dastanının digər dastanlarla bir çox ortaq məqamlara sahib olduğunu, bunun da bütün məhəbbət dastanlarının mövzusundan qaynaqlandığını bildirərək başlayır, diqqəti həmin məqamlara çəkir. Eyni zamanda əldə olan variantın naqis tərəflərini də qeyd edir. Alim yazır ki, "*əsərin qəhrəmanları doğularkən, üçüncü şəxsdən – vəkilin oğlu Mahmud bəydən də danışılır, lakin sonra bu xətt davam etdirilmir. Dastan qəhrəmanlarının uşaqlığından uzun-uzadı bəhs edilsə də, bu hissələr çox sünidir. Bəzi epizodlar oxucunu (dinləyicini) inandırmır"* [28, s. 258-259]. Tədqiqatçı daha sonra bildirir ki, dastanda təqdim edilən hadisə və duyğuların hamısı realdır. Realizm dil, ifadə etbarilə də mühafizə edilib. Ərtoğrul Cavid bu sözlərinə misal olaraq hadisələrin Osmanlı torpaqlarına keçdiyi zaman dastanın dilinə Osmanlı elementlərinin daxil olmasını göstərir. Məsələn, "*Haydı, çekin sandığı kenara...*", "*kəndimə*" (özümə anlamında) və s. ifadələri nümunə çəkir [28, s. 259].

Dastanda "osmanlıca" kəlmə və ifadələrə toxunan tədqiqatçı dastanda reallığın tarixiliyi də əhatə etməsini diqqətəlayiq hadisə hesab edir və bildirir ki, hətta yazılı ədəbiyyatda tarixi xronizm pozulur. Dastanı söyləyəcilərinin bu kimi məsələlərə fikir verdiyini qeyd edən Ə.Cavid aşağıdakı fraqmenti misal çəkir:

"Bu zaman bir qarı gəlib dəryadan su doldurdu (O vaxt mis qablar yox idi, qabların hamısı saxsıdan idi)" [28, s. 259].

Ə.Cavidin fikrincə, mötərizə içərisindəki ifadə hadisənin vaxtını bildirməsə də, folklordakı tarixi gerçəkliyin nümunəsidir. Ən sonda da o, dastan, daha doğrusu onun təhlilə çəkilən variantı haqqında yekun rəyini verir: *"Tahir Mirzə nağılı böyük orijinallığa malik olmadığından çapa layiq deyildir"* [28, s. 259]. Ə.Cavidin təhlil xarakterli bu rəyi "Tahir və Zöhrə" dastanı haqqında yazılmış ilk araşdırmalardan biridir və bu baxımdan çox qiymətlidir.

"Tahir və Zöhrə" dastanının tədqiqatçıları və naşirləri içərisində Əhliman Axundovun da adını xüsusi çəkmək lazımdır. Onun "Azərbaycan folkloru antologiyası" ikicildliyi bu günə qədər Azərbaycan folklorşünaslarının masaüstü kitabıdır.

Əhliman Axundovun "Tahir və Zöhrə" dastanına xüsusi önəm verdiyi və təkrar-təkrar nəşr etdirdiyi bilinməkdədir [18, s.115-158]. Onun nəşr etdirdiyi versiya 2005-ci ildə işıq üzü görən beş cildlik "Azərbaycan dastanları" kitabının I cildində yenidən nəşr edilmişdir [19, s. 125-168].

Azərbaycan folklorunun, o cümlədən dastanlarımızın, eləcə də bilavasitə "Tahir və Zöhrə"nin ən mahir və hərtərəfli tədqiqatçılarından biri Məmmədhüseyn Təhmasibdir. O özünün "Azərbaycan xalq dastanları (orta əsrlər)" adlı monoqrafiyasında sözügedən dastanı hərtərəfli təhlil edərək, onu "Mehr və Müştəri", "Mahmehri ilə Xurşid", "Şahzadə Sənubər" və başqa bəzi dastanlar ilə birlikdə astral əsərlərin sonradan folklorlaşmış variantları kimi xarakterizə etmişdir [101, s.308-309]. Alim Əhliman Axundovla

birlikdə tərtib etdiyi 5 cildlik "Azərbaycan dastanları" kitabının I cildinə müqəddimədə də bu mövzuya toxunmuşdur [103, s.4-34]. M.Təhmasib bunlardan dastanın köklərinin atəşpərəstliyin müqəddəs kitabı "Avesta"dakı süjetlərlə bağlantısını mümkün hesab etmişdi. "Azərbaycan xalq dastanları (orta əsrlər)" adlı monoqrafiyada alim Şərqdə Zöhrə ulduzunun adının "Nahid" olduğunu, Nahidin İran və Zaqafqaziyada (Güney Qafqazda – müəllif) məşhur olduğunu, onun "Avesta"da Ardvi-Sura-Anahid şəklində yad edildiyini bildirir və fikirlərini əsaslandırmaq üçün fars tədqiqatçısı Purdavuda və başqa alimlərə istinad edir. Onun sözlərinə görə, dastanın əsas personajlarından biri olan Tahirin adı Əttair-Altair (Əl-Tair – müəllif) ulduzunun adı ilə bağlıdır. *"Tair isə əsatirə görə 2224 dünya dağlarının anası hesab edilən Berezant dağının ən yüksək zirvəsinin adıdır. Qədim əsatiri təsəvvürlərə görə, bu dağ guya ki, Ahura-Mazdanın əbədi işıqlara qərq olmuş məkanıdır"* [163, s. 62].

Məmmədhüseyn Təhmasib daha sonra yazır ki, Nahid (Zöhrə) qədim Şərqin mifologiyasında və astral görüşlərində xüsusi yer tutmuş, ədəbiyyatda çox zaman su ilə, dənizlə bağlı ilahə, gözəllik tanrısı, məşuqə kimi təsvir edilmişdir. Məmmədhüseyn Təhmasibə görə, əgər diqqət etsək, "Tahir və Zöhrə" dastanında da bu təsəvvürlərin əsas xüsusiyyətləri qorunub qalmışdır [101, s.320-322].

Lakin, məsələ bundadır ki, Azərbaycan klassik ədəbiyyatında və bəzi folklor nümunələrimizdə "Avesta" ilə səsləşən ad və personajların olması bilavasitə "Avesta"dan deyil, fars klassik ədəbiyyatının, ilk növbədə də Firdövsinin təsirindən qaynaqlanır. Çünki həmin adlar "Aves-

ta”dakı kimi yox, məhz Firdövsinin əsərindəki şəkildədir. Məsələn, Ahura-Məzda (Avesta) – Hörmüz (Firdovsi), Anqra-Manyu (Avesta) – Əhrimən (Firdovsi), Dayva (Avesta) – Div (Frd), Zaratuştra (Avesta) – Zərdüşt (Firdovsi), Aryana (Avesta) – İran (Firdovsi) və s. Azərbaycan və digər türk xalqlarının folklorunda, eləcə də epik əsərlərdə astral inancların izləri ilə ilə rastlaşmaq mümkündür və hesab edirik ki, onun kökünü türk mifologiyası və inam sistemindən axtarmaq daha doğru olardı. Məmmədhüseyn Təhmasib də, monoqrafiyasının “Tahir və Zöhrə” ilə bağlı hissəsində fikirlərini yekunlaşdırarkən dastanın ana süjetinin İran mifologiyasına bağlı ola biləcəyinə şübhə ilə yanaşır və Tahir-Tairin bizdə ayın adlarından biri ola biləcəyini təxmin edir [101, s.324].

Məmmədhüseyn Təhmasib yazılı və şifahi ədəbiyyatda astral təsəvvürlərdən bəhs edikdən sonra, yenidən dastanın süjetinə dönür, əsərdəki Nərgiz və Banu surətlərindən söz açır və bildirir ki, Nərgiz obrazı dastanın bütün variantlarında da su ilə əlaqədardır. Başqa variantlara görə hətta su sandığı gətirib onun bağına çıxarır. Bəzi variantlarda isə Tahir özü gəlib onun bağına girir, su içib çarhovuzun kənarında yatır. Bəzi variantlarda Nərgiz hətta onu suya da basır:

Sən niyə məni küsdürdün?
Höküm eylədin, asdırdın,
Döyübən suya basdırdın,
Al paltarım ələ Nərgiz!

Mən Tahirəm, yana-yana,
Yandı bağrım döndü qana,

Sən bir yaşıl başlı sona,
Uçdun göldən-gölə, Nərgiz!

Bizcə, bu surət də Nərgiz gülü ilə əlaqədar olan məşhur qədim əsatirlə bağlıdır" [101, s.325].

Məmmədhüseyn Təhmasibin böyüklüyü bir də ondadır ki, o tədqiqə çəkdiyi bütün dastanların, o cümlədən "Tahir və Zöhrə"nin Azərbaycan versiyasının əldə olan bütün variantlarını diqqətlə incələmiş, onların epizod və elementləri arasındakı ən xırda fərqləri bircə-bircə ortaya qoymuşdur. Bunu biz onun həm 1972-ci ildə nəşr etdirdiyi "Azərbaycan xalq dastanları (orta əsrlər)" kitabında, həm də Əhliman Axundovla birgə tərtib etdiyi "Azərbaycan dastanları" kitabında görməkdəyik. Biz bu fərqlərlə bağlı məqamlara II fəslin "Tahir və Zöhrə" dastanının Azərbaycan versiyası" başlıqlı yarımfəslində bir qədər geniş toxunuruq. Bu səbəbdən də fikrimizə aydınlıq gətirmək üçün sadəcə bir misala müraciət edək. Dastanın Məmmədhüseyn Təhmasib və Əhliman Axundovun birlikdə tərtib etdikləri "Azərbaycan dastanları" kitabının I cildinə daxil edilmiş variantında şeirlərin digər qeyd olunmuş variantları da təqdim olunmuşdur. Məsələn, Tahirin dilindən söylənən "Gəlmədi" rədifli qoşmanın dastanın müxtəlif variantlardakı digər 5 şəkli (1937-ci ildə nəşr edilmiş "Dastanlar və nağıllar" kitabında verilmiş variant, Tovuz, Şəmkir və Qazax rayonlarından toplanmış variantlar, Güney Azərbaycandan toplanmış variant, 1956-cı ildə Astraxanbazar (Cəlilabad) rayonunun Bəcrəvan kəndində Aşıq Ayış Fiyaz oğ-lundan toplanmış variant, 1960-cı ildə Cəbrayıllı Aşıq Humaydan toplanmış variant) əlavələrdə verilmişdir [19, s. 315].

Məmmədheseyn Təhmasibin "rəmzi məhəbbət dastanları" bölgüsünə daha çox "Qurbani"ni daxil etməsinə rəğmən, istər "Tahir-Zöhrə" kimi astral dastanlarda, istərsə də nağıllara, qədim eposa, yazılı ədəbiyyata bağlı məhəbbət dastanlarında eşqin ilahi mənşə ilə əlaqələndirilməsini səciyyəvi bir xətt kimi diqqətə çatdırdığını və buta məsələsi üzərində ətraflı dayanmağı vacib saydığını bildirən [66, s.8] Muxtar Kazımoğlu yazır ki, "*Azərbaycan dastanlarının variant və versiyalarını ciddi şəkildə nəzərə alan, 1938-1965-ci illər arasında 100-dən çox dastan toplamaqla bu sahədə faktik materiala dərindən bələd olan, istifadə etdiyi toplama, nəşr və arxiv materiallarını dünya nəzəri fikri səviyyəsində dəyərləndirməyi bacaran Məmmədhüseyn Təhmasib dastanların janr təsnifatını verməklə folklor elmimizdəki boşluqlardan birini doldurmuş olur. Məmmədhüseyn Təhmasibə qədər folklorşünaslıqda dastanların təsnifi təcrübəsi ilə, təbii ki, qarşılaşırıq və bu təcrübədə dastanların yaranma dövrü, dastanların qidalandığı mənbə və dastanların ifadə etdiyi məzmun əsas prinsiplər kimi götürülür, təsnifat həmin prinsiplərə nəzərən aparılır*" [67, s.17].

Qeyd edək ki, "Tahir və Zöhrə"nin Ə.Axundov və M.Təhmasib tərəfindən təqdim edilən şəkli 2010-cu ildə AMEA Folklor İnstitutu tərəfindən "Azərbaycan folklor külliyyatı" kitabının XIX cildinə (IX kitab) daxil edilərək təkrar nəşr edilmişdir. Sözügedən cild Hüseyn İsmayılov və Əziz Ələkbərli tərəfindən tərtib olunmuşdur [21, s.108-160].

Dastanın bu variantı AMEA Folklor İnstitutu tərəfindən nəşr edilən yeganə variant deyil. Məsələn, 2011-ci ildə külliyatın XXIX cildinin (XIX kitab) işıq üzü görüb [22]. Qalib Sayılov və Ağavrdi Xəlilov tərəfindən tərtib edilən bu

kitaba Şirvan aşıqlarından toplanmış bir çox dastanlar, eləcə də "Tahir-Zöhrə" dastanı daxil edilib. Kitaba "Şirvanın dastan dünyası" başlıqlı ön söz yazan Q.Sayılov və A.Xəlilov təqdim olunan dastanlarla bağlı danışarkən, söyləyicilər haqqında da məlumat vermişlər [98, s. 13].

2012-ci həmin külliyatın XXX cildi (XX kitab) nəşr edilmiş [23] və orada Folklor İnstitutunun əməkdaşı Elxan Məmmədlinin 2006 və 2012-ci illərdə Aşıq Aslan Kosalının dilindən topladığı bir neçə dastanla yanaşı "Tahir və Zöhrə" dastanı da işıq üzü görmüşdür. Kitabın tərtibçisi qismində çıxış edən E.Məmmədli ona yazdığı "Aşıq Aslan Kosalının dastan repertuarından nümünələr" adlı müqəddimədə aşığın həyat və yaradıcılığı haqqında qısa məlumat verir və sonra yazır ki, "*Aslan Kosalı ilə Kosalı kəndindəki növbəti görüşümüzdə "o, bizə "Tahir-Zöhrə", bir də "Valeh- Zərnigar" dastanlarını danışdı (2006-cı ildə). Hər iki dastanın təqdimatında da orijinal məqamlara, fərqli cəhətlərə sıx-sıx təsadüf etdiyimizdən onları da Aşıq Aslanın təhkiyə və ləhcəsində kitaba daxil etdik"* [75, s. 8].

Son dövrlər dastanın yeni nəşrləri ilə bağlı danışarkən "Güney Azərbaycan folkloru" silsiləsinin VI kitabında yer alan variantı da vurğulamaq lazımdır [52]. Muxtar Kazımoğlunun layihə rəhbərliyi altında Mətanət Maşallahqızının tərtib etdiyi bu kitaba Aşıq Həsən Qəffarinin dilindən Böyükbəy Ələkbəroğlunun topladığı bir neçə dastan, o cümlədən "Tahir və "Zöhrə" dastanının Güney Azərbaycan variantı da daxil edilmişdir. Aşıq Həsən Qəffarinin sözlərinə görə, o, bu dastanı 1989-cu ildə Aşıq Polad Xudafərinlidən əldə etmişdir. Kitaba əhatəli "Ön söz" yazan M.Abbasova

bildirir ki, *"kitabda verilən digər dastan mətnləri isə Aşıq Hüseyn Saidən dinlənilərək yazıya alınmışdır"* [6, s. 9-10].

"Tahir və Zöhrə" dastanının ilkin nəşrləri, süjet xətti, ideya-məzmun xüsusiyyətləri, yayılma arealı və erməni təbdil-tərcümələrinin öyrənilməsi istiqamətində İsrafil Abbaslı da tədqiqatlar aparmışdır. Alimin tədqiqatlarından məlum olur ki, XIX əsrin sonu-XX əsrin əvvələrində Azərbaycanda dastanın həm kədərli sonluqla (qəhrəmanların ölümü) və həm də xoşbəxt sonluqla bitən variantları yanaşı mövcud olmuşdur və erməni əlifbası ilə çap olunan variant məhz qəhrəmanların faciəsi ilə bitən variantlardan biri imiş [2, s. 105].

Tədqiqatlarında Azərbaycan dastanlarına o cümlədən "Tahir və Zöhrə" dastanına geniş yer ayıran alimlərdən biri də Məhərrəm Cəfərlidir. Tədqiqatlarında "Tahir və Zöhrə" dastanından söz açan alim burada digər məhəbbət dastanlarından fərqli olaraq butavermə hadisəsinin olmamasına diqqət çəkir və yazır ki, bununla belə, möcüzəli doğuluş elementinə rast gəlindiyini diqqətə çatdırır. O, qeyd edir ki, Tahirlə Zöhrənin ataları qardaş olduqlarından dastan poetikası onların bir-birlərinə buta verilməsinə gərək görmür. Mətndə butavermə süjetinin olması üçün buta alan gənclərin valideynlərinin qohum olmaması və hətta yad yerlərdə, yarı-ayrı məkanlarda yaşaması lazımdır [35, s.68].

Tahirlə Zöhrənin atalarının, qardaş olmalarına rəğmən, dastanın mətn məkanında onların bəzi məqamlarda qarşıdurma mövqeyində olduqlarını bildirən Məhərrəm Cəfərli onlardan birinin, təbii ki, böyük, digərinin kiçik olmasına diqqət çəkərək qeyd edir ki, bununla belə, təbii halın xüsusilə nağıl mətnlərdə geniş qoşalıqlar təşkil etməsi

məlum faktdır. Məhərrəm Cəfərli "Azərbaycan dastanlarının struktur poetikası" kitabında yazır ki, "*dastan "təfəkkürü" dünyaya qarşıdurma qoşalıqlarından baxır. "Heç təsadüfi deyildir ki, dastan mətnində etnik-mədəni strukturun bütün qatlarını əhatə edəcək qarşıdurma qoşalıqlarına təsadüf olunur. Özü də bu prinsip istər bütöv dastana, istərsə də onun ayrı-ayrı motivlərinə eyni dərəcədə xasdır. Elə nəzərdən keçirdiyimiz və semantik sxemini qurmağa çalışdığımız doğuluş süjetinin özündə dünyanın ən iri struktur qatları artıq əhatə olunur... Oğlan-qız binar qarşıdurması, hər şeydən öncə cinsi təsnifat qoşalığıdır. Ancaq dastan mətnində bunun inkar olunmayacaq sosial təsnifat aspekti də var. Bu aspekt gələcək sevgililərin Aşiq-Məşuq obrazlar kompleksi şəklində qurulmasında özünü xüsusilə göstərir. Belə ki, məhəbbət dastanlarında fiziki fəallıq aşiqə (oğlana) məxsusdur, qızın fəallığı fiziki planda az görünür*" [36, s.126-127].

"Tahir və Zöhrə" dastanına müəyyən qədər görkəmli folklorşünas alim Azad Nəbiyev də toxunmuşdur. A.Nəbiyevin dastanla bağlı əsas qənaəti bundan ibarət olmuşdur ki, qəhrəmanların adlarının səma cismlərini ifadə etməsi onların "astral dastanlar" kimi xarakterizə edilməsinə əsas verə bilməz. Alimə görə "Tahir və Zöhrə" dastanında astral təsəvvürlərlə bağlı heç nə yoxdur " [92, s.355-357].

Təbii ki, "Tahir və Zöhrə" dastanı ulduzlar və ya digər səma cismləri ilə bağlı məzmun daşımır. Ümumiyyətlə kosmosla bağlı, astral məzmunlu epik süjetlər daha arxaik dövrlərdə yaranır, mifik təsəvvürləri əks etdirir. Zaman keçdikcə, dünyagörüş dəyişdikcə bu miflər, əfsanələr də ilkin funksiyasını itirir, unudulur və ya başqa janrlara transformasiya olunurlar. Çox vaxt ilkin arxaik stuktur, mifoloji

modellər sonrakı epik əsərlərin alt qatında qorunub saxlanıla bilir. Belə düşünmək olar ki, astral mahiyyət "Tahir və Zöhrə" dastanında da arxaik (kosmik) model və adlar səviyyəsində qorunduğuna görə Məmmədhüseyn Təhmasib onu şərti "astral dastanlar" sırasına daxil etmişdir.

Azərbaycanlı alimlər "Tahir və Zöhrə" dastanın təkcə Azərbaycan versiyası haqqında deyil, onun başqa versiyaları və ümumiyyətlə digər türk xalqlarının folkloru [46; 49; 104; 121] barədə də maraqlı fikirlər söyləmişlər.

Bütün bu deyilənlərdən göründüyü kimi, ölkəmizdə "Tahir və Zöhrə" dastanının Azərbaycan versiyasının və onun variantlarının toplanması, sistemləşdirilməsi, tədqiqi və nəşri sahəsində heç də az iş görülməyib. Müqayisələr göstərir ki, Azərbaycan alimləri bu sahədə Türkiyə, Özbəkistan və Tatarıstan alimlərindən qətiyyən geri qalmamış, hətta bəzi istiqamətlərdə daha məhsuldar olmuşlar.

1.2. Başqa türk xalqlarında "Tahir və Zöhrə" dastanının toplanması, nəşri və tədqiqi tarixi

Türkiyədə "Tahir və Zöhrə" dastanının tədqiqi tarixi XIX əsrin II yarısından başlamaqdadır. Dastanın osmanlıcada olan və ən əski variantlarından biri hesab edilən variantı ilk dəfə German Vamberinin diqqətini çəkmiş və onun ilk nəşrini də 1901-ci ildə məhz alimin özü həyata keçirmişdir [239].

Dastanın Türkiyədəki ilk nəşrlərinin çoxu daşbasma yolu ilə həyata keçirilib ki, onlardan bəziləri illüstrasiyalıdır. Bunların ən ilki hicri 1300, miladi 1883-cü ildə nəşr olunmuşdur. Mətbəə üsulu ilə nəşr edilənlər içərisində isə ən ilki hicri 1266, miladi 1850-ci ilə aiddir. O, "Basmaxane-i

Amirə" mətbəəsində nəşr edilib. Bundan başqa həmin variantın "Hikaye-i Tahir ile Zührə" və ya "Kıssa-i Tahir ilen Zühre" adı ilə 1888 (iki), 1889 və 1891-ci illərdə basılmış və nə zaman basıdığı bilinməyən daşbasma variantları mövcuddur [250; 251; 252; 253; 254].

Dastanın ümumilikdə "Qissə-i Tahir", "Qissə-i Tahir ilə Zöhrə", "Qissə-i Tahir ilə Zöhrə ba Təsvir" və "Tahir Mirzə" adlarıyla məlum olan 24 variantı təsbit edilmiş, ancaq əlyazma nüsxələrinə rast gəlinməmiş, yazılması artıq qeyd etdiyimiz kimi XIX əsrin ikinci yarısından etibarən başlanmışdır. Onların geniş və hərtərəfli tədqiqi Fikrət Türkmən tərəfindən həyata keçirilmişdir. Qeyd edək ki, Fikrət Türkmən "Tahir və Zöhrə" dastanının Türkiyədəki ən tanınmış naşir və tədqiqatçılarından biridir [203; 204; 205]. O, dastanın həmin dövrə qədər əldə olan Türkiyə variantlarını ilk dəfə digər variantlarla birlikdə gözdən keçirərək, Yazma, S1, S2, S3, S4, S5, S6, S7, S8, S9, Azərbaycan (Az.), Alt Osmanischei (Alt. Os.), Rodop, Kırım, Tobol, Tarançı, özbək, türkmən, Türkistan, alban, erməni, Qaragöz və Ortaoyunu kimi adlandırdığı variantlarını tutuşdurmuş, onların müqayisəli təhlilini vermişdir [204, s. 31-100].

Fikrət Türkmənin bu istiqamətdə tədqiqatları içərisində dastanın Anadolu və özbək variantlarının müqayisəsinə həsr etdiyi məqaləsini də xüsusi qeyd etmək lazımdır. Müəllif bu məqaləsində sözügedən variantların eyni mədəni mühitdən bəsləndikləri səbəbindən bir-birilərinə çox bənzədiyini bildirərək qeyd edir ki, müqayisəyə çəkilən variantlar eyni süjetə sahibdirlər və bu gün əlimizdə olan bu variantlardakı bənzərlik bizə Orta Asiya-Anadolu mədəni

əlaqələri haqqında önəmli məlumatlar verir. Alimin fikrincə, özbək variantı Qərb, yəni Azəırbaycan və Anadolu variantlarına nisbətən daha sonrakı dövrün məhsuludur və onun təşəkkülü Azərbaycan ərazisində baş vermişdir. Yəni süjet Orta Asiyadan Qərbə deyil, Qərbdən Orta Asiyaya keçmişdir. Fikrət Türkmən yazır ki, *"dastanın süjetinin təşəkkül etdiyi yer haqqında doğrudan doğruya hər hansı bir məlumat olmasa da, onun bəhs etdiyi coğrafiya bu mövzudada bəzi ip ucları verməkdədir. Türküstan, Tobol və Tarançı variantlarından başqa yerdə qalan bütün variantlarda olaylar Güney-doğu Anadolu-Van-Azərbaycan bölgəsində baş verir. Türküstan variantında da Tahir, Şat Suyuna atılınca Rumda ortaya çıxır. Beləcə, o da sonunda bu və ya digər şəkildə Anadolu ilə əlaqələndirilmiş olur. Azərbaycan variantındakı Qaraman şəhəri, türkmən variantındakı Tatar ölkəsi ifadələri də dastanın inkişafı baxımından çox da bir önəm daşımamaqdadır. Çünki hər ikisində də Tahir Şat Suyuna atılır. Beləcə, bu iki yer adından biri qaranlığı, biri də uzaqlığı ifadə edən simvolik anlamlarda çıxış etmiş olur"* [204, s.174].

Dastanın Türkiyədəki söyləyiciləri içərisində Aşıq Behcət Mahirin özünəməxsus yeri və rolu var. O, rəsmi qeydlərə görə, 1919-cu ildə Ərzurumda anadan olmuşdur, fəqət doğum tarixinin daha əvvəl olduğu söylənilir. Onun Ərzurum və ətrafında xalq arasında yaşayan dastanların mahir bilicisi və söyləyicisi olduğu məlumdur. Elə bu səbəbdən də Mehmet Qaplan tərəfindən universitetdə çalışmağa dəvət edilmişdir. Söylədiyi folklor nümunələri Əhməd Ədib Uysalın yardımı ilə Amerika və İngiltərədə belə şöhrət tapmışdır. Behcət Mahirin sağlığında söylədiyi dastanların böyük əksəriyyəti Muhan Bali, Fikrət Türkmən,

Bilgə Seyidoğlu, Əhməd Ədib Uysal, Saim Sakaoğlu, Əli Bərat Alptəkin, Əsma Şimşək, Rene Giraud və Natelie K.Moyle kimi elm adamları və tədqiqatçılar tərəfindən təsbit edilərək nəşr olunmuşdur. Bundan başqa onun dilindən alınan materiallar əsasında çox sayda məqalə və məruzələr hazırlanmışdır. Söylədiyi dastan, rəvayət və nağıllar sırasında "Aşıq Qərib", "Koroğlu", "Nəbi xan" və s., o cümlədən "Tahir və Zöhrə" dastanı da vardır [199, s. 49-57].

Konkret olaraq "Tahir və Zöhrə"yə gəlincə, onun dilindən dastan "Dahar Mirzə" adıyla 1970-ci ildə Yaşar Boza tərəfindən lentə alınmış və elə həmin ildə nəşr edilmişdir [179, s. 5].

Mövzu ilə məşğul olan Türkiyə alimləri içərisində Doğan Kayanın da adını xüsusi çəkməyə ehtiyac var. O, dastanın Şarkışla variantını elm aləminə tanıtması ilə məşhurdur. Sözügedən variantı 1992-ci ilin 31 oktyabr tarixində ilk dəfə Aşıq Qafilinin (Hacı Ozan) ifasında qeydə almış və 1993 və 1995-ci illərdə nəşr etmişdir [191; 192].

Türkiyədə dastanın tədqiqatçılarından biri olan Fırat Caner "Tahir və Zöhrə"nin süjetinin Qaragöz və Ortaoyunundakı variantlarını müqayisəli tədqiq və təhlil etmişdir. Doğrudur, ondan öncə də bu məsələyə toxunanlar olmuşdur [182]. Bu sırada Pertev Naili Boratav, Fikrət Türkmən və Mətin Andın adını ilk sırada çəkmək lazımdır. Məsələn, Pertev Naili Boratav özünün "Halk hikayeleri ve hikayeçiliyi" adlı kitabında sözlü ənənədəki xalq dastan və hekayələrinin şeir baxımından Ortaoyunu və Qaragözdən daha zəngin olduğunu söyləyərək [178, s.170-172] bildirir ki, xalq hekayələri Qaragöz pərdəsinə keçərkən özəlliklə "gülünc"

olmaq yönündə inkişaf etmiş, komik xarakter almağa başlamış, süjeti müxtəlif həcvlərlə, eləcə də digər əsərlərdən alıntılarla zənginləşdirilmişdir [178, s. 130].

Alimin bu sözlərini təsdiq edən Fikrət Türkmən bu kimi halların Ortaoyunu və Qaragöz variantları üçün xarakterik olduğunu söyləyir və deyilənlərin sübutu kimi bildirir ki, *"Tahir və Zöhrə"nin Cövdət Qüdrət tərəfindən yayımlanan Qaragöz oyunundakı süjetinə Füzulinin "Leyli və Məcnun"undan aşağıdakı beyt daxil edilmişdir:*

Fələk ayırdı məni cövr ilə cananımdan,
Həzər etməz mi əcəb nalə və əfğanımdan"

[204, s.122].

Bütün bu deyilən fikirləri daha da inkişaf etdirən Fırat Caner mövzunu daha dərindən və geniş işləyə bilmiş və bu zaman, təbii ki, özündən öncəki alimlərin fikirlərini də xatırlatmağı unutmamışdır. O, dastanın əldə olan sözlü variantları ilə Qaragöz və Ortaoyunu variantlarını müqayisə edərək göstərir ki, dastanlardakı şeir zənginliyi nə Qaragöz, nə də Ortaoyununda yoxdur. O, sələfi Fikrət Türkmənə istinadən bildirir ki, "Tahir və Zöhrə" dastanının süjeti ilə bu mövzuda olan Ortaoyunu və Qaragözdəki süjet müəyyən dərəcədə eyni olsa da, tamaşalarda romantizm arxa plana keçirilmiş, hadisələr komikləşdirilmişdir. Fırat Caner həm də bunu qeyd edir ki, "Tahir Mirzə" dastanının Anadoludakı dastan variantı ilə xalq teatrındakı variantı arasında gözə çarpan fərqlərdən biri də hadisələrin fərqli məkanlarda cərəyan etməsidir. Məsələn, Aşıq Behcət Mahirin söylədiyi "Tahar Mirzə ilə Zöhrə Banu" hekayəsinin mərkəzində İstanbul deyil, Xorasan vardır [182, s.109].

Əhməd Gökçəgözoğlu da eyni yolla gedərək, dastanın türkmən və qumuq variantlarını müqayisəli təhlil etmişdir. Alim dastanın yayılma arealını göstərməyə çalışaraq qeyd etmişdir ki, mifoloji, epik və mistik ünsürlərin bir sintezi olan, mövzusunu sevgi və eşq macərası təşkil edən, "Zöhrə - Tahir", "Mirzə Tahir ilə Banu Zöhrə", "Tahir ilə Zöhrə", "Taji bilən Zöhrə", "Daqir - Zuğra" kimi adlarla bilinən dastan sadəcə Orta Asiya coğrafiyasında deyil, İran, Qafqazda, Tatarıstanda, Balkanlarda, Kiprdə və Türkiyədə məlumdur. Uzun dövr ərzində təşəkkül edən, zamana və məkana görə fərqliliklər göstərən bu kimi sözlü folklor nümunələri, toplumun sosial və mədəni təməlində dəyişikliklərlə birlikdə inkişaf və dəyişim göstərmişdir [185, s.449].

Məlumat üçün bildirək ki, Əhməd Gökçəgözoğlu dastanın türkmən variantının Türkiyədəki ən tanınmış tədqiqatçılarından biri hesab edilir və bu mövzuya həsr edilmiş ayrıca bir araşdırma əsəri mövcuddur [186].

Eyni mövzuya müraciət edən Türkiyəli alimlərdən biri də Əhməd Gökçiməndir. Onun "Molla Nepesin "Zöhrə-Tahir" hekayəsinin mətnlərarası bağlamda yenidən yazılımı" adlı məqaləsi [188, s.32-44] türkmən dastanlarını araşdıran folklorşünas alimlərin "stolüstü kitablar"ından hesab edilir.

"Tahir və Zöhrə dastanı"nın Türkiyəli tədqiqatçılarından biri də Qədriyyə Türkandır [202, s.137-146]. O, diqqətini daha çox dastanın Yazma, Aşıq Behçet Mahir, Tobol ve Bolqarıstan variantları üzərində cəmləşdirərək, dastandakı kölgə arxetipi məsələsini araşdırma mövzusuna çevirmişdir. Onun qələmə aldığı "Tahir ilə Zöhrə hekayəsinin çeşid-

li variantlarında kölgə arxetip" məqaləsində mərkəzi yerdə "Dahar Mirzə" adıyla məlum olan, 1970-ci ildə Qarslı Aşıq Behcət Mahirin dilindən lentə alınan və elə həmin il də Yaşar Boza tərəfindən nəşr edilən [179] variant durmaqdadır. Kölgə də daxil olmaqla arxetiplərin ortaya çıxdığı yerlərdən birinin də ədəbi əsərlər olduğunu vurğulayan alim qeyd edir ki, onlar aid olduqları toplumların adət və ənənəsini, inanc və ortaq bilincini əhatə etməkdədir. Ortaq bilincin təsirli olduğu kollektiv yaradıcılıq məhsullarından biri də dastanlar, o cümlədən "Tahir ilə Zöhrə" hekayəsidir. Onun gəldiyi nəticəyə görə, dastanın Bolqarıstan variantında Qaraçor, Yazma variantında Ərəb, Tobol variantın Kül Xan və Qara Batır, Aşıq Behcət Mahirin dilindən qələmə alınmış variantda isə Etem Şah kölgə kimi çıxış etməkdədirlər. Bu şəxslər Tahirin şüuraltısına daxil olan və toplum tərəfindən xoş qarşılanmayan, insanları fəlakətə sürükləyəcək qədər eqoist, qısqanc, rəhmsiz qüvvələri təmsil edirlər [202].

Xalq dastanlarının, o cümlədən "Tahir və Zöhrə" günümüzədək şifahi şəkildə yaşamasında Şimali Kipr türk aşıqlarının – Hüseyin Teralı, Mustafa Müzəffər Özboşnaq, Məhəmməd Molla Əli (Məhəmmədo), Hüseyin Koloz və b. xüsusi rolu olmuşdur [190, s.105]. Kipr türklərindən "Tahir və Zöhrə" dastanının toplanması bilavasitə Mustafa Gökçəoğlunun adı ilə bağlıdır. O, bu dastanı 1988-ci ildə Gönyəli-Lefkoşada çobanlıqla məşğul olan, eyni zamanda saz çalıb-oxuyan, 1908-ci ildə doğulduğu bilinən Hüseyin Kolozun dilindən yazıya almış və 1999-cu ildə nəşr etdirmişdir [187, s.84-97].

Dastanın Kipr variantının tədqiqində Burak Gökbulutun da xüsusi xidmətləri vardır [184]. O, "Tahir ile Zühre" hekayəsinin (Kipr türk variantının) quruluş baxımından incələnməsi" adlı məqaləsində Fikrət Türkmənin müqayisə [204, s.31- 100] metodunu əldə əsas tutaraq, mövcud variantlarla Kipr variantının epizodlarını müqayisə etmiş sonuncuda digər variantlarda olan üç epizodun əksik olduğunu müəyyən etmişdir. Onun yazdığına görə, Kipr variantında da əldə olan variantların bir qismində (Alt. Os., Türkistan, özbək, Tobol, Tarançı, S4, S5, S6, Qaragöz, Ortaoyunu) olduğu kimi, Tahirin ilk dönüşündən sonra, ikinci dəfə sürgün edilməsi səhnəsinə rast gəlinmir. Bu dönüş zamanı Zöhrənin başqa birisi ilə evləndirilmək istəməsi epizodu da yoxdur. Alim Kipr variantında mövcud və əskik olan epizodları aşağıdakı kimi sıralayır:

"1. Tahirlə Zöhrənin ailələri (Bu epizod Kipr türk variantında mövcuddur).

2. Qəhramanların doğumu və asiq olmaları (Bu epizod Kipr türk variantında mövcuddur).

3. Aşiqlərin evlənmələrinin əngəllənməsi (Bu epizod Kipr türk variantında mövcuddur).

4. Tahirin ilk dəfə sürgünə göndərilməsi (Bu epizod Kipr türk variantında mövcuddur).

5. Tahirin ilk dönüşü (Bu epizod Kipr Türk variantında mövcuddur).

6. Tahirin ikinci dəfə sürgün edilməsi (Bu epizod Kipr türk variantında mövcuddur).

7. Tahirin ikinci dəfə dönüşü (Bu epizod Kipr türk variantında yoxdur).

8. Zöhrənin başqası ilə evləndirilmək istənilməsi (Bu epizod Kipr türk variantında yoxdur).

9. Tahirin sonu (Bu epizod Kipr türk variantında mövcuddur).

10. Zöhrənin aqibəti (Bu epizod Kipr türk variantında mövcuddur).

11. Rəqibin aqibəti (Bu epizod Kipr türk variantında mövcuddur).

12. Ölümdən sonra meydana gələn əfsanələr (Bu epizod Kipr türk variantında mövcuddur)" [184, s.979-980].

Kosova variantlarını qeydə almış Gonca Kuzay Demir də əldə etdiyi mətnlər əsasında dastanın morfoloji strukturunu (o buna "epizod yapısı" deyir) müəyyənləşdirməyə çalışıb [193, s.466-470]. Onun bölgüsü (motiv ardıcıllığı) təxminən bu şəkildədir:

1. Qəhrəmanların ailələrinin tanıdılması. Burada iki informasiya verilir:

a) ailələrin bir-biri ilə yaxınlığı;

b) ailələrin sosial vəziyyəti.

2. Qəhrəmanların doğulması və böyüyüb bir-birləribə aşıq olmaları.

3. Qəhrəmanların evlənməsinə maneə yaradılması. Burada da üç məlumat əhatə olunur:

a) Maneənin yaranmasının səbəbi;

b) Maneənin nə şəkildə olması;

c) Maneənin yaranmasına yardım edən şəxslərin kim olması.

4. Qəhrəmanın (Tahirin) sürgün edilməsi.

5. Qəhrəmanın (Tahirin) ölkəsinə geri dönüşü.

6. Tahir və Zöhrənin başqaları ilə evləndirilməsi cəhdi.

7. *Tahirin sonu (ölməsi).*

8. *Zöhrənin aqibəti.*

9. *Rəqibin (əsas antiqəhrəmanın) aqibəti.*

10. *Qəhrəmanların ölümündən sonra yaranan əfsanələr* [193, s.466-470].

Müəyyən xırdalıqlar nəzərə alınmasa, G.K.Demirin təqdim etdiyi model məhəbbət dastanlarının strukturu haqqında əvvəllər deyilmiş fikirləri təkrarlayır. Təbii ki, qəhrəmanlar öldüyü üçün burada sonluq fərqli şəkildə verilib.

"Tahir və Zöhrə" dastanın Orta Asiyada yazıya alınması və nəşri ilə bağlı ilk olaraq onu demək istəyirik ki, Molla Nəpəsin "Zöhrə-Tahir" adı ilə qələmə aldığı türkməncə mətn onun ən maraqlı variantlarından biridir. Lakin Molla Nəfəs Orta Asiyada sözügedən mövzuya ilk baş vuran ozan sayılmır. Əldə olan məlumatlara görə, ondan öncə bu mövzuya Seyidmühəmməd Səyyadi, daha sonra isə Mollamurad Xorəzmi müraciət etmişlər [220, s.62]. Bundan başqa, "Zöhrə-Tahir"ın nəzm formasında olan başqa bir variantının 1936-cı ildə H.Şahberdiyev tərəfindən "Baxşı Baba" ləqəbi ilə tanınan Xudayberdi Annamıradın dilindən yazıya köçürüldüyü ve Türkmənistan Dil və Ədəbiyyat İnstitutuna təqdim edildiyi bilinməkdədir. Amma həmin variant nəşr edilməmişdir. Belə ki, sonradan məlum olmuşdur ki, sözügedən variant şair Səyyadinin qələmə aldığı əsərin baxşılar tərəfindən ifa olunan mətnindən başqa bir şey deyildir.

Belə hesab edilir ki, Molla Nəpəs özündən əvvəlki ozanların əsərlərindən, eləcə də dastanın xalq arasında yaşamaqda olan şifahi variantlarından təsirlənərək yeni variant

ortaya qoymuşdur. Əksər tədqiqatçılar da öz tədqiqatlarında məhz onun variantına üstünlük vermişlər. Həmin tədqiqatçılar içərisində A.Kəkilov, B.Qarrıyev, N.Aşırov, H.Şahberdiyev, M.Köseyev, A.Qovşudov, H.Xallı, B.Şamıradov və O.Yazımovun adlarını ön sıralarda çəkmək lazımdır.

Türkmən tədqiqatçılar içərisində dastan üzərində ən geniş və əhatəli araşdırmanı A.Kəkilov aparıb. O, türkmənlər arasından toplanmış "Zöhrə-Tahir"in üç ayrı variantının araşdırılması və onları özünün doktorluq işinin mövzusuna çevirməsi ilə məşhurdur [217, s.159], Alim daha sonrakı dövrlərdə əldə olan mətnlərdən istifadə edərək məsləkdaşları ilə birlikdə dastanla bağlı bir çox kitab nəşr etdirmişdir. A.Kəkilovun topladığı ilk variant 1946-cı ildə Aşqabadın Köşi obasında yaşayan Çaqan Ağanın dilindən yazıya köçürülüb. Lakin həmin nüsxə 1948-ci ildə Aşqabadda baş verən böyük zəlzələ zamanı yoxa çıxıb. Alim ikinci nüsxəni 1947-ci ildə şair, yazıçı və folklorşünas Ata Qovşudovdan əldə edib. Üçüncü nüsxəni isə 1948-ci ildə Çarcou da yazıya köçürüb. Bunlardan sonuncusu nağıl formasındadır [216, s.111].

Molla Nəpəsin dilindən qeydə alınmış varianta gəlincə, o, ilk dəfə 1940-cı ildə nəşr edilib. Növbəti nəşri 1943-cü ildə rus dilində gerçəkləşib. Ardından 1954 və 1955-ci illərdə dastan türkməncə təkrar nəşr olunub. 1959-cu ildə isə A.Kəkilov, N.Aşırov və B.Qarrıyev uzun əməkdən sonra "Zöhrə-Tahir"in mükəmməl bir nəşrini həyata keçiriblər. Onların birlikdə reallaşdırdıqları sözügedən nəşri dastanın Türkmənistanda ən uğurlu nəşri adlandırsaq, bizcə, səhv

etmərik. Həmin mətn 1963-cü ildə təkrar nəşr edilmişdir [188, s. 34].

Maraqlıdır ki, türkmən xalqı arasında dastanın şifahi variantları deyil, məhz Molla Nəpəs variantı daha çox sevilir və özünün populyarlığı ilə fərqlənir. Bunun səbəbi bir yandan əsərdəki şeirlərin poetik gözəlliyindən, digər yandan isə süjetin xoşbəxt sonluqla bitməsindən qaynaqlanır. A.Kəkilovun fikrincə, Molla Nəpəs sözügedən süjeti nağıl şəklində olan variantdan ilham alaraq qələmə almışdır [216, s.113].

Yeri gəlmişkən qeyd edək ki, mövzuya daha sonrakı illərdə toxunan müəlliflərin, demək olar ki, hamısı V.Jirmunski və H.Zərifovla yanaşı A.Kəkilova da istinad etmişlər.

Dastanın türkmən variantının 1959-cu il nəşrinə ön söz də yazan A.Kekilov öncəki nəşrlər zamanı söylədiyi fikirlərini eyni ilə təkrarlamış, öncə dastan və Molla Nəpəs haqqında məlumat vermiş, daha sonra süjeti qısaca təsvir etmiş, ən sonda isə qənaətlərini bölüşmüşdür. Onun yazıları hamısı sovet dövrünə təsadüf etdiyi üçün həmin dövrün qaçılmaz tələbi olan sovet ideologiyasının maraqlarına uyğun səpkidə olmuşdur. A.Kəkilov dastanın süjetinin xeyirlə şərin mübarizəsi əsasında qurulduğunu dilə gətirərək bildirir ki, *"ədalətsizlik, qara gücün şiddəti nəticəsində sevgililər hədəflərinə çata bilmədən məhv olurlar. Ancaq eposun belə bir sonu hadisələri fantastik şəkildə davam etdirən Molla Nəpəsi qane etmir. Yaxınlarının ölümü xəbəri ictimaiyyətin gözündə böyük bir qəm və kədər mənbəyidir və xalq Babaxana hiddətlənir. Hökmdar Babaxana hücum edirlər. Zöhrə və Tahir məqsədlərinə xəyal yolu ilə çatırlar"* [216, s. 7].

V.M.Jirmunski, H.Zarifov və N.Aşırov kimi alimlərə görə, Molla Nəpəs variantının süjeti "Kosi Körpeş və Bayan Sulu" adlı tatar dastanından əxz edilib (126, s.209; 215, s.7). Eyni fikrə M.Avezov da şərik çıxmaqdadır [176, s. 99]. Mövzuya Xalıq Koroğlu da özünün türkmən [133, s.3-280] və özbək [134, s. 4- 288] ədəbiyyatına həsr etdiyi əsərlərində ötəri toxunmuş, dastan barədə sadəcə məlumat verməklə kifayətlənmişdir.

Mütəxəssislər dastanın özbək variantının formalaşmasının Səyyadinin adı ilə bağlı olduğu fikrində yekdildirlər, ancaq onlardan bir qismi sözügedən dastanı özbəklərə deyil, tatarlara aid edirlər [126, s.294; 169, s.214]. Dastanın özbəklərə aid olduğu versiyanı dəstəkləyən digər tədqiqatçılar, o cümlədən özbək alimi T.Nişanbayeva dastanın müəllifinin XVII-XVIII əsrlərdə yaşamış olan Mühəmməd Səyyadi olduğunu bildirməkdədirlər [147, s.17]. Məlumat üçün bildirək ki, dastanın kitab variantının müxtəlif yerlərində müəllif özünü Səyyad, Səyyadi, Səyyad oğlu Qılıc, Qul Səyyad oğlu Xarabi kimi tanıdır [130]. Lakin Qılıc oğlu Səyyadi və ya Qılıc ibn Səyyadinin XIV-XV əsrlər arasında yaşayıb yaratmışdır və həyatı haqqında əlavə heç bir məlumat yoxdur. T.Nişanbayeva dastanın müəllifinin XVII-XVIII əsrlərdə yaşamış olan Mühəmməd Səyyadi olduğunu iddia etməkdədir [147, s. 17].

Belə hesab edilir ki, dastan XVI əsrdə xalq arasında dağınıq rəvayətlər şəklində olmuş, Səyyadi bu rəvayətləri bir araya toplayaraq "Tahir ilə Zöhrə"ni bütöv şəklə gətirmişdir [202, s.147]. Səyyadinin dastanı poema – məsnəvi şəklindədir. Səyyadinin qələmə aldığı dastanının tədqiqin-

də A.Kul-Muxamedov, X.Xismetullin, L.Dmitriyeva, M.Əxmətjanov, Q.Tukay, İ.Maraş, R.Xurmatulina, Q.Şamarova və F.Türkmənin önəmli xidmətləri olub [135; 209; 122; 208; 164; 130; 169; 205]. Bu sırada adını yuxarıda qeyd etdiyimiz, bu mövzunu özünün elmi dissertasiya mövzusuna çevirən T.Nişanbayevanın adını xüsusi yad etməyə ehtiyac var. Bunlardan A.Kul-Muxamedov dastanın türkmənlər içərisində formalaşdığını iddia etmişdir [135, s. 33]. T.Nişanbayeva isə onun bu fikri ilə razılaşmayıb, S.Hüseyn və X.Zərifova istinadən onu XVI əsrə aid özbək əsəri hesab etmişdir [148, s.4]. Bu tədqiqatçı eyni zamanda dastanın əldə olan bütün nüsxələri, o cümlədən Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun Sankt-Peterburq şöbəsində "B 3833", "C148" və "B3245" şifrələri, Özbəkistan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda 6357, 6359, 9194, 10236 nömrələri altında mühafizə edilən, Özbəkistan Elmlər Akademiyasının A.S.Puşkin adına Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyat Muzeyində "№ 95" şifrəsi ilə məlum olan, eləcə də M.E.Saltıkov-Şedrin adına Sankt-Peterburq Kütləvi Kitabxanasında (№439), Tatarıstan Respublikası Elmlər Akademiyasının Q.İbrahimov adına Dil, Ədəbiyyat və İncəsənət İnstitutunda (кол. 39, ед. хр. 2016, 4896), Türkmənistan Elmlər Akademiyasının Ədəbiyyat İnstitutunda qorunan nüsxələr barədə ətraflı məlumatlar verməsi ilə məşhurdur [148, s.3].

Deyilənlərə onu da əlavə edək ki, A.Kul-Muxamedov 1928-ci ildə, hələ Leninqrad Şərqşünaslıq İnstitutunun aspirantı olarkən, Türkmənistana səfəri zamanı Səyyadi varian-

tının digər nüsxələrinə bənzəməyən daha bir nüsxəni üzə çıxarmışdır [135, s. 33].

Adı çəkilən tədqiqatçılardan X.Xismetullin dastanı XIV-XV əsrlərə aid etmiş və ondan tatar ədəbiyyatının nümunəsi kimi söz açmışdır. O, fikrini əsaslandırmaq üçün İ.F.Qotvaldın Kazan Universitetinə bağışladığı, lakin sonradan naməlum səbəblərdən itən nüsxəni misal çəkir [209, s.250]. L.Dmitriyeva tədqiqatlarını əsasən dastanın B3833, C148, B3245 nömrəli nüsxələri üzərinə cəmləşdirmişdir [117]. Marsel Əxmətjanov isə Tatarıstan Respublikası Elmlər Akademiyasının Q.İbrahimov adına Dil, Ədəbiyyat və İncəsənət İnstitutunda qorunan nüsxələri incələmişdir [208, s. 171].

Qeyd edək ki, "Tahir və Zöhrə" dastanının elmi tədqiqata cəlb edilmiş ilk nümunəsi məhz Tobol tatarlarından toplanmışdır. Həmin nümunənin toplanaraq nəşr edilməsi böyük rus şərqşünası və türkoloqu Vasili Radlovun adı ilə bağlıdır [196, s. 277-278]. "Tahir və Zöhrə" dastanına aid natamam mətnlər Sovet hakimiyyəti illərində (təxminən 1970-ci illərdə) həmin bölgədən – Tobol tatarlarının məskun olduğu Tümen vilayətinin Tabol rayonunun Laytamak kəndindən 1903-cü il təvəllüdlü Sərvər Baxtiyevadan folklorşünas F.Axmetova tərəfindın yazıya alınıb. Bu mətnlər, F.Axmetovanın F.Yusupovla birgə Omsk vilayətindən yazıya alınmış mətnlərlə birgə notlar əlavə edilməklə sonralar çap olunub [157, s.105-110].

Q.Şamarova və R.Xurmattulina "Tahir və Zöhrə"nin tatar və özbək variantlarını tutuşdurmuşlar [169, s.214]. Bu müəlliflərin birlikdə qələmə aldıqları "Səyyadinin "Bababxan dastanı"nın türkdilli folklor və ədəbi versiyaları" adlı

məqalədə "Tahir və Zöhrə" dastanının qazax, Altay, başqırd, özbək, tatar, noqay və digər türk xalqları içərisində yaşamaqda olan variant və versiyaları haqqında məlumat verilir və onlar arasında müqayisə aparılır. İlk öncə adı çəkilən versiya və variantlar üçün ortaq olan süjetə nəzər atmağı lazım bilən Q.Şamarova və R.Xurmattulina qeyd edirlər ki, əksər variantlar övladları olmadığı səbəbindən qəm və kədər içində olan şah və vəzirin üzlərini göyə çevirib Allaha yalvarmaları və bir-birinə övladları olacağı halda onları evləndirəcəkləri barədə söz vermələri ilə başlayır. Vəzirin oğlu, şahın isə qızı olur və onlar bir-birilərinə aşiq olurlar. Günlərin birində vəzir ölür, şah isə vədini unudur. Bu səbəbdən də sevgililəri bir-birindən ayrırlar. Məqalədə daha sonra süjetin əsasını təşkil edən digər hadisələr bir-bir təsvir edilir. Tahirin meydanda edam edilməsindən, Zöhrənin qəm və kədərdən ölməsindən, Zöhrənin qəbrində ağ, Tahirinkində isə qırmızı gülün çıxmasından, ancaq ortada bitən tikandan, bu güllərin bir-birinə sarmaşmasından bəhs edilir.

Müəlliflər daha öncə nəşr edilmiş "Boranqı tatar ədəbiyyatı" adlı kitaba [207, s.258-334] istinadən dastanın müəllifinin XIV-XV əsrlərdə yaşayan Qılıç ibn Səyyadi adlı bir tatar olduğunu söyləyirlər. Ardınca da dastanın tam mətnini hazırlayan özbək alimi T.Nişanbayevanın onu XVII-XVIII əsrlərdə yaşamış özbək şairi hesab etdiyini qeyd edirlər. Daha sonra isə bildirirlər ki, Ə.Kumaşi "Qissə-i Tahir və Zöhrə" dastanında yazır ki, *"o bu versiyanı 1879-cu ildə Kuşar kəndində tatar və qazax dillərində olan türk kitablarından əxz etmişdir"* [210, s.304; 169, s.214].

Məqalə müəllifləri fikirlərini əsaslandırmaq üçün sözlərinə Ə.Kurmaşinin əsərinin 1882-ci ildə Kazanda nəşr edildiyini də əlavə edirlər. Onların yazdığına görə, dastanın Səyyadi və Ə.Kurmaşi variantlarının süjet və kompozisiyalarının müqayisəsi maraqlı nəticələr doğurur. Səyyadinin əsəri orta əsrlər türk-tatar dilində yazılmışdır. Mətndə ərəb və fars kəlmələri çox olduğundan çətin anlaşılır. Bununla belə, əsər tatar dilindədir.

Q.Şamarova və R.Xurmattulina fikirlərini əsaslandırmaq üçün aşağıdakı parçanı misal gətirirlər [169, s. 214]:

"Uqıl bulsa, ikese də dus bulsın,
İkese ber tən, həm də ber jan bulsın.
Əqər kız bulsalar, bulsın nartinqdəş,
Ber-bersine bulsınnar alar janaş" [214, s. 23]
("Oğul olsa, ikisi də dost olsun,
İkisi bir tən, həm də bir can olsun.
Əgər qız olsalar, olsunlar təndaş,
Bir-birinə olsunlar onlar candaş).

"Tahir və Zöhrə" dastanının tədqiqatçıları sırasında L.Müxametzyanovanın və R.İslamovun da adlarını qeyd etmək lazımdır. Bunlardan birincisi dastanın çağdaş tatar şivəsində olan "Qisseyi-Tahir və Zöhrə" variantının (A.Kurmaşi variantı) incələməsi ilə tanınır [144]. İkincisi isə tədqiqatını süjetin balkar versiyasına yönəltmişdir [130].

L.Müxametzyanova "Tatar xalqının "Tahir və Zöhrə" dastanının kitab variantı: Ə.Kurmaşi variantı" adlı məqaləsinin əvvəlində dastanda möcüzəli doğuş və dərvişin verdiyi sehirli alma motivini yada salaraq, bu epizodu digər türk nağıl və dastanlarındakı bənzər epizodlarla tutuşdu-

rur və yazır ki, bu element qəhrəmanlıq dastanlarında geniş yayılmış elementlərdəndir. Alim fikrini əsaslandırmaq üçün başqırd qəhrəmanlıq eposu "Ural Batır"dan bir epizodu yada salır. Həmin epizodda padşahın qızı Katila sıraya düzülmüş gənclərdən Ural Batırı seçir və ona alma verir [112, s.288]. Burada gəncə alma verilməsi tərəfdaşın seçilməsi anlamına gəlir. Eyni simvolla "Ağbozat" eposunda da qarşılaşırıq [112, s.408]. Əgər birinci halda gəncə almanı qız verirsə, bu halda isə oğlan və qızın ataları almanı dərvişin əlindən qəbul edirlər.

Tədqiqatçı bu məlumatlardan sonra "Tahir və Zöhrə"də süjetin interpretasiyasının digər məhəbbət dastanlarında olduğu kimi ortaya çıxdığına diqqət çəkərək, burada almanın hələ doğulmamış uşaqların valideyinlərinə verildiyini dilə gətirir və dərvişlə onlar arasında olan dialoqu təsvir edir.

L.Müxametzyanovanın "Tatar kitab dastanları: epik folklorla ədəbiyyatın qarşılıqlı təsiri" adlı məqaləsində də digər dastanlarla yanaşı "Tahir və Zöhrə"dən də söz açılmaqdadır [145, s.143-145]. Müəllif həmin əsərində şifahi və yazılı ədəbiyyatın süjetləri arasındakı ortaq motiv və elementlərə diqqət çəkir. Konkret olaraq, "Tahir və Zöhrə" dastanına gəlincə, onun süjeti üçün xas olan bir sıra elementlərin digər türk məhəbbət və qəhrəmanlıq dastanları, eləcə də bir sıra yazılı ədəbiyyat nümunələri ilə ortaq xüsusiyyətlərə sahib olduğunu sübut etməyə çalışır. Alim Çura Batıra həsr olunmuş dastanın noqay variantında övladını itirən Minnesulu balasını itirmiş dəvəyə bənzədilməsi (*"Balası ülgən dəya dəy, Bızlaıy-bızlıy kiteyem")* [128, s.133-134] kimi təşbihlərin "Tahir və Zöhrə" dastanında da rast gəlindi-

yinə diqqətə çəkərək bu kimi halların vahid epik ənənədən qaynaqlandığını söyləyir.

L.Müxametzyanovanın eyni mövzuya həsr edilmiş məqalələrindən biri də "Tahir və Zöhrə haqqında romantik kitab dastanında ənənəvi üsul, süjet və motivlər adlanır [144]. Bu məqalə də müəllifin yuxarıda haqqında məlumat verdiyimiz digər iki məqaləsi kimi 2014-cü ildə nəşr edilmişdir. Burada da öncəki məqalələrdə irəli sürülən fikirlər inkişaf etdirilməkdədir. Həmin məqalədə alimin diqqət çəkdiyi məqamlardan biri də türk dastanları üçün ortaq olan deyişmələrdir. O, "deyişmə" kəlməsini tatar türkcəsində "əyteş" adlandırır və buna həm "Tahir və Zöhrə"dən, həm də digər məhəbbət və qəhrəmanlıq dastanlarından bir çox nümunə gətirir.

L.Müxametzyanovanın qələminə məxsus ən maraqlı məqalələrdən biri də "Tatar xalqının "Tahir və Zöhrə" dastanı: V.Radlov variantı" adlanır [146, s. 132-134]. Məqaləsinin əvvəlində müəllif "Tahir və Zöhrə" dastanının Volqa bölgəsi tatarları arasında ən geniş yayılmış variantlarının "Babaxan" adı ilə məşhur olan Səyyadi və Əhməd Kurmaşi variantları olduğunu önə sürür. Eyni zamanda motivlərinə, üslubuna və anlatma tərzinə görə bir-birindən fərqlənən başqa variantların da olduğunu qeyd edir. Alim bildirir ki, onların hamısını süjetin və əsas personajların eyniliyi, motiv və elementlərin təkrarlanması birləşdirir ki, bu da onları bir versiya kimi gözdən keçirməyə imkan verir.

Dastanın folklor variantı ilə kitab variantı arasındakı keçid həlqəsini üzə çıxarmaq məqsədini güdən bu məqalədə deyilir ki, müxtəlif variant və versiyaların müqayisəli

təhlili ilkin versiyanın və keçid mərhələlərinin üzə çıxarılması baxımından böyük önəm daşıyır. Məqalə müəllifinin fikrincə, dastanın V.Radlov tərəfindən Sibir tatarlarından toplanan və nəşr edilən variant, onun süjetinin tatarlar arasında çox-çox qədim zamanlardan mövcud olduğunu söyləməyə əsas verir. Sibir tatarlarının ləhcəsində olan və kifayət qədər əhatəli olduğu bilinən və "Tayırla Seure" adı ilə qeyd edilən bu dastanın söyləyicisinin adı, təəssüf ki, qeyd edilməyib. Bu səbəbdən də elmi ədəbiyyatda onu "V.Radlov variantı" kimi adlandırmaq qəbul edilib. Onun süjeti ənənəvidir. Əvvəldə Al Xan və Kül Xan haqqında qısa məlumat verilir, onların ov zamanı bir dovşanın dağa qaçdığını görmələri, onun dalınca getmələri, dovşanın balası olacağı olduğunu bilmələri təsvir edilir. L.Müxametzyanova daha sonra xanların dovşana toxunmamaq qərarına gəldiklərini qeyd edərək, bu epizodun dastanın V.Radlov variantının köklərinin digər epik əsərdən qaynaqlandığını müəyyən etməyə imkan verdiyini deyir. Onun sözlərinə görə, bu, daha qədim dövrlərə aid olan "Kuzı Kurpeç və Bayan sulu" əfsanəsidir. Bu iki əsərin bəzi epizodları bütünlüklə üst-üstə düşür. Alim fikrini sübut edə bilmək üçün bir çox epizodları, o cümlədən aşağıdakı parçanı misal gətirir:

"Balamnı inde кürməyem,
Balamnı kuıp barıp kitəyem,
Öyqə alıp kaytatayem!
Öyer biyane alıp kilen!!" [151, s. 276].

Tərcüməsi:

"Balamı indi görəməyəcəm,
Balamın dalınca gedəyim,

Evə alıb qaytarayım!
Köhlən atı alıb gətirin!".

Ana ata minib oğlunu dalınca gedir, onu geri qayıtması üçün dilə tutur. Onların dialoqu dastanlara xas deyişmə formasında verilir. Əfsanədə qəhrəman anasından arvadının harada olduğunu öyrənir, atasının silahını götürür, anasından yol üçün yemək hazırlamasını xahiş edir. Atına minib yola çıxmağa hazırlaşır. Bu zaman ana ilə oğul arasında şeir formasında deyişmə baş verir. Ana oğluna gördüyü pis yuxudan danışır [146, s. 132-133].

Alim daha sonra fikrini əsaslandırmaq üçün bir neçə noqay əfsanəsini misal çəkir, bənzər halın onlarda da müşahidə edildiyini bildirir. Onun sözlərinə görə "*bu üsul tatar kitab dastanlarında güclü dəyişikliyə məruz qalıb. Bu isə o deməkdir ki, kitab dastanları daha sonrakı dövrün məhsuludur*" [146, s. 133-134].

Yuxarıda adını L.Müxametzyanova ilə birlikdə çəkdiyimiz alimlərdən olan R.İslamovun "Tahir və Zöhrə" mədəni irsin obyekti kimi: süjetin balkar versiyası" adlı məqaləsi "Tahir və Zöhrə" dastanının qıpçaq versiyasına həsr edilib. Söhbət İ.Maraş tərəfindən üzə çıxarılan, başdan-başa nəzm formasında olan variantdan gedir. Həm tatarlarların, həm də balkarların öz abidəsi kimi söz açdığı bu ortaq qıpçaq abidəsini təhlil edən alim bildirir ki, bu variantın müəllifi XIX əsrdə yaşayıb yaradan Şauaylanı Daud Hacı (1800-1892) hesab olunur. Mətnin digər yazılı və folklor variantları ilə müqayisəsi onun müstəqil bir versiya olduğunu göstərir.

Şauaylanı Daud Hacı, M.Beppaylanaya görə, qaraçay-balkar ailəsində anadan olub. Türk, ərəb və fars dillərini yaxşı bilirmiş və zəmanəsinin öndə gələn maarifpərvər adamlarından biri sayılırmış. R.İslamovun sözlərinə görə, sözügedən versiya 1975-1976-cı illərdə Cəbrayıl Karakızovun dilindən X.X.Maldokunov tərəfindən yazıya köçürülüb [129, s. 27–32].

Noqay xalq dastanlarının o cümlədən, "Tahir və Zöhrə" dastanının noqay variantının öndə gələn tədqiqatçıları içərisində F.Kuseqenovanın adını ilk sıralarda çəkmək lazımdır. Onun filologiya elmləri namizədi elmi dərəcəsini almaq üçün qələmə aldığı "Noqay dastanları: milli xüsusiyyətlər, millətlərarası və folklor-ədəbi əlaqələr" dis-sertasiyası bilavasitə noqay məhəbbət dastanlarına həsr edilib. Bu elmi işdə müəllif noqay xalqının dastan yaradıcılığını "Bozyigit", "Leyli və Məcnun", "Ariz və Xanber", "Tölegen və Kız-Yibek" və "Tahir və Zöhra" dastanları əsasında araşdırıb. Alimə görə, "Tahir və Zöhrə" ("Tahir və Zöhra") dastanı noqayların lirik-epik yaradıcılıq nümunələri arasında ən məşhurlarınadn biridir [136, s.3].

Noqay alimlərinin dastanla bağlı tədqiqatlarından danışarkən F.Kuseqenovanın "Noqay folkloru: janr sistemi, toplanması və tədqiqi" adlı məqaləsini də qeyd etmək lazımdır [138, s. 140-147]. Alimə görə, dastanlar təkcə ədəbi dəyər daşımır, həm də orta əsrlər noqayların tarixi, mədəniyyəti, hərbi və inzibati idarəetmə formaları, həyat tərzi, adət-ənənələri və s. haqqında dəyərli bir məlumat mənbəyidir. Noqayların lirik eposu (dastanları) tarixi əhəmiyyətə malik hadisələri əks etdirən qəhrəmanlıq eposundan fərqli

olaraq xalqın sosial həyat və məişətini, adət- ənənələrini daha çox təsvir edir (“Kozı-Körpeş və Bayan-Slu”, “Toylegen və Kız-Yibek ", "Ariz və Xanber ", "Şah-İsmayıl ", “Tahir və Zöhra”, “Aşık Karip” və s.) [138, s. 140].

F.Kuseqenovanın noqay dastanlarının, o cümlədən “Tahir və Zöhrə” dastanının nəşri sahəsində gördüyü iş də əvəzsizdir. Belə ki, o, 2007-ci ildə onun Mahaçqalada nəşr etdirdiyi kitaba bəzi dastanlardan, o cümlədən “Tahir və “Zöhrə dastanından müəyyən hissələr əlavə edib.

“Tahir və Zöhrə” dastanının qazax variantına gəlincə, onun, eləcə də digər qazax dastanlarının tədqiqində B.Azibayevanın rolunu qiymətləndirmək lazımdır. Qeyd edək ki, onun “Qazax xalq romantik dastanları” adlı dissertasiya işi bilavasitə bu mövzuya həsr edilib [232]. Əsərdə qazax dastanlarının özünün janrlar və süjet tərkibinə görə yekcins olmadığını vurğulayan alim onları qəhrəmanlıq, dini və məişət məzmunlu dastanlara ayırır və onların içərisində roman xarakterli dastanların kəmiyyət baxımından çoxluq təşkil etdiyini diqqətə çatdırır. Roman xarakterli dastanların alim iki yerə bölür:

1. Şərqdə məşhur olan dastanların qazax versiyaları ;
2. Sırf qazax dastanları.

O, “Tahir və Zöhrə” dastanının qazax versiyasını birinci qrupa aid edir və onun məzmunu və obrazlar sistemi haqqında məlumat verir.

Dastanın uyğur versiyasının toplanması və tədqiqi işində İsveç diplomatı və türkoloqu Qunnar Yarrinq və şərqşünas Qustav Raquettenin əməyi xüsusi vurğulanmalıdır. Qustav Raquettenin 1930-cu ildə “Tayi bilə Zohra” adı

altında nəşr etdirdiyi uyğur variantı [243]. Avropa şərqşünasları arasında böyük maraq doğursa da, ona mətndəki sözləri əhatə edən bir tərcümə lüğətinin əlavə edilməməsi böyük təəssüf doğurmuşdu. Bu işi 34 il sonra – 1964-cü ildə digər İsveç türkoloqu Qunnar Yarrinq tamamlamışdır. O, Qustav Raquettenin topladığı mətni geniş şərhlər və lüğətlə, eləcə də uyğur sözlərin digər türk dilləri ilə müqayisə etməklə nəşr etdirmişdir [Yarring]. Onun müxtəlif uyğur ləhcələrində xalq nağılları toplusundakı (1946–1951) "Tahir və Zöhrə" mətnləri isə, əldə etdiyimiz məlumata görə, nağıl şəklindədir [238, s.50]. Q.Raquettenin çap etdiyi "Tahir və Zöhrə" variantının şifahi ifadan, söyləyicinin dilindən yazıya alındığı şübhə doğurmasa da, bu mətni alimin özünün qeydə aldığı, yoxsa artıq yazıya alınmış hansısa əlyazmadan köçürdüyü məsələsi aydın deyil.

Alimcan İnayet uyğurlara aid variantlardan birini də Türkiyədə "Uyğur xalq hekayələri üzərinndə incələmələr" adlı doktorluq dissertasiyasına əlavə olaraq nəşr etdirmişdir.

Bütün bunları nəzərə alaraq, "Tahir və Zöhrə" dastanının Orta Asiya, Qazaxıstan və Rusiya Federasiyasında həyata keçirilmiş nəşrlərini aşağıdakı kimi ümumiləşdirmək olar:

1. Dastanın özbək variantından az fərqlənən, "Qisseyi-Tahir və Zöhrə" adı ilə məşhur olan və XIX əsrin ikinci yarısında tatar maarifçisi Əhməd Urazayev- Kurmaşi tərəfindən yazıya köçürülən tatar variantı. Bu variant ilk dəfə Kazanda 1882-ci ildə nəşr edilmişdir [211, s. 435].

2. Dastanın V.V.Radlov tərəfindən 1872-ci ildə Sankt-Peterburqda nəşr edilmiş variantı [151, s. 274-278].

3. Tatar variantının 1888, 1889, 1893, 1897, 1907 və 1908-ci illər Kazan nəşrləri [244-249].

4. Özbək variantı, 1958-ci il nəşri [230].

5. Molla Nəpəsin qələmə aldığı "Zöhrə-Tahir" dastanının 1959-cu il Aşqabad nəşri [219].

6. Səyyadi variantının T.Nişanovanın təqdimatındakı 1960-cı il Daşkənd nəşri [107, s. 182].

7. Molla Nəpəsin qələmə aldığı "Zöhrə-Tahir"nin 1963-cü il Aşqabad nəşri [218].

8. Volqa boyundan tutmuş Türküstana qədər geniş yayılmış olan, özbəklər, Kırım və Volqaboyu tatarları arasında çox geniş yayılan, sevilən və ən azı orta əsrlərdən məlum olduğu bilinən "Babaxan dastanı" [209, s. 258-334].

9. "Tohir va Zuhra" dastanı [231].

10. Noqay variantının 1971-ci il Çerkesk nəşri.

11. "Qisseyi-Tahir və Zöhrə" (A.Kurmaşi) variantının çağdaş tatar şivəsində 1984- cü ildə Kazan nəşri [212, s. 206-248].

12. Qazax variantının E.Marqulan və R.Berdibayevin tərtibatında 1986-cı il nəşri [232].

13. "Babaxan dastanı"nın çağdaş tatar dilinə tərcümdə "Tahir-Zöhrə" ("Babaxan dastanı") adı altında 1998-ci ildə Kazan nəşri [213].

14. Noqay variantının 2001-ci il Mahaçqala nəşri [226].

15. Səyyadinin qələmə aldığı "Tahir və Zöhrə"nin 2002-ci il Kazan nəşri [214].

16. Noqay variantının 2007-ci il Mahaçqala nəşri [137].

17. “Tayırminən Səürə” – “Tahir və Zöhrə” dastanın Sibir tatarları içərisində yayılmış olan variantının 2014-cü il nəşri [157].

18. Q.Raquette tərəfindən Kaşğarda və Q.Yarrinq tərəfindən Xotandə yazıya köçürülmüş daha dörd variant (onlar transkripsiyaları, eləcə də alman və ingilis dilinə tərcümələri ilə birlikdə dərc edilmişdir) [233, s.117].

19. Alimcan İnayetin uyğurlardan toplayıb nəşr etdirdiyi mətn [261, s.143-168].

Elçin Abbasov yazır ki, “*xalq dastanları xalqın sevgi və qəhrəmanlıq ideallarının təcəssümünə xidmət edir, onun mənəvi dəyərlər sistemini nümayiş etdirir. Bu mənada xalqın mənəvi dünyasının dərinliyinə gedən yolun dastan gerçəkliyindən keçməsi bir həqiqət kimi özünü ilk növbədə türk mədəniyyəti kontekstində təsdiq edir”* [4, s.3-4]. Bu sözləri “Tahir və Zöhrə” dastanının bütün versiya və variantlarına şamil etmək mümkündür.

Beləliklə, fikirlərimizi ümumiləşdirərək, deyə bilərik ki, “Tahir və Zöhrə” dastanının müxtəlif türk xalqları arasında yayılmış olan versiya və variantlarının toplanması, nəşri və tədqiqi sahəsində heç də az iş görülməmişdir. Şübhəsiz ki, bu istiqamətdə Türkiyə, Özbəkistan və Tatarıstan alimləri daha məhsuldar olmuşlar. Bununla belə, noqay və qazaxlar başda olmaqla digər türk xalqlarının folklorşünas alimlərinin zəhmətini də inkar etmək olmaz.



II FƏSİL

“TAHİR VƏ ZÖHRƏ” DASTANININ VERSİYA VƏ VARİANTLARI

Türk xalqlarının folklorunda ortaq süjet və motivlər özünü, demək olar ki, bütün janrlarda, o cümlədən dastanlarda qabarıq şəkildə göstərməkdədir. Bu ortaqlıq şübhəsiz ki, etnik mənşə, dil və mədəniyyət birliyindən qaynaqlanır. Bu baxımdan "Əsli və Kərəm", "Tahir və Zöhrə", "Abbas və Gülgəz", "Şah İsmayıl" və s. bu kimi məhəbbət dastanları da istisna deyildir. M.Təhmasib bunlardan təkcə "Tahir və Zöhrə" dastanının Azərbaycanda “iyirmiyə yaxın” variantının toplandığını qeyd etmişdir [161, s. 78].

Geniş coğrafiyaya yayılmış məhəbbət dastanlarından biri olan bu dastan ayrı-ayrı türk xalqlarında bir qədər fərqli adlarla – azərbaycanlılar arasında “Tahir Mirzə”, “Tahir və Zöhrə”, türkmənlərdə “Zöhrə-Tahir”, qumuq türklərində “Dagir-Zuğra”, Anadoluda “Tahir ile Zühre”, tatarlar arasında “Taji bilən Zohra” və s. adlarla məşhurdur. Dastanın gürcü, erməni, tacik və alban (Kosova) variantları da var [204, s. 10]. Tacik variantı nağıl formasındadır [234]. Dastanın bütün variant və versiyalarını birləşdirən əsas cə-

hət onların məzmun və ideyasıdır. Əldə olan süjetlərin əsas hissəsinin ortaq məzmunu belədir:

Uşağı olmayan padşah, müxtəlif yollara baş vurmasına baxmayaraq övlad sahibi ola bilmir. Vəzir də eyni dərdə mübtəladır. Padşah şəhər kənarında böyük bir bağ saldırır və dərddən vaxtının çox hissəsini orada keçirməyə başlayır, lakin bu da onun qəm və kədərdən azad olmasına kömək etmir. Bir az da olsun rahatlana bilmək üçün vəziri ilə səyahətə çıxmağa qərar verir. Yolda qarşılarına bir dərviş çıxır. O, heç nə soruşmasa da, məlum olur ki, padşahla vəzirin dərdlərindən xəbərdardır. Dərviş onların hərəsinə bir alma verib, ikiyə bölərək arvadları ilə birlikdə yemələrini tövsiyə edir. Özü isə yoxa çıxır. Padşah və vəziri elə də edirlər. Almaları ikiyə bölüb arvadları ilə birlikdə yeyirlər. Vaxtı gəlincə hər ikisinin bir uşağı olur. Onlara Tahir və Zöhrə adları verilir. Padşahla vəzir onları bir-biri ilə adaxlayır və əhd bağlayırlar ki, uşaqlar böyüyəndə onları evləndirsinlər. Tahirlə Zöhrə böyüyüb məktəbə gedirlər, on yaşına çatdıqdan sonra isə bir-birilərinə aşiq olurlar. Bu arada onlar bir ustadan dərs alaraq saz çalmağı da öyrənirlər. İki gəncin gizli-gizli görüşmələri ətrafdakılara məlum olur və bundan sonra onların məşəqqətləri başlayır. Məşəqqətlərin səbəbləri fərqli variantlarda fərqli şəkillərdə təsvir edilir. Bir variantda səbəb kimi Tahirin atasının ölməsi və padşahın qızını yetimə vermək istəməməsi, başqa bir variantda ərəb bir kölənin ortaya girməsi, digər bir variantlarda isə başqa birisinin bu ülvi məhəbbətə mane olmağa çalışması çıxış edir. Tahir vətənindən didərgin düşür. Bir-çox variantlarında qəhrəmanlar qovuşmadan vəfat edirlər.

Bütün variant və versiyaları birləşdirən əsas ideya ilk növbədə saf məhəbbət və eyni zamanda xeyirlə şərin mübarizəsidir. Bu ideya, demək olar ki, bütün məhəbbət dastanlarını birləşdirən ana ideyadır.

2.1. "Tahir və Zöhrə" dastanının Orta Asiya versiyaları

"Tahir və Zöhrə" dastanının Orta Asiya variantları içərisində türkmən variantının da özünəməxsus bir yeri və rolu vardır. Günümüzədək türkmən xalqı arasında yaşamaqda, sevilə-sevilə söylənməkdə olan dastanlardan ən yayılmış olanları "Göroğlı", "Yusuf Bəy-Əhməd Bəy", "Hürluka-Həmra", "Şasənəm-Qarip", "Zöhrə-Tahır" və s. dastanlardır [125, s. 101].

Azərbaycanda "Tahir və Zöhrə", türkmənlər arasında isə "Zöhrə-Tahir" kimi adlanan süjetin Türkmənistanın müxtəlıf bölgələrində rəvayət, nağıl, hekayə və dastan şəkillləri mövcuddur. Türkmən tədqiqatçı Araznepes Mammetjumayevin fikrincə, bu süjet rəvayət, nağıl və hekayə şəklində XII-XIV əsrlərdə ortaya çıxmış, daha sonra yavaş-yavaş təkmilləşərək XV-XVI əsrlərdə xalq dastanı forması almışdır [220, s. 61].

Alim hesab edir ki, Zöhrə-Tahir mövzusu oğuzların bilavasitə özlərinin yaratmış olduğu ədəbi mövzulara aiddir. Nəticədə, sözügedən mövzu yavaş-yavaş qonşu xalqların xalq ədəbiyyatına daxil olmağa başlamışdır. Türkmənistanda "Zöhrə-Tahirin köşkü" adlı qədim bir tikilinin var olması süjetin çox əskilərdən bəri türkmən xalqının arasında yaşamaqda olduğunun bir isbatıdır. Zöhrə-Tahir köşkünün mövcud adının dəqiq olaraq nə zaman ortaya çıxdığı mə-

lum olmasa belə, bunun sözügedən süjetin ortaya çıxma dövründən sonra olduğunu düşünmək olar.

Araznepes Mammetjumayev qeyd edir ki, Azərbaycan, özbək, qazax, Anadolu, tatar, uyğur və digər türk xalqlarının folklorunda da olan bu dastanlarının ortaq özəlliklərindən biri, demək olar ki, hamısında dastanlara məxsus olan quruluşun, yəni şeirlə nəsrin növbələşməsinin olmasıdır. Bu süjetin yayılmasının sadəcə türk xalqlarının folkloru çərçivəsində qalmadığını diqqətə çatdıran tədqiqatçı yazır ki, o eyni zamanda ərəb, hind, gürcü, alban kimi millətlərin arasında da məşhurdur. "Zöhrə-Tahır"in süjeti XVII əsrdən etibarən türkmən şairlərinin əsərlərinin də mövzusuna çevrilmişdir. Bu mövzuda ilk böyük həcmli əsər yazan Seyidmühəmməd Səyyadi olub. Sonra XVIII-XIX əsrlərdə Mollamurad Xorəzmi, Molla Nəpəs kimi şairlər də bu süjetə baş vurmuş, yeni dastanlar yazmışlar [220, s. 62].

Müəllifin bu qeydi ilə bağlı vurğulayaq ki, "Tahir və Zöhrə" dastanının hind və ərəb folklorunda mövcudluğu fikri çox şübhəlidir. Babur sülaləsinin hakimiyyəti dönəmində Hindistana köç edən Orta Asiya türkləri, sözsüz ki, öz folklorlarını da aparmışdılar və onların yaddaşında digər dastanlar kimi "Tahir və Zöhrə" də bu ərazilərə daşınmışdı. Eyni halı, məsələn, oğuzların İraq və ya Suriya kimi ərazilərdə məskun olması və ərəblərlə sıx siyasi və mədəni əlaqələri ilə bağlı da söyləmək olar. Lakin faktiki olaraq dastanın hindlər və ya ərəblər arasında yayıldığını sübut edəcək heç bir mətn əldə yoxdur.

"Zöhrə-Tahir" dastanının ən mükəmməl variantlarından birinin – Xorasan, Türkmənsəhra və Məvərənnəhr böl-

gələrində yaşayan xalq ozanlarının oxuduqları nümunələrin əsasında Molla Nəpəs (Molla Nepes) tərəfindən qələmə alınan mətnin dayandığı bilinməkdədir [222, s.3]. 1810-cu ildə Xorasanın Səraxs bölgəsində dünyaya göz açan Molla Nəpəs ilk təhsilini atası Qədirverdinin başçılıq etdiyi mədrəsədə, daha sonra isə Mərvdə məşhur pedaqoq kimi ad çıxarmış Molla Məmmədsalihin yanında almış, oradan Buxaraya gedərək dövrün tanınmış alimlərindən türk, ərəb və fars dillərini, ilahiyyat, riyaziyyat, hesab, həndəsə, nücum, kimya, ədəbiyyat, tarix və coğrafiya elmlərinin öyrənmişdir. Onun şeirlərinin böyük əksəriyyəti bizə gəlib çatmasa da, yaradıcılığının zəngin olduğu məlumdur. Onun irsi içərisində "Zöhrə-Tahir" dastanının xüsusi yeri var. Belə hesab edilir ki, dastan onun tərəfindən tamamilə yenidən işlənmişdir. Burada o, türkmən həyatının, ruhunun əsl ensiklopediyasını yaratmışdır [215, s. 4-7].

Məlum olduğu kimi, məhəbbət dastanları, bir qayda olaraq, qəhrəmanların doğulmasıyla başlayır. Bunlardan bir qismində doğuşdan öncə sonsuzluq motivi yer alır [200, s.443]. Eyni hal "Zöhrə-Tahir" dastanının türkmən versiyası üçün də keçərlidir. Valideynlərinin sonsuz olmalarına baxmayaraq, türkmən variantında da qəhrəmanlar möcüzəvi bir şəkildə doğulur və gələcək taleləri də məhz həmin epizodda çözülür.

Dastan Azərbaycan dastanları və ümunən epik folkloru üçün xarakterik ənənəvi formullarla başlayır: "*Ravilar andaq rovayat kılırlar kim, Tatar diyen bir ulu velayat bar erdi. Onun Babahan adlı patışası bar erdi. Bu patışanın hem veziri bar erdi, ona Bahır vezir diyererdiler. Buların ikisinin hem perzendi*

yok erdi. Olar perzentsizlikden köp gamgin bolar erdiler, emma hiç çare tapıp bilmez erdiler" [218, s. 2].

Dastan şifahi ənənədə olduğu kimi nəsrlə nəzmin növbələşməsi şəklində qurulub. Burada Zöhrənin atası padşah, Tahirin atası isə vəzirdir. Padşahla vəzir eyni zamanda yaxın dostdurlar. Hər cür maddi imkanlara sahib olmalarına baxmayaraq, uşaq üzünə həsrət qalan [174, s.87] padşah ilə vəzir sabah namazlarını qıldıqdan sonra atlarına minib, gizlicə şəhərdən çıxır, çölə tərəf yol alırlar. Gün boyunca at sürürlər. Bir çox övliyanın məzarlarının da olduğu böyük bir qəbristanlığın yanında durub, içəri girirlər. Gecəni oradakı bir türbədə geçirirlər. "Ey Baki olan Rəbbi Rəhimim, bizə bir övlad ver, biz də arzumuza çataq" duasıyla yuxuya gedirlər. Vəzir röyasında ona bir oğul, padşaha isə qız verildiyini görür. O, yuxusunu padşaha danışır. Belə olan halda, onlar bir-birilə əhdi-peyman bağlayırlar ki, yuxu çin olarsa, övladlarını bir-biri ilə evləndirsinlər. Vaxt keçir, Babaxanın qızı, vəzir Bahırın isə oğlu olur. Qızın adını Zöhrə, oğlanın adını Tahir qoyurlar. İş elə gətirir ki, padşah ölür. Belə olan halda, vəzir onunla bağladığı əhdi-peymanı pozur. Bundan sonra bir-birini dəlicəsinə sevən gənclərin sonrakı taleyinə çox mənfi təsir edir [215, s.7-8].

Molla Nəpəs variantının ən maraqlı epizodlarından biri padşahın yeni doğulmuş övladına ad qoyulması səhnəsidir. Bu səhnə dastanda geniş verilir. Sarayın hörmətli adamları, əyan-əşrəf, "üləma və hakimlər" toplanır və hər biri fərqli adlar təklif edir. Padşah onların heç birini bəyənmir. Uşağa ad vermək üçün xalqın dəyər verdiyi bir ağsaqqala ehtiyac yaranır. Türkmən variantının bu yerində Molla

Nəpəs özünü dastana xoca qismində daxil edir: "O vaxtlar bir adam vardı, adına cahan şəhəri Mərvin şahı Mollanepes deyərdilər, onun xanımına Bossantaç deyərdilər. Onların ikisi də Allahın rəhmət nəzərinin düşdüyü adamlardı. Padşah: "o adamlar ad verməzlərsə, başqalarının verəcəyi ada razı deyiləm" - deyə əmr edir.

Maraqlıdır ki, adqoyma səhnəsi "Kitabi-Dədə Qorqud" dastanlarında Qorqud Atanın ad verməsi səhnələrinə çox bənzəyir:

" – Ey halayıklar, bu qız, ayın, günün barabarı qız deldir, yöne on iki yıldız bardır – Şems diyerler, Qəmər diyerler, Akrap diyerler, Mizan diyerler, Kovus diyerler, Aftap burçundan doğarlar. Yene hem bir yıldyz bardır, adına Şahi-Müşteri diyerler; onuň şöhlesi aydan, günden ziyadadır. Yene hem bir yıldyz bardır, ol dokuzlanjy peleğiň yüzünde doğar; adına Zöhre Jenni diyerler, özi mutrup bazigər bolar ışkı belsent sazandadır, yüzünin şöhlesi ay-günün şöhlesinden yedi esse ziyadadır. Bu qızın adına Zöhre qoyalın, – diydi. Halayıklar kabul etdiler. "Yüzi Zöhre, adı hem Zöhre bolsun!" – diyip qutladılar" [218, s. 5]. Vəzirin oğluna da Tahir adını verirlər.

Türkmən versiyasında advermə səhnəsi dastanın arxetipində bir kosmik (astral) mif dura biləcəyini fikrini gücləndirir.

Türkmən variantında da, digər variantlarda olduğu kimi, Zöhrə ilə Tahir eyni məktəbə gedirlər. Orada onların müəllimləri qismində də yenə Molla Nəpəs (Mollanepes) özü çıxış edir. Bu dönəmdə Zöhrə ilə Tahir arasında yaxınlaşma və dostlaşma baş verir. Onlar bir-birilərinə aşiq olurlar. Bir-birilərini bircə gün görmədən yaşaya bilmirlər.

Onun Zöhrə ilə məhəbbəti bütün cahana yayılır, dillərə dastan olur. Günlər keçir, Tahirin atası vəfat edir. Bir gün Zöhrə ilə Tahir məktəbdən gülə-gülə, söhbət edə-edə gələrkən yaşlı bir toxucu qadının evinin önündən keçirlər. Bu qadın onların qarşısını kəsib deyir:

"Ey Zöhrəcan, ey Tahircan. Quzucuqlarım. Mən burada qumaş toxuyuram. Siz mənim toxumama mane olursunuz. Buradan keçməyin, başqa yerden keçin. Mən kimsəsiz bir qadınam. Əqrabam yoxdur. Mənim kimi bir qəribin duasını qazanın, özünüzə başqa yol tapın!" [215, s. 20].

Yaşlı qadının sözlərinə qulaq asmayan Tahir əlindəki altun aşığını atır və toxuma dəzgahına zərər vurur. Yaşlı qadın əsəbləşir və aşiqlərə belə səslənir:

"Aranızda bir söz vardır,
Şah, vəzirə aşikardır.
Tüm əhali xəbərdardır,
Əyan ərməz güman ilə" [215, s. 20-21].

Yaşlı qadının sözləri Tahirin qəlbinə xəncər kimi saplanır. Tahir bu sözlərin doğru olduğunu anasından da öyrənir. Anası Tahirə Zöhrə ilə bir araya gəlməməsi barədə nəsihət edir və diqqətli olmasını tapşırır.

V.M.Jirmunski və T.Zarifovun fikrincə də, Molla Nəpəsin toplayaraq yeni nəfəs verdiyi dastanın süjet xətti "Kosi Körpeş və Bayan Sülü" adlı tatar dastandan alınmışdır, hətta onun bir variantıdır [126, s. 209; 182, s. 104]. Məlumat üçün bildirək ki, türk dastançılığının ən maraqlı nümunələrindən biri hesab edilən "Kozı Körpeş və Bayan Sulu" dastanının tatar, Altay, başqırd, qazax variantları möv-

cuddur. Onun ən əski versiyası Altay variantı qəbul edilir. V.V.Radlov əsəri XII-XIII əsrlərə aid edir.

"Kozı Körpeş və Bayan Sulu" üçün xarakterik olan sonsuzluq, hamilə maral (və ya qurd), beşik kərtmə, adqoyma, qərhəmanın at, silah və geyiminin əldə edilməsi, yaxşı və pis heyvanlar, formul sayları, cilddəyişmə, müxtəlif mükafatlar və cəzalar, köməkçi insanlar, hiylə, müxtəlif heyvanlarla söyləşmək, sehrbaz, yuxu, ölüb-dirilmə və s. kimi obraz və motivlər Molla Nəpəsin söylədiyi "Zöhrə-Tahir"ə də xasdır. Məsələn, "Zöhrə-Tahir" dastanının türkmən variantının əvvəli "Kozı Körpeş və Bayan Sulu" dastanının qazax variantının başlanğıcını xatırladır. Hər iki dastanda birisi padşah, birisi vəzir olan, övlad üzünə həsrət qalan iki yaşlaşmış atadan, onlar arasındakı bağlanan əhdi-peymandan söz açılır. Bu əhdi-peymana görə, onların hamilə xanımlarından biri oğlan, digəri qız doğarsa, onların bir-biri ilə evləndirilməsi nəzərdə tutulur. Vaxt keçir, hər iki qadın yükünü yerə qoyur. Birinin oğlu, digərinin qızı olur. Bənzərlik bununla da bitmir. Türkmən "Zöhrə-Tahir" dastanında da iki gəncin təkrar dirilməsindən və bundan sonra uzun sürən xoşbəxt həyatlarından söz açılır. İki gənci dirildən isə İsa və ya Xızır peyğəmbər olur.

"Zöhrə-Tahir" dastanının Molla Nəpəs variantının sonunda da "Kozı Körpeş və Bayan Sulu" dastanının sonunda baş verən hadisə təkrarlanır. Tahir ilə Zöhrəni bir-birindən ayıran Karabay bahadır iki sevgilinin arasında basdırılır. Sevgililərin məzarlarından çiçəklər tumurcuq atdığında Karabayın məzarından tikan yetişir və çiçəklərin birləşməsi-nə mane olur [176, s. 99].

"Kozı Körpeş və Bayan Sulu" dastanının süjetinin Molla Nəpəsin yazıya aldığı "Zöhrə-Tahir"in əsasında dayanması fikri bizə də inandırıcı görünür. Belə ki, "Zöhrə-Tahir" dastanının ən başında hadisələrin "Tatar bölgəsi"ndə baş verdiyinə işarə edilməkdədir [215, s. 7]. "Zöhrə-Tahir" dastanının Anadolu və qumuq variantlarının həm bənzər və həm fərqli epizodlara sahib olduğunu söyləyən və dastanı Stif Tompsonun "Xalq ədəbiyyatı motivləri göstəricisi" ("Motif-İndex of Folk Literature") adlı əsərində yer alan motivlər üzrə təhlil edən Ahmet Gökçegözoğlu da Zöhrənin atasının, türkmən variantında "Tatar bölgəsinin padşahı" Babaxanın qızı olduğuna xüsusi diqqət cəkmişdir [185, s. 427-449].

Maraqlıdır ki, Azərbaycan "Tahir və Zöhrə" dastanının özbək, türkmən, tatar və digər variantları ilə müqayisə etmiş Məmmədhüseyn Təhmasib özbək variantının əsasında XVI əsrdə yaşamış Səyyadi adlı bir şair tərəfindən yazılmış məsnəvi dayanır qənaətinə gəlmiş, bu variantda astral əlamətlərin çox zəif və sönük, tatar variantının isə daha qədim və kosmoloji mif elementləri ilə zəngin olduğunu söyləmişdir [51, s.3]. Əgər Məmmədhüseyn Təhmasibin gəldiyi nəticə doğrudursa, "Tahir və Zöhrə" dastanının ilk öncə tatarlar içərisində ortaya çıxdığını və öz qaynağını "Kozı Körpeş və Bayan Sulu" dastanından aldığını ehtimal etmək olar. Lakin irəli sürülən fikirlər hələ tam hesab edilə bilməz. Çünki "Kozı Körpeş və Bayan Sulu" dastanın süjeti digər dastanlar, məsələn, "Əsli və Kərəm" dastanının süjeti ilə də müəyyən dərəcədə bənzərdir. Konkret halda bu iki dastan arasında aşağıdakı bənzərlikləri göstərmək də olar:

1. Hər iki dastanda qəhrəmanların valideynləri övladsızdırlar. Uşaqların doğulması möcüzəvi yolla baş verir (xalqın dua-alqışından, sehrli almadan və s.)

2. Hər iki dastanda qəhrəmanlar əsilzadədirlər (padşah, sultan, xan, bəy və ya vəzirin övladlarıdırlar);

3. Mənfi – düşmən qütbündəki obrazların adlarında "Qara" komponenti iştirak edir: Qara keşiş, Qara Batır, Qara qul, Qara xan və b. Bu obrazlar semantik funksiyası baxımından da bir-birlərinə bənzəyirlər;

4. Hər iki dastanda qəhrəmanlardan birinin valideyni – atası bu evliliyə qarşı çıxır;

5. Ayrı düşdükdə aşiq (Tahir, Kərəm) öz sevgilisinin ardınca gedir;

6. Qəhrəmanlar (Tahir, Kərəm) qürbət ölkələrdə dolaşırlar;

7. Hər iki dastanda qəhrəmanları başqaları ilə evləndirmək istəyirlər ("Əsli və Kərəm"in Azərbaycan versiyasında Tiflis xalqı, başqa bir yerdə isə Qeysəriyə paşası Kərəmə burada qalıb, yerli qızla evlənmə təklif edirlər, eləcə də Qara Keşiş son məqamda qızını başqasına nişanlayır ki, Kərəmlə evlənə bilməsin);

8. Hər iki dastanda karvanla xəbər göndərmə və ya xəbərləşmə motivi yer alır;

9. Hər iki dastan nakam sonluqla yekunlaşır və qəhrəmanların ölümü ilə bitir (əksər variantlarda Tahir Zöhrəyə qovuşmur, eynilə Əsli və Kərəm də bir-birinə qovuşmurlar).

Bundan əlavə, dastanda nağıl elementlərinin çoxluğu da diqqət çəkir.

Bunlar onu göstərir ki, hər iki dastan türk dünyasında geniş yayılmış daha əski bir əfsanədən qaynaqlana, sonralar bir-birilərinə təsir göstərmədən müstəqil şəkildə inkişaf edə bilərdi.

"Kozı Körpeş və Bayan Sulu" dastanı digər iki dastanla müqayisədə, daha konservativ mədəni mühitdə yarandığından, arxaik elementlərini nisbətən daha çox mühafizə etmişdir. Yəni, bu dastanlar ortaq bir süjetdən yayılaraq arealın və mühitin təsirindən fərqli detallara sahib ola bilərdilər.

"Tahir və Zöhrə"nin bəzi variantlarında daha qədim tarixi yerlərin və etnonimlərin yer alması dastanın formalaşdığı ilk coğrafi ərazilər haqqında informasiya daşıya bilər. Fikrimizcə, məsələyə aydınlıq gətirmək baxımından dastanın Hümmət Əlizadə tərəfindən toplanmış variantındakı "Bulqarlı" adı da faydalı ola bilər. Doğrudur, burada sözügedən ad etnonim kimi deyil, şəxs adı kimi işlənib. Amma adın məhz "Bulqarlı" formasında təqdim edilməsi, "Tahir və Zöhrə" dastanının ortaya çıxmasını daha əski dövrlərlə (bulqarların şərqi Avropada siyasi dominantlığı zamanı) bağlana biləcəyinə ip ucu verə bilər. Bulqarlı xanımın yaşadığı diyar və ya ölkə Tahirin məmləkətindən kənarda yerləşir. Bu epizodda Tahir yanıqlı bir şeir deyir və şeirində Zöhrənin adını çəkir. Onun səsini eşidən Bulqarlı xanım qarabaşını onun yanına göndərib hüzuruna dəvət edir. Aralarında keçən kiçik bir dialoq növbəti dəfə Tahirin yad məmləkətdə olduğunu təsdiq edir:

"– Oğlan! Sən hansı bağçanın gülü və hansı bağın laləsisən?
– Xanım! Qonağam, qonaq" [48, s. 62].

Beləliklə, Tahirin gəldiyi məmləkətin bulqarlar ölkəsi olduğu güman edilə bilər.

Bu məsələ dastanın formalaşma arealının və süjetin miqrasiya marşrutunun dəqiqləşdirilməsi baxımından önəm daşıya bilər. Məsələ burasındadır ki, tarixi qaynaqlarda adları ilk dəfə I əsrdə çəkilən bulqarların etnik formalaşması Şimali Qafqaz, Xəzər bölgəsi ilə əlaqələndirilir. VII əsrdə Şimalı Qafqaz və Şimalı Qara dəniz hövzəsini əhatə etmiş Böyük Bulqar xanlığı xəzərlərə məğlub olaraq parçalanmış, xalqı həmin yerlərdən köç edərək sonradan Volqa Bulqariyası və Dunay Bulqariyasını yaratmışdır. Bulqarların Cənubi Qafqaza hunların və daha sonra xəzərlərin tərkibində yürüşləri və bir qisminin burada daimi məskunlaşdığı güman olunur.

"Tahir və Zöhrə" dastanının süjetinin ilk yayıldığı məkanlardan biri də həmin bulqarların nəsillərinin yaşadıqları ərazilərdir. Dastanın "bulqarlı" sözü, onun bulqar adının etnik anlamda mövcud olduğu çağlara formalaşdığını da düşünməyə bir əsas ola bilər.

Dastan Azərbaycan aşıq sənətinin yüksəlişi ilə ətraf xalqlara, o cümlədən gürcülərə də bəlli olmuş və ehtimal olunur ki, onun şeirləri gürcü əlifbasında yazıya da alınmışdır. M.Çobanovun fikrinə istinad edən Fikrət Türkmən yazır ki, *"XVI əsrdən Azərbaycan aşıqlarının əsərlərini, xalq qoşmalarını və bayatılarını, atalar sözlərini gürcü ziyalıları gürcü və erməni əlifbası ilə yazıya köçürmüş, gürcü və erməni xanəndələri tərəfindən isə həmin qoşma və mahnılar məclislərdə oxunmağa başlanılmışdır. Həmin əlyazmaları indi də Gürcüstan Dövlət Muzeyində saxlanımaqdadır"* [259, s. 6]. Çox təəssüflər

olsun ki, "Tahir və "Zöhrən"in gürcü versiyasının mövcudluğu şübhə doğurmasa da, hələ əldə deyildir.

Mövzunu davam etdirərək bildirək ki, "Tahir və Zöhrə"nin türk xalqları arasında məlum bir əfsanədən dastana çevrilməsi, şübhəsiz ki, aşıq sənətinin güclü olduğu Şərqi Anadolu-Azərbaycan regionunda baş vermiş, sonra bir tərəfdən Şimali Qafqaz, digər tərəfdən türkmənlər vasitəsilə Volqaboyu və Sibirədək artıq dastan şəklində ötürülmüşdür. Bu xüsusda dastanın özbək və türkmən variantının ortaya çıxmasında da bulqarların (onların birbaşa nəsilləri olan tatarların) xüsusi rolu ola biləcəyi ehtimal olunur.

Yuxarıda qeyd etdiyimiz kimi, mütəxəssislər dastanın müxtəlif versiya və variantlarından söz açarkən buradakı toponim və hidronimlərə də ciddi diqqət vermişlər. Məsələn, onların bir qismi, o cümlədən Fikrət Türkmən diqqətini "Şat Suyu" hidroniminə yönəltmişdir. Əvvəla qeyd etmək lazımdır ki, nə Azərbaycanda, nə də Anadoluda çaya "su" deyilmir. Anadoluda bu anlamda "irmaq" (kiçik çay) və "nəhr" (böyük çay), Azərbaycanda isə "çay" kəlmələri istifadə edilir. Əvəzində isə Çingiz xanın soyundan gələn tatar xanlarının dövrümüzədək türkcə yetişmiş XV-XVII əsrlərə aid məktublarında Don çayı "Tan Suyu", Dnepr çayı isə (Özi Suyu) adlandırılır [202, s.146-147]. Konkret olaraq "Şat Suyu" (Şat çayı) adlı çayı"na gəlincə isə nə Qafqaz, nə də Anadolu ərazisində bu adda çay yoxdur. Bənzər adı (Zede/Cida) Buryatiyada Baykal gölünə tökülən çaylardan biri daşıyır. Bu böyük çay öz adını tofa türklərindən (tofalar) alan Tofalar bölgəsinə yaxındır.

Qeyd edək ki, tofa türkləri (karaqaslar), qonşuluqdakı digər türk xalqları, o cümlədən onların qərbindəki Tobol tatarları kimi əsrlər boyu Sibir tatarları deyilən bir xalqı təmsil edirdilər. "Tahir və Zöhrə" dastanının elmi tədqiqata cəlb edilmiş ilk nümunəsi məhz Tobol tatarlarından toplanmışdır. K.Türkan yazır ki, *"Hekayədən ilk dəfə XIX əsrdə Vambery bəhs edib. Mətn nəşrini isə ilk dəfə Radlov "Proben"in IV cildi içində, Tobol mətnləri arasında vermişdir. Bunu hekayənin XIX əsrdə türkmənlər, özbəklər, qazaxlar arasındakı variantları tərtib edilib"* [202, s.146-147].

Biz bu fikirdəyik və hesab edirik ki, dastanın özbək versiyasının formalaşması XVI əsrdə baş vermişdir. Belə düşünməyimizə bir səbəb dastanda Baba xanın adının keçməsidir. Qeyd edək ki, tarixi qaynaqlarda adı bəzən Baba sultan kimi də çəkilən Baba xan (1530-1582) Şeybanilər sülaləsindən olub, 1556-1582-ci illərdə Türküstana hökmdarlıq etmişdir. Bu məqamda haqlı olaraq bir sual çıxa bilər: Axı, Baba xan "Tatar ölkəsi"nin deyil, Türküstanın hökmdarı olub. Məsələ burasındadır ki, adı Şərq mənbələrində "Turan" və ya "Türküstan" kimi çəkilməkdə olan böyük ölkə həm də Çingiz xanın soyu tərəfindən idarə edilən Böyük Tatariya (Velikaya Tatariya, Grand Tartariya) kimi də adlandırılmışdır.

Tobol (tatar) variantının məzmunu türkmən və özbək variantlarından çox da fərqlənmir. Tobol (tatar) variantında Tahirin Zöhrəyə qovuşmasının önündəki əsas əngəl Kül xan, yəni Zöhrənin atası çıxış edir. O, qızını atası öldükdən sonra yetim qalan Tahirə vermək istəmir [196, s. 277-278]. Lakin Tahir uzun müddət apardığı mübarizədən qalib çıxır.

Dastanın özbək variantının formalaşması Səyyadi adlı bir ozanın adı ilə sıx bağlıdır. Tarixən bu ad altında yazıb yaratmış iki ozan olduğu məlumdur. Onlardan birincisi XIV-XV əsrlər arsında yaşayıb yaratdığı bilinən, ancaq həyatı haqqında heç bir məlumat olmayan, Qılıc Oğlu Səyyadi və ya Qılıc ibn Səyyadi adı ilə məşhur olan ozandır. Elm aləmində daha çox "Babaxan dastanı" adı ilə tanınan dastanı, bir versiyaya görə, onun düzüb qoşduğu söylənilir. Bu fikri dəstəkləyən tədqiqatçılar sözügedən dastanı bu səbəbdən özbəklərə deyil, tatarlara aid edirlər [126, s.294; 169, s.214]. İkinci versiyanı, yəni dastanın özbəklərə aid olduğu versiyanı dəstəkləyən digər tədqiqatçılar, o cümlədən özbək alimi T.Nişanbayeva dastanın müəllifinin XVII-XVIII əsrlərdə yaşamış olan Mühəmməd Səyyadi olduğunu iddia etməkdədirlər [147, s. 17].

Biz ikinci versiyanı, qismən də olsa, doğru hesab edirik. Çünki dastanda adı keçən Baba xan (Babaxan) XVI əsrdə, Türküstanda yaşamış və hökm sürmüşdür. XIV-XV əsrlərdə yaşayıb-yaradan Qılıc Oğlu Səyyadi, özündən sonra dünyaya gələcək bu hökmdarı tanıya və dastana daxil edə bilməzdi. Odur ki, bu halda söhbət Mühəmməd Səyyadidən gedə bilər və getməlidir. Üstəlik də hesab edirik ki, dastanın yaradıcısı olduğu söylənilən Qılıc Oğlu Səyyadi ilə Mühəmməd Səyyadi əslində eyni addır. Məsələ burasındadır ki, dastanın mətnində hər iki adla rastlaşmaqdayıq. Belə ki, dastanın kitab variantının çeşidli yerlərində müəllif özünü Səyyad, Səyyadi, Səyyad oğlu Qılıc, Qul Səyyad oğlu Xarabi kimi tanıdır [130]. Dastanın Özbəkistan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda 9194 nömrə

altında qorunmaqda olan əlyazmanın sonunda müəllif özünü Səyyad Mühəmməd adlandırır: *"Molla Səyyad Mühəmmədgüftagi kitob həmun əst"* ("Həmin kitabı Molla Səyyad Mühəmməd hazırladı") [148, s. 3-4].

T.Nişanbayeva dastanın mətnindən çıxış edərək, Səyyad Mühəmmədin bugünkü Əfqanıstanın Bəlx vilayətinin Xeyrabad şəhərində yaşadığını, dastanı da orada 4 ilə qələmə aldığını ehtimal etməkdədir [148, s. 4].

Elmi ədəbiyyatda Səyyadinin türkmən boylarından biri olan səyat, sayat boyuna aid ola biləcəyini ehtimal edənlər də var [135, s. 33]. F.Z.Yaxinin fikrincə, Səyyadi Urgenc şəhəri yaxınlığındakı Sayat şəhərindən olub [213, s.4]. S.Hüseyn və X.Zərifova dastanın dil xüsusiyyətlərini təhlil edərək, onu XVI əsrə aid etməkdədirlər [148, s. 4]. X.Xismetullin isə XIV-XV əsrlərdən söhbət açır [209, s. 250]. Dastan nəzmlədir.

Hazırda sözügedən variantın aşağıdakı nüsxələri məlumdur:

1. Rusiya Elmlər Akademiyasının Şərqşünaslıq institutunun Sankt-Peterburq şöbəsi (B 3833, C148, B3245) [122, s. 139-140].
2. Özbəkistan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutu (№ 6357, 6359, 9194, 10236).
3. Özbəkistan Elmlər Akademiyasının A.S.Puşkin adına Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyat Muzeyi (№ 95).
4. M.E.Saltıkov-Şedrin adına Cankt-Peterburq Kütləvi Kitabxanası (№439).

5. Türkmənistan Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu [148, s. 3].

6. Tatarıstan Respublikası Elmlər Akademiyasının Q.İbrahimov adına dil, ədəbiyyat və incəsənət İnstitutu (*кол.* 39, *ед.* хр. 2016, 4896) [208, s. 171].

1928-ci ildə Leninqrad Şərqiyyət İnstitutunun aspirantı A.Kul-Muxamedovun Türkmənistan səfəri zamanı Səyyadi variantının digər nüsxələrinə bənzəməyən daha bir nüsxəni üzə çıxartdığı bilinməkdədir [135, s. 33]. X.Xismətulinin yazdığına görə, daha bir nüsxə İ.F.Qotvald tərəfindən Kazan Universitetinə bağışlanmış kitablar içərisindən tapılmış, fəqət sonradan itirilmişdir [209, s. 250].

Dastanın özbək variantları içərisində xüsusi seçilən varianlardan ikisi Şəhrizabda yaşamış xalq nəğməkarı Zahir Koçkor oğlundan qeydə alınmışdır. Bu mətnlərdən biri 1953-cü ildə yazıya alınlb. Özbəkistan Elmlər Akademiyasının Dil, Ədəbiyyat və Folklor İnstitutunun arxivində saxlanır. Əlyazma mətninin həcmi 203 səhifədir. Bu mətn böyük ölçüdə vaxtilə baxşı İslam Nəzəroğludan yazıya alınmış mətnlə eyniyyət təşkil edir. Bunun səbəbi Zahir Koçkor oğlunun bir müddət Narpay rayonuna köçərək Nəzəroğlunun yanında şagirdlik etməsinə bağlanılır [Mamatkulova, s.6493-6501]. Belə ki, Zahir Koçkor oğlu ustadından eşitdiyi variantı olduğu kimi nəql etmişdir. Həmin baxşıdan ikinci mətn Şərəfcan Arifi tərəfindən 1983-cü ildə yazıya alınıb. Mətn 222 səhifədir [160]. Maraqlıdır ki, eyni söyləyicidən yazıya alınmasına baxmayaraq, birinci mətndən süjet və obrazlarına görə kəskin fərqlənir. Rəvayət onunla başlayır ki, xanla vəzir övladsızlıqdan qəm-kədər içində ikən, xanın

darvazası döyülür. Hökmdar zənn edir ki, qapını döyən dilənçi və ya yoldan keçən kasıblardır. Əmr edir ki, aparıb pul versinlər. Amma qapıdakı qələndar deyirlər ki, onların pula ehtiyacı yoxdur, bir-iki tikə çörək də bəsidir. Əvəzində isə cibindən bir alma çıxarıb, deyir ki, bunu xana versinlər və yox olur. Almanı xanla vəzir bölüb yedikdən az sonra xanımları hamilə olur. Ümumiyyətlə, nurani qocanın, bağbanın, dərvişin və s. verdiyi almadan qəhrəmanların analarının hamilə qalması "Tahir və Zöhrə"nin özbək xalqı arasında dolaşan variantları (o cümlədən nağıl variantı) üçün səciyyəvidir. Bir gün ovda olarkən xanla vəzir vədələşirlər ki, əgər birinin oğlu, digərinin qızı olsa onları böyüyəndə evləndirsinlər. Müəyyən vaxt keçir, bədxah insanlar xanla vəzirin münasibətlərini korlayır. Xan (Kara xan) ovda qəsdən vəzirini – Qəmbəri oxla vuraraq öldürür. Yetim böyüyən Tahir Zöhrə ilə birgə məktəbə gedir və böyüdükdə ona aşiq olur. Tatarların qonşuluğundakı böyük bir ölkənin şahı – Kara Batır Zöhrə ilə evlənmək təklifi ilə Qara xana məktub göndərir. Kara xan əyan-əşrəfini toplayaraq bunu müzakirə edir, lakin məclisdəkilər Kara batırın ölkəyə hücum edə biləcəyindən qorxub, Zöhrəni ona ərə verməyi məsləhət görürlər. Beləliklə, xan toya hazırlaşmağa başlayır. Zöhrə bunu eşidəndə Tahiri sevdiyini və Kara Batıra ərə getməyəcəyini söyləyir. Qəzəblənmiş xan əmr edir ki, Tahiri əl-əyağını bağlayır və aparıb insan ayağı dəyməyən, üzərindən quş belə uçmayan Kuytir səhrasına atsınlar. Kara Batır Zöhrəni yola gətirmək və guya Tahirin artıq Zəhranı atdığını söyləmək üçün Mastanoy və Bustanoy adlı iki hiyləgər qarını saraya gətirdir. Amma qarıların və xanın tə-

kidi Zöhrəni inadından döndərə bilmir. Əli-qolu bağlı Tahir Allaha və "çöllərin ağası" Həzrəti Xızıra ona kömək olması üçün yalvarır. Bundan sonra birdən-birə onun qollarındakı kəndirlər öz-özünə açılır. Uzun müddəd səhrada dolaşan Tahir bir gün gəlib barlı-bəhərli bir yerə çıxır. Buranın sahibi Altmışboy xanın Tahirə yazığı gəlir, ona öz qızı ilə evlənməyi, həmişəlik onun yanında qalmağı təklif edir. Amma Tahir öz sevgilisinə sadiq olduğunu deyir və bundan imtina edir. Bir gün bu ölkəyə Tahirin vətənindən tacirlər gəlir və Tahir bundan istifadə edərək onlara qoşulub getmək üçün Altmışboy xandan icazə istəyir. Nəhayət Tahir ağ dəvənin belində "tatar xalqının" yanına qayıdır. Sevgililər durnalar vasitəsilə bir-birlərinə xəbər çatdırırlar. Kara Batırın casusu Haydarmurat Tahirin qayıtması və Zöhrə ilə görüşməsi haqqında ona məlumat verir. Bu dəfə Tahiri sandığa salıb dəryaya atırlar. Dalğalar Şam ölkəsində sandığı sahilə çıxarır. Burada Mahmud xanın qızları sandığı tapıb, Tahiri xilas edirlər. Tahir başına gələnləri nəql etdikdən sonra Murad xanın kiçik qızı Oltunoyla Altmışboy xanın oğlu Kiran xan Tahirə kömək etmək istəyirlər. Kiran xan Kara Batırla vuruşub onun ordusunu məğlub edir. Kara Batır özü də döyüşdə öldürülür. Bundan sonra Kara xan qızını Tahirə ərə verməyə məcbur olur. Tahir xanlıq taxtına oturur. Qəhrəmanlar ailə qurur və həyatlarının sonunadək şad-xürrəm yaşayırlar.

Dastanın özbək variantlarından biri də Əl-Xarəzmi adına Ürgenc Dövlət Universitetinin Filoloji Tədqiqatlar Mərkəzinin nəşr etdirdiyi "Xarəzm dastanları" toplusunun beşinci cildində yer alıb [262, s.3-127]. Kitabı nəşrə hazırla-

yanların qeydinə görə, bu mətn Şavatlı Niyazjan Xalfa Bisotidən yazıya alınmış əlyazma əsasında hazırlanıb. Əlyazmanın hansı ilə aid olduğu göstərilməyib. Ümumilkidə əski əlyazmalar işində səksən altı "Tahir və Zöhrə" dastanı əlyazmasının olduğu qeyd edilib. Dastanla bağlı qeyddə göstərilib ki, bu mətn Molla Nəpəsin qələmə aldığı mətnin təsiri altında yaranıb, lakin şeirlərinin çoxluğu ilə seçilir.

Hazırda dastanın Q.Raquette tərəfindən Kaşğarda və Q.Yarrinq tərəfindən Xotəndə yazıya köçürülmüş daha dörd versiyası məlumdur. Onlar transkripsiyaları, eləcə də alman və ingilis dilinə tərcümələri ilə birlikdə dərc edilmişdir [243, s. 117].

"Tahir-Zöhrə" adı ilə də məşhur olan "Babaxan dastanı"nın əvvəli türkmən variantında olduğu kimidir. Özbək variantında hadisələr kölə ərəbin Tahirlə Zöhrənin bir-birilərilə görüşdüklərini padşaha, yəni Zöhrənin atası Babaxana xəbər verməsilə davam edir. Sonda Tahiri tutub meydanda qətlə yetirirlər, bunu görən Zöhrə dərddən ölür. Etdiklərinə peşman olan ərəb isə xəcalətindən özünü öldürür. Zöhrənin qəbrində ağ, Tahirin qəbrində isə qırmızı gül bitir, onlar bir-birilərinə doğru uzanırlar, ancaq ortada bitən tikan onların qovuşmasına mane olur.

Bu süjet Volqa boyundan tutmuş Türküstana qədər geniş yayılmışdır. Onun özbəklər arasında olduğu kimi, Kırım və Volqaboyu tatarları arasında da çox geniş yayıldığı, sevildiyi və ən azı orta əsrlərdən məlum olduğu bilinməkdə-dir [207, s. 258-334]. Qabdulla Tukayın təbirincə desək, "*tatarlar bu dastanı qədim zamanlardan öz milli-mədəni sərvəti*

hesab edirlər. Məncə bizdə çox az adam tapılar ki, uşaqlığında onu oxumamış və acı göz yaşları axıtmamış olsun" [164, s. 19].

Dastanın özbək variantından az fərqlənən tatar variantına gəlincə, o, "Qisseyi – Tahir və Zöhrə" adı ilə məşhurdur və onu XIX əsrin ikinci yarısında tatar maarifçisi Əhməd Urazayev-Kurmaşi yazıya köçürmüş və yazısının sonunda bu dastanı 1879-cu ildə Kuşir kəndində bulunan, tatar və qazax dillərində olan türkcə yazılı mətnlərindən əxz etdiyini bildirmişdir [210, s.304]. Bu əsər ilk dəfə Kazanda 1882-ci ildə nəşr edilmişdir [211, s. 435].

"Babaxan dastanı"nı ilə Əhməd Urazayev-Kurmaşinin yazıya köçürdüyü "Qisseyi – Tahir və Zöhrə" mətnlərinin tutuşdurulması onların türk dilinin fərqli ləhcələrində yazıldığını açıq şəkildə ortaya qoyur. Bunlardan birincisi çağatay türkcəsində, ikincisi isə çağdaş tatar şivəsinə çox yaxın bir dildə qələmə alınmışdır.

Lakin "Babaxan dastanı"nın dilinin çağatay türkcəsində olması onun tatarlar tərəfindən qoşulmadığını sübut etmək üçün yetərli deyil. Çünki XV-XVIII əsrlərdə bu şivənin bütün Mərkəzi Asiya xanlıqlarında rəsmi dil olduğu məlumdur. Bunu tatar xanlarının, kalğalarının (vəliəhdlərinin), nurəddinlərinin (vəliəhd əvəzi, ikinci vəliəhd), eləcə də Moskva çarlarının tatar xanlarına türkcə yazdıqları sözügedən dövrə aid məktubların mətnləri sübut etməkdədir [123].

Fikrimizcə, dastanın tatarlarla bağlantısı onu özbək xalq ədəbiyyatından qoparmağa haqq vermədiyi kimi, yalnız özbəklərə aid etməyə də imkan vermir. Çünki dastan Çingizoğullarının hakimiyyəti dövründə və "Tartariya" (Tatarıstan) adı ilə tanınan ölkədə ərsəyə gəlmişdir. Məsə-

ləyə türk xalqlarının elmi-mədəni və siyasi-inzibati vəhdətə olduğu dövrün prizmasından baxmaq lazımdır.

Dastanın Orta Asiya-Volqaboyu variantlarında rast gəlinən yer adları hadisələrin Çingizoğullarının hakimiyyəti altında olan geniş bir coğrafiyada (Grand Tartariya / Böyük Tatarıstan) baş verdiyini söyləməyə əsas verir. Məsələn, dastanın versiyalarının biri aşağıdakı şeir parçasıyla başlayır:

"*Bu tauruxnu eşitdim*
İdilninq jaqasında,
Noqay bilə Qumuqda,
Baxçasaray qalada" [130, s. 4-8].

Bu kiçik parçada İdil (Volqa) çayının, Noqay çölünün, Balkar elinin (Quzey Qafqaz), eləcə də Kırımın baş şəhəri Baxçasaray şəhərinin adları çəkilir.

"Babaxan dastanı" 1998-ci ildə çağdaş tatar dilinə tərcümə edilərək "Tahir- Zöhrə (Babaxan dastanı)" adı altında nəşr edilmişdir [213, s. 6-190].

"Qisseyi – Tahir və Zöhrə"nin dili isə, demək olar ki, çağdaş tatar şivəsidir və bu dastan hazırda "Tahir və Zöhrə" adı altında tatar folklorunun nümunəsi kimi "Tatar xalq yaradıcılığı. Dastanlar" kitabına daxil edilmişdir [212, s. 206-248].

Qeyd etmək lazımdır ki, "Babaxan dastanı" başdan ayağa nəzmlə yazılmışdır və onu poema janrına aid etmək daha doğru olar. "Qisseyi – Tahir və Zöhrə" isə ənənəvi dastan stilində, yəni nəzmlə nəsrin sıralanması şəklindədir. Onlar arasında elə də böyük süjet və məzmun fərqi mövcud deyil və açıq-aydın şəkildə görünür ki, hər ikisi daha

qədim olan başqa variantdan qaynaqlanır. Əsas personajların adları da eynidir. Bunlardan birincisində bütün personajlarının adı var, ikincidə isə yalnız əsas personajların adı çəkilir [169, s. 214].

"Babaxan dastanı" da xanla (padşahla) vəzirin öz aralarında əhd-peyman bağlamaları ilə başlayır. Onların şərtinə görə hər ikisinin oğlu olsa dost olsunlar, qızları olsa rəfiqə olsunlar:

"*Uqul bolsa, ikisi də dost bolsın,*
İkisi bir tən, həm də can bolsın.
Əgər qɪz bolsalar, bolsunlar tinqdəş,
Bir-birsinə bolsunla alar canaş" [213, s. 23].

Lakin iş elə gətirir ki, padşahın qızı, vəzirin isə oğlu olur. Onlar uşaqları beşikkəsmə edib bir-birilərinə adaxlayırlar. Bir müddət sonra vəzir ölür. Tahir yetim qalır və bu da iki gəncin gələcək taleyini müəyyən edir.

Türkmən variantında olduğu kimi həm özbək, həm də tatar variantlarında Tahirlə Zöhrə birlikdə məktəbə gedir, dostluq edir və bir-birilərinə aşiq olurlar. Daha sonra Səyyadi variantında Türk folkloru üçün xarakterik bir hadisələr baş verir. Tahir anasından Zöhrə ilə beşikkəsmə olduqlarını öyrənir, fəqət anası onun Zöhrə ilə görüşməsinə qarşı çıxır, bu halda onu gözləyən çətinliklərdən xəbərdar edir. Dastanın süjeti Tahirin sevgilisinə qovuşması yolunda üzləşdiyi çox saylı əngəllər və qəhrəmanın onları bir-bir aşmasıyla davam edir. Tahir, padşahın onu öldürmək üçün göndərdiyi əsgərlərə qalib gəlir.

Eyni hadisələr tatar variantında da var. Burada Tahir güc-qüvvət sahibi olan bir bahadır kimi təsvir edilir, təkba-

şına bir ordu əsgər ilə savaşıb onları məhv edir. Ayrı-ayrı versiyalarda 50 və 100 əsgərdən söhbət gedir [169, s. 214].

Səyyadi variantında Tahirin anası Xuban adlı-sanlı bir soyun təmsilçisi kimi təsvir edilir. O, oğluna dəstək verir, xandan sevgililərin Leyli və Məcnunun, Saqit və Malikinin, Xosrov və Şirinin faciəli taleyini təkrar etməmələri üçü onları bir-birindən ayırmamasını xahiş edir. Lakin xan Xubanın və Zöhrənin xahişlərinə məhəl qoymadan Tahiri sandığa qoydurub çaya atdırır.

Əhməd Kurmaşinin yazıya köçürdüyü variantda Zöhrənin anası Tahirə qarşıdır. Gənclərin izdivacına mane olmaq üçün cadugər qadına müraciət edir və onun köməyi ilə xanın Tahiri sandığa qoyduraraq çaya atdırmasına nail olur.

Tatar variantından fərqli olaraq, özbək variantında Tahir Bağdad hökmdarının Mahum adlı qızı ilə evlənir, lakin yeddi il keçməsinə baxmayaraq, ona yaxın durmur. Bütün bu illər arasında gecələr Tahir onunla öz arasına iti qılınc qoyur. O, sevgilisini unuda bilmir. Oğlunun ayrılığına dözə bilməyən Xuban dərddən və kədərdən ölür. Yeddi il sonra Tahir Bağdad şahından onu vətəninə dönməsinə izn verməsini xahiş edir. Şahı və qızını buna çox çətinliklə razı sala bilir və burada yenidən Tatar toponimi ilə üzləşirik. Tahir Tatar şəhərinə dönür. Bununla belə, bu fakt hadisələrin baş verdiyi yerin, bilavasitə Çimkənd, yəni, bugünkü Qazaxıstan ərazisi olduğu qətiyyən şübhə doğurmur. Bu, dastandakı Kurınqan dağlarının və Səmərqənd şəhərinin adlarından [205, s. 84] da görünməkdədir.

Tatar şəhərinə gələn Tahir Zöhrə ilə görüşür. Sevgililər gizli toy etməyə və evlənməyə qərar verirlər. Lakin Ba-

baxan bundan xəbər tutur və Tahirin başının kəsilməsini əmr edir. O, gəncə rəhm etməsini xahiş edən vəzir və bəyləri eşitmək belə istəmir. Qəzəbi soyumaq bilmir. Başqa çarə qalmır, Tahirlə Zöhrə bir-birindən göz yaşları ilə ayrılırlar. Ölümündən qabaq Tahir Mahuma məktub yazır və ölümünün səbəbini qeyd edir. Tahirin ölümünə dözməyən Zöhrə də, Mahum da dərd və kədərdən ölürlər. Dastan bu misralarla sona çatır:

"Munı bilməgənnər yoqtır cahanda,
Məşhur bolır qırda, həm də yabanda"[169, s. 215].

"Qisseyi-Tahir və Zöhrə"də də Tahirin başını kəsirlər. Xan Tahirin bağışlanması üçün ona Zöhrənin adının çəkilmədiyi üç qəzəl söyləməsini təklif etsə də Tahir bunu etmir və qətl fərmanı həyata keçirilir.

Dastanın özbək variantlarından biri də "Tohir va Zuhra" adı ilə məşhurdur [224, s. 5-49]. Bu variantın dil özəlliklərinin təhlili onun çox da qədim olmadığını göstərməkdədir. Dastan çağdaş özbək türkcəsindədir. Fikrət Türkmən də "Tohir va Zuhra"nın qədim olmadığı fikrindədir. O bu fikrini dastanda realistik cizgilərin həddən artıq çox olması ilə əsaslandırmaqdadır [205, s. 84]. O, "Tohir və Zuhra" dastanını onun Anadolu variantı ("Hikaye-i Tahir ile Zührə") ilə müqayisə edərək bildirir ki, hər iki variantda süjet yaşlanaraq uşaq sahibi olmayan dostların əhvalı ilə başlayır. Bu epizoddan sonra uşaqların doğumu gəlir. Anadolu variantında bu doğum zəngin şəkildə "bəzəkli", özbək variantında isə sadə və realistikdir. Anadolu variantı doğumun bütün möcüzəvi yönünü təsvir etməkdədir. Bu hadisə dərvişin padşah və vəzirə alma verməsilə həyata ke-

çir, ardınca padşahla vəzirin uşaqların gələcəyi ilə bağlı birbirilərinə söz verməsi səhnəsi gəlir. Uşaqlara ad qoyulması motivi Anadolu variantında qədim türk ənənələrinə uyğun şəkildə təsvir edilir. Özbək variantında isə uşaqların adını padşah bir şeir söyləməklə verir.

Maraqlıdır ki, "Tohir və Zuhra" dastanında padşahın adı Səyyadi variantında olduğu kimi Babaxan deyil, Qara xandır [205, s. 84-85]. Bu variantda da Tahirlə Zöhrə eyni məktəbə gedir və bir-birilərinə aşiq olurlar. Tahirin atası öldükdən sonra Qara xan vəzirə verdiyi sözdən vaz keçir. Çıxan dedi-qoduları önləmək üçün Tahiri sandığa qoydurub çaya buraxdırır. Yəni, burada da hadisələr "Babaxan" dastanında olduğu kimi cərəyan edir. Lakin haqqında danışdığımız variantda Tahirin şah qızı tərəfindən xilas edilməsi epizodu yoxdur.

Daha sonra sevgililərin təkrar görüşündən söhbət açılır və süjet Qara Batırın baş verənləri padşaha çatdırması ilə davam edir. Dastan Tahirin öldürülməsi, Zöhrənin də onun qəbrinə girərək ölməsi ilə bitir.

Dastanın avropalı tədqiqatçılar – Qustav Raquette tərəfindən Qaşqarda və Qunnar Yarrinq tərəfindən Xotandan uyğurlar arasından toplanmış dörd Doğu Türküstan variantı da məlumdur. Bu mətnlər alman və ingilis dillərində nəşr olunmuşdur. Qustav Raquettenin 1930-cu ildə çap etdiyi uyğur versiyası janr baxımından ənənəvi məhəbbət dastanlarına daha yaxındır.

Q.Raquettenin nəşr etdirdiyi uyğur variantının məzmunu belədir. Keçmiş zamanlarda Ağ xan və Qara xan adlı iki padşah var imiş. Onlar övladsızlıqdan dərd-qəm içində

imişlər. Bir gün vəzirləri şahlara deyirlər ki, əl qaldırıb Allaha yalvarsınlar və övlad istəsinlər. Əyan-əşrəf də ona "amin" desin və dua etsin. Allah-tala onların duasını eşidir, padşahların həyat yoldaşları hamilə qalırlar. Bu iki hökmdar bir-birilərinə vəd verirlər ki, əgər birinin oğlu, digərinin qızı olsa onları böyüdükdə evləndirsinlər. Bir gün padşahlar ovda ikən Ağ xanın oğlu, Qara xanın qızı olması barədə xəbər gəlir. Ağ xan atına minib evə çapanda, at yıxılır və padşahın boynu sınıb, ölür. Uşaqlar Ağ xanın himayəsində böyüyürlər. Yetkin yaşlarına çatanda xan öz qızına Zöhrə xan, Ağ xanın oğluna isə Tahir xan adı verir. Tahir şahın yanında bir igid döyüşçü kimi yetişir. Uşaqlar böyüyəndə Qara xanın qulu Qara Batır onların sevgisinə mane olur, müxtəlif şayiələr yayır. Yeganə qızının adının bədnam olmasından qorxan padşah onları bir-birindən ayırır. Sevgililərin gizlin görüşdüyünü eşidəndə isə Tahiri sandığa qoydurub dəryaya atır. Dəyra sandıq bir yerdə sahil atır. Rum padışahının qızları sandığı açıb Tahiri xilas edirlər. Rum padşahı Tahiri qızlarından biri ilə evləndirmək istəyir. Buna görə də Tahirin əsilzadə, yəni padşah soyundan olduğuna əmin olmaq üçün onu müxtəlif sınaqlardan keçirir. Tahir şahın qızı Sultan Bibicaya Zöhrə haqqında danışır. Onu da götürüb vətəninə qayıdır. Sevgililər yenə görüşürlər. Qara Batır hadisəni padışaha çatdırır, qəzəblənmiş hökmdar Tahirin üstünə "üç yüz cəllad" göndərir və Tahir öldürülür. Zöhrə Tahiri dəfn etdirir və üstündə türbə tikdirir. Zöhrə qəbiri ziyarətə gələndə qəbir yarılır, zöhrə ora girib yox olur.

Dastanın daha bir uyğur variantını müasir türk dilində Alimcan İnayet İzmirdə 1995-ci ildə nəşr etdirmişdir. Dastanın əvvəlində verilən məlumata görə, toplayıcı bir mətni 1982-ci ildə Kulca şəhərində Tohti Şəmsəddinin dilindən qeydə alıb. Digər variantı isə əlyazması halında əldə edib. Naşir yazır ki, əlyazma təxminən XIX əsrın sonları-XX əsrin əvvəllərinə aiddir [261, s.143]. Burada deyilir ki, Tanrıkut ətrafında Ağ xan və Qara xan adlı iki padşah varmış. Onların övladları olmurmuş. Allah onların nəzi-niyazlarını qəbul etdi və həyat yoldaşları hamilə qaldılar. Bir gün Ağ xan və Qara xan ayrı-ayrılıqda ova çıxırlar. Hər ikisinin qabağına bir maral çıxır, amma bu dişi maralı "balalı olduğu üçün" onu vurmurlar. Yolda padşahlar qarşılaşırlar və maralla qarşı-qarşıya gəlib, hamilə həyat yoldaşlarını xatırlayaraq onu vurmadıqlarını bildirirlər. Ağ xan və Qara xan burada əl sıxışıb söz verirlər ki, əgər birinin qızı, digərinin oğlu olsa mütləq gələcəkdə onları evləndirəcəklər. Bir müddət keçir, xəbər yayılır ki, Ağ xan padşahın oğlu, Qara xan padşahın qızı olub. Ağ xan padşah sevincindən atını bərk çapır və bu səbəbdən atdan yıxılıb canını tapşırır. Oğlu yox, qızı doğulduğu üçün elə də sevinməyən Qara xan Ağ xanın atdan yıxılıb öldüyünü görür, onun nəşini saraya gətirir və böyük bir təntənə ilə dəfn etdirir. Qara xan sonra Ağ xanın yeni doğulmuş körpəsini öz sarayına gətizdirir, ona Tahir, qızına isə Zöhrə adını verir. Uşaqlar bir yerdə böyüyürlər. Tahir və Zöhrə böyüdükdən sonra bir-birlərini sevməyə başlayırlar. Bu xəbər padşaha çatanda o, gəncləri ayırmağa çalışır. Bu zaman qonşu hökmdar Qara xanın üstünə qoşun çəkir. Padşah çar çəkdirir ki, kim bu düşməni

yenərsə, qızı Zöhrəni ona ərə verəcək. Qara Batır hiylə ilə düşməni qorxudub ölkədən qovur və Zöhrə ilə toya hazırlaşır. Bir gün o, Zöhrə ilə Tahiri bir yerdə görür və padşaha şikayət edir. Qəzəblənmiş hökmdar Tahiri sandığa saldırıb "Rum nəhrinə" buraxır. Uzaq bir yerdə Tahiri Rum padşahının qızları xilas edirlər. Tahir sağ olması barədə Zöhrəyə xəbər göndərir. Rum padşahı Tahiri sınaqdan keçirib qızı Məlikə Sultanı ona ərə verir. Toy gecəsi Tahir qılıncını siyirib Məlikə Suktanla özünün arasına qoyur. Tahir Rumda ikən geri qayıdan tacirlər ona Zöhrədən məktub çatdırırlar. Şah Tahirin öz dogma yurd-yuvası üçün darıxdığını eşidib üç yüz atlı və Məlikə Sultanla vətəninə yola salır. Tahir və Zöhrə görüşürlər. Bu dəfə xan Tahiri edam etdirir. Zöhrə 40 gün Tahirə matəm saxlayır. 41-ci gün Tahirin məzarı yarılır, Zöhrə özünü məzarın içinə atıb həlak olur. Kara Batır Zöhrənin ölümünü eşidəndə öznə qəsd edir. Şahın əmri ilə onu Tahir ilə Zöhrənin arasında dəfn edirlər.

Bu mətn böyük ölçüdə Vasili Radlovun 1868-1869-cu illərdə Sibirdən, Tobol tatarlarından topladığı "Tahir və Zöhrə"nin bir variantı təsiri bağışlayır. Tobol tatarlarından yazılmış variantda hamilə dovşanı burada maral əvəz edir. Süjet xətti (xanlardan (padşahlardan) birinin atdan yıxılıb ölməsi, padşahın Zöhrəni Qara Batıra vermək istəməsi, Tahirin edamı, Zöhrənin ölümü, Qara Batırın da özünə qəsd etməsi və qəhrəmanların arasında basdırılması və s.), demək olar ki, tam eynidir. Bu variantlarda da süjet sonluğu "Əsli və Kərəm" dastanını xatırladır. Qəhrəmanların məzarı üstündə gül, Qara Batırın məzarı üstündə tilkan kolu bitir.

Bunlarla yanaşı, sözü gedən mətn nəşr olunmasına və Türkiyədə yayılmasına baxmayaraq müəyyən suallar və şübhələr də doğurur. Birincisi, naşir mətni necə və hardan əldə etməsi, orijinalı haqqında dəqiq və ətraflı heç nə demir. İkincisi, onun çap etdiyi mətnin də özünün topladığı, yoxsa əlyazma mətni olduğu da aydın olmur. Digər tərəfdən bu variant Q.Raquettenin mətnini böyük ölçüdə təkrarlayır. Burada Alimcan İnayətin, əgər həqiqətən əlində olan əlyazmadan istifadə edibsə, haqqında danışdığı əlyazma ilə Q.Raquettenin çap edirdiyi mətnin vaxtilə Uyğur bölgəsində yazılmış hansısa əlyazmanın müxtəlif nüsxələri olduğunu düşünə bilərik.

Bunlarla bərabər, uyğur mətni çox maraqlıdır ki, həm onların sıx əlaqədə olduğu Orta Asiya variantları, həm də Şərqi Türküstan(uyğurların yaşadığı bölgə) çox uzaqda yaşayan Tabol tatarlarının dilindən toplanmış variant ilə böyük bənzərlik göstərir. Dastanın şeirləri də Anadolu xalq şeri şəkillərini (mani, taşlama və s.) xatırladır. Amma İnayətin nəşrində bu sonuncu hal tərcümənin naqisliyindən də irəli gələ bilər.

2.2. "Tahir və Zöhrə" dastanının Anadolu versiyası

"Tahir və Zöhrə" dastanının Anadolu variantlarının süjet və obrazlar sistemini Orta Asiya və Azərbaycan variantlarından fərqləndirən əsas xüsuslardan biri burada iki gəncin bir-birinə qovuşmasını əngəlləməyə çalışan şəxs rolunda ərəb bir kölənin çıxış etməsidir. Belə ki, Tahirlə Zöhrə on beş yaşına çatdıqda padşahın ərəb köləsi iki gəncin gizli eşq macərasını qızın anasına bildirir. Anası da bunu

padşaha söyləyir. Ancaq padşah söylənənlərə inanmır və gəncləri təqib etdirir. Çox keçmədən məsələ aydın olur. Padşah qızını Tahirlə evləndirmək istəsə də, Zöhrənin anası buna razı olmur, bir sehrbazın yardımı ilə padşahın Tahirdən soyumasına nail olur və beləcə gənclərin görüşmələri qadağan edilir. Ayrılığın acısına dayana bilməyən Zöhrə mürəbbiyəsi ilə birlikdə atasının onun üçün tikdirdiyi sarayda yaşamağa başlayır. Mürəbbiyə anasının etdiklərini Zöhrəyə bildirdikdə Zöhrənin ürəyi gedir. Bir müddət sonra Tahir ilə qarşılaşan Zöhrə durumu ona başa salır. Ərəb kölə sevgililərin yenə də gizlincə görüşdükləri xəbərini padşaha çatdırır. Bunu eşidən padşah Tahiri Mardinə sürgün etdirir. Bu arada Tahirin Zöhrəyə olan eşqini dilə gətirdiyi şeirləri bütün məmləkətə yayılır. Yeddi il sürgündə qalan Tahirin eşqindən özünə yer tapa bilməyən Zöhrə də dərdini şeirlərə tökür. Onun türküləri dillər əzbərinə çevrilir. Bu türküləri eşidən və çox duyğulanan Kəloğlanın (Keçəlin) yolu bir gün Mardinə düşür. O, Tahirə Zöhrədən xəbər gətirir. Tahir Zöhrə ilə görüşə bilmək üçün Allaha yalvarır, onun duaları qəbul olur və Zöhrənin sarayına yol tapır. Zöhrə Tahirin söylədiyi şeirdən sonra onu tanıyır. İki sevgili yenidən görüşməyə başlayırlar. Ərəb kölə bu görüşləri yenə padşaha bildirir. Padşahın əmri Tahiri ilə bir sandığa qoyularaq çaya buraxırlar. Su Tahiri başqa məmləkətə aparır. Olanları eşidən Zöhrə Göl padşahın qızına bir məktub yazaraq Tahirin xilas olmasına nail olur. Ancaq bu qız da Tahirə aşiq olur. Tahir oradan qaçaraq bir bulaq başına gəlir. Burada qarşısına çıxan dərviş qəhrəmana yardımçı olur - onu doğma vətəninə çatdırır. Tahir öyrənir ki, Zöhrə

artıq başqasına verilib, toya hazırlıq gedir. Tahir libasını dəyişərək toy məclisi olan yerə gedir, Zöhrə ilə görüşür. Məsələ barədə ərəb kölə yenə padşahı xəbərdar edir. İki aşiqin üzərinə ordu göndərilir. Tahir tutulub padşahın hüzuruna gətirilir, amma ətrafdakıların xahiş-minnəti ilə ölümdən qurtara bilir.

Lakin Tahir Allaha dua edərək, özünə ölüm diləyir və duası qəbul olur. Zöhrə də ölmək üçün Allaha yalvarır və onun da duası qəbul olur. Bu hadisələrin səbəbi olan ərəb kölə etdiklərinə bərk peşman olur və özünü öldürür [202, s. 139-140].

Dastanın digər variantları kimi Anadolu variantlarının da əsas ideyasını saf məhəbbət və xeyirlə şərin mübarizəsi təşkil edir. Anadoludan toplanan variantlarda dərviş, Kəloğlan və Göl padşahının qızı qəhrəman qütbündə dayanırlar, antiqəhrəman qütbündə isə padşah, Zöhrənin anası, ərəb kölə yer alır.

Tahirin röyası dastanın ən maraqlı hissələrindən birini təşkil edir. Onun yuxusuna girən qara köpək ərəb köləni, dişi köpək isə Zöhrənin anasını təmsil edir. Mistik mahiyyət daşıyan bu yuxuda şər qüvvələr öz təcəssümünü it şəklində tapır. Bu itlər yuxuda Tahiri qovurlar: "Məgər o gece Tahir bir röya görmüşdü. Röyasında bir qara köpək, Zöhrənin önünə gəlib Tahirə keçid vermədi. Tahir nə qədər çalışsa da Zöhrənin yanına varmağa müvəffəq ola bilmədi. Çarəsiz qaldığı vaxtda bir dişi köpək ortaya çıxdı və iki köpək birdən Tahirə hücum etdilər. Tahir qaçdıqca köpəklər qovaladılar". Tahir röyasını özü yozub bunu Zöhrəyə türkü ilə çatdırır [204, s. 219]. "Tahir və Zöhrə" dastanının müxtəlif

versiyalarında ərəb kölənin funksiyasının Karaçor (bulqar variantında), Molla ilə keçəl (Azərbaycan variantlarında), Kül xan və ya Qara Batır (Tobol variantında) icra edirlər.

Dastanın elmə məlum olan Anadolu variantlarının bir çox toplama mətnləri və nəşrləri məlumdur ki, onları Fikrət Türkmən sistemləşdirmiş və haqlarında məlumat vermişdir [203, s. 4-176].

Anadolu variantları içərisində ən maraqlılarından biri, fikrimizcə, Şarkışla variantıdır. Bu variant 31 oktyabr 1992-ci il tarixində Sivasda Aşıq Qafilinin dilindən, Doğan Kaya tərəfindən toplanmışdır. Dastanı söyləyən Aşıq Qafilinin 1935-ci ildə Sivasın Şarkışla ilçəsinin Maqsudlu kəndində, aşıq Quddusinin ailəsində dünyaya göz açdığı, dastanı da atasından öyrəndiyi bilinməkdədir. Atasının da onu ustadı aşıq Vəhbidən öyrəndiyi məlumdur. Fəqət aşıq Qafilinin bu dastanın bəzi nəzmi hissələrini unutması səbəbindən bu variant tam mükəmməl hesab edilə bilməsə də, özünəməxsus çalarları ilə seçilməkdədir.

Dastanın daha çox Azərbaycan versiyası ilə [16, s.115-159] səsləşdiyini bildirən Doğan Kaya yazır ki, sözügedən variantın nəzm hissəsi əldə olan digər variant və versiyalarda olduğu kimi on bir və səkkizhecalı şeirlərlə müşaiyət olunur. Buradakı şeirlər qoşma tipli qafiyə sisteminə sahibdir ki, bu da onu digər Anadolu variantlarının bir çoxundan fərqləndirir. Hadisələr, şəxslər və məkan baxımından da bəzi fərqliliklər gözə dəyir. Digər variantlarda sevgililər qovuşmazkən, bu variantda Tahir ilə Zöhrə vüsala yetişirlər və dastan xoşbəxt sonluqla bitir.

Dastanın bu variantının əsas personajları bunlardır:

"Əlaəddin Xoca, Əlixan vəzir, Arifə (Ethem Şahın bacısı), Baş vəzir Əhməd (Ethem Şahın böyük qardaşı), Cadı Qarı, Çoban, Çobanın anası, Ethem Şah (Hökümdar), Ethem Şahın xanımı, Səid Paşa (Əli Xan Vəzirin oğlu), Xızır (ə), Dərviş, İspaniya kralı, Qara Vəzir, Lalə, Mələk Suna (Zöhrənin rəfiqəsi), Misir padişahının qızı, Şahab (Tahirə yardım edən gənc), Tahir, Zöhrə, İspaniya kralının qızı" [191, s.169].

Tahir və Zöhrə istisna olmaqla digər obrazlar əsasən dastanın Türkiyə versiyasına daxil variantlarda yer alırlar. "Abbas və Gülgəz" dastanının variant və versiyalarını tədqiq etmiş Vüsalə Məmmədova belə tip personajları – yəni bir versiyaya xas olan personajları "spesifik personajlar" kimi xarakterizə etmişdir [86, s.16]. "Tahir və Zöhrə" dastanının Anadolu (Türkiyə) versiyasının spesifik personajları sırasına digər türk varintlarda rastlaşdığımız Zöhrənin dadısı, Göl padşah, Ərəb və Kəloğlan obrazlarını da əlavə etmək lazımdır.

Bunlardan əlavə, Şarkışla variantı bir sıra məhəlli söz və ifadələrin işlənməsi baxımından da böyük maraq kəsb edir ki, Doğan Kaya onlardan aşağıdakıları xüsusi qeyd etməyi lazım bilmişdir:

"dar axşamı –axşamüstü
işi başqa şeyə tökmək - arzu edilməyən iş görmək
qafayı üşütmək – dəli olmaq
qanına toxunmaq – pisinə getmək
kar etmək – fayda əldə etmək
namizətləmək – nişanlamaq
nişangahsız atmaq – mənasız danışmaq
pağaç - mayasız yağlı xəmirdən yapılan çörək

plan qurmaq – hiylə qurmaq, hiylə işlətmək
saçı buçuq – qadın və qızlara söylənən təhqir
sırra qədəm basmaq – görünməz olmaq
soqurdanmaq – xoruldamaq
şadraban çağırmaq – nəşələnmək, keflənmək" [191, s. 194].

"Tahir və Zöhrə" dastanının Anadoluda ən geniş yayılmış və üzərində daha çox durulan variantı, şübhəsiz ki, "Hikaye-i Tahir ile Zührə" və ya "Kıssa-i Tahir ilen Zühre" adı ilə məşhur olan variantdır. "Hikaye-i Tahir ile Zühre"nin süjeti yaşlanmalarına baxmayaraq uşaq sahibi ola bilməyən padşahla vəzirin əhvalı ilə başlayır. Onların övlad sahibi olmaq arzusu dərvişin alma verməsilə həyata keçir, bundan sonra padşahın qızı, vəzirin isə oğlu olur. Dostlar uşaqları beşikkəsmə edir və bir-birilərinə gələcəkdə onları evləndirəcəkləri barədə söz verirlər. Uşaqlara qədim türk ənənələrinə uyğun şəkildə ad qoyulur. Tahirlə Zöhrə məktəbə gedir.

"Hikaye-i Tahir ilen Zühre"nin ən maraqlı tərəflərindən biri budur ki, burada tədris-təhsil prosesi ilə bağlı epizodlara da rast gəlinir. Bu variantda Tahirlə Zöhrə əvvəllər bacı və qardaş olduqlarını zənn edirlər, daha sonra isə bir qoca qarıdan əsil həqiqəti, uşaqlıqdan beşikkəsmə olduqlarını öyrənirlər. Bundan sonra gənclər arasında eşq macərası başlayır. İş elə gətirir ki, Tahirin atası ölür, Zöhrənin atası Qara xan vəzirə verdiyi sözü unudur və gənclərin sevgisinə əngəl olur. Daha sonra Tahirin sandığa salınaraq dənizə atılması baş verir. Tahir dənizin o biri sahilində başqa bir ölkənin hökmdarının qızları tərəfindən xilas edilir. Qızlardan biri Tahirə aşiq olur. Tahir bir karvançıdan Zöhrəni

başqasına ərə verməyə hazırlaşdığını eşidib, məmləkətinə dönür. Sevgililər təkrar görüşürlər, ancaq bir ərəbin olanları padşaha çatdırması ilə padşah Tahirin başının kəsilməsini əmr edir. Tahir öldürülür. Tahirin ölümündən sonra Zöhrə xəstələnir, hətta dərddən ağlını belə itirir. Həkimlər onun sağalması üçün Tahirin ətindən yeməsini məsləhət görürlər. Tahirin cəsədindən bir parça kəsib küftə bişirirlər. Ancaq Zöhrənin mürəbbiyəsi bunu eşidib bu barədə Zöhrəni xəbərdar edir və qız da küftəni yeməkdən imtina edir, dərdə dözməyib özünü öldürür.

Zöhrənin ölərkən ata-anasına acı-acı aşağıdakı bayatını söyləyir. Bu bayatıda da "tatar" etnonimi keçir ki, bu da çox anlamlıdır:

"Hey tatarlar, tatarlar,
Birbirine ok atarlar.
Çarşıda et tükenmiş,
Tahir etin satarlar."

Gənclərin ardınca ərəb də öldürülür.

Bu variantı özbək variantı (Tahir va Zuhra) ilə müqayisə edən Fikrər Türkmən aşağıdakı ortaq məqamları qeyd edir:

1. *"Hər iki variantda qəhrəmanların ailələri hökmdar və vəzirdir. Ataları yaşlı və sonsuzdur.*
2. *Qəhrəmanların doğumundan öncə uşaqlar bir sözləşmə ilə "beşikkəsmə" edilirlər.*
3. *Qəhrəmanlar birlikdə böyüyür və təhsil alırlar.*
4. *Qəhrəmanlar bir-birini sevməyə başlayırlar.*
5. *Tahirin atası ölür və Zöhrənin atası qızını Tahirlə evləndirməkdən vaz keçir.*

6. *Tahir bir sandığa qoyularaq suya atılır, bu yolla sürgün edilir.*

7. *Tahir Zöhrənin toyuna yetişir.*

8. *Tahir yaxalanır və öldürülür.*

9. *Zöhrə özünü öldürür və Tahirin yanında torpağa verilir.*

10. *Aşiqlərin məzarında gül, onlara mərdimazarlıq edənlərin qəbrində isə tikan bitir* " [205, s. 87].

"Tahir və Zöhrə" dastanının Anadoludan toplanmış başqa variantları bunlardır:

1. "Dahar Mirze". Qarslı Behcət Mahirin dilindən 1970-ci ilə lentə alınıb və həmin il Yaşar Boza tərəfindən nəşr olunub [179].

2. "Taharnan Zühre". Elaziğlı Halide Nevruzdan lentə alınıb.

3. "Tahir Mirza". Sivasda 80 yaşlı Çerçinin dilindən Burhan Paşaoğlu qeydə alıb.

4. "Tahir ile Zühre". Maraş-Elbistan variantı. Söyləyəni 1918-ci il doğumlu Fatma Tamer olub.

5. "Tayırnan Zöhre". 1976-cı ildə Yeriköy-Bağlarbaşında Kıymet Cihangirdən qeydə alınıb.

6. "Tahir ile Zühre". Boğazlıyanın Yoğunhisar kəndində 1977-ci ildə Kadriyye Şenin dilindən qeyd edilib.

7. "Tahir ilə Zühre". Elaziğda Fikriyyə Şatır dan yazıya alınıb.

8. "Tahir ile Zühre". Eskişehrin Arapkuyusu kəndində 1925-ci il doğumlu Şeniye Zincirdən qeydə alınıb [203, s. 23-24].

Bunlardan başqa dastanın əski osmanlıca olan variantı var ki, onu 1901-ci ildə Herman Vamberi qeydə almış və

elə həmin ildə də nəşr etdirmişdir [239]. Dastanın Rodop adasından toplanan daha bir variantı məlumdur [198].

Bu variantlar məzmun, obraz və süjet xətti etibarilə bu və ya digər dərəcədə Əhliman Axundov və Məmmədhüseyn Təhmasibin təqdim etdikləri Azərbaycan variantı [18, s. 99-49] ilə səsləşməkdədirlər.

"Tahir və Zöhrə" dastanının Anadolu variantını özbək variantı ilə F.Türkmən müqayisə etmiş və əsasən poeziya nümunələrinin fərqləndiyinə diqqət çəkmişdir: "Ö*zbək variantında 220 dördlükdən ibarət 41, Anadolu variantında isə 101 dördlükdən ibarət 28 şeir vardır. Şeirlərin quruluş və mövzusu fərqlidir. Özbək variantında dördlüklərin bəzilərində son misra təkrar edilərək beşli sətirlər əmələ gətirir. Bu da özbək variantının sazın müşaiyəti ilə söyləndiyini göstərir"* [205, s. 88].

Alimin sözlərinə görə, mətnlər arasında bənzərliklər və fərqlər hər iki variantın eyni mədəni qaynaqdan bəslədiyini, nüvəsini mühafizə etdiyini, daha sonrakı dövrlərdə yeni coğrafi, sosial və mədəni çevrələrdə yeni motivlər qazandığına dəlalət edir. O, yazır ki, dastanların yazılı variantlarının yayılması quzey (İstanbul-Kırım-Kazan), sözlü variantlarının yayılması isə güney (Anadolu-Azərbaycan-Türküstan) yolu ilə baş vermişdir" [205, s. 88]. Beləliklə, alim dastanın Volqaboyu, Şimali Qafqaz və Balkanlarda yayılmasını dastanın kitab halında onlar arasında yayılması ilə əlaqələndirmişdir. Bu fikir çox mübahisəlidir, çünki baxış bucağından bir tərəfdən "şimal" variantları nisbətən daha yeni variantlar sayılır və dastanın bu bölgələrdə yayılmasında şifahi ənənənin rolu kiçildilir. İkinci tərəfdən das-

tanın ilk yazılı mətnlərinin məhz Türküstanla bağlı olması unudulur.

D.Kayanın da Anadolu variantları ilə bağlı bəzi önəmli təsbitləri [191, s.170-171], onu Orta Asiya variantlarından kəskin fərqləndirir və bu variantları dastanın Azərbaycan-Anadolu və ya şərq versiyası deyə biləcəyimiz bir qrupa daxil edilməsinə imkan verir.

Təbiidir ki, "Tahir və Zöhrə" dastanı vaxtilə Osmanlı imperiyasının ərazisi olmuş və türklərin mədəni təsirinə məruz qalmış Balkan yarımadası xalqları və orada məskunlaşmış türklər arasında da yayılmış və uzun müddət şifahi ənənədə yaşamışdır. Bunlardan Kosova variantları deyilən iki mətni Türkiyə tədqiqatçısı Gonca Kuzay Demir Prizren şəhərindən Agim Fişer və Fikriye Luma adlı söyləyicilərdən 2008-ci ildə qeydə almışdır [193, s.465-466]. Agim Fişerdən yazıya alınan mətnlər əsasən dastanın şeirlərini əhatə edir və natamamdır. Hər iki mətnin süjetini G.K.Demir müqayisəli təhlil etmişdir. Agim Fişerin söylədiyi dastanda Zöhrənin atası sultan, Tahirin atası ona tabe olan bəydir. Həzrəti Xıdır övladsızlıq dərdi çəkən sultanın və bəyın həyat yoldaşlarına bir alma verir və almanı yarı bölüb yemələrini istər. Doqquz aydan sonra sultanın arvadının, bəyin arvadının və həmçinin almanın qabıqlarını yemiş xidmətçi qadının eyni vaxtda övladları dünyaya gəlir.

Fikriye Luma variantında isə qəhrəmanların atası şah nəslindən olan qardaşlardır. İyirmi il övlad həsrəti çəkdikdən sonar sehrli almadan onların uşaqların dünyaya gəlməsi möcüzəvi doğuluş motivinin iştirakını göstərir. Uşaqların uzaqlarda yaşayan yaşlı əmisi "onlara adı mən gəlib

verəcəm", - deyir və bu səbəbdən onlara ad verilməsi bir il çəkir. Hər iki variantda uşaqlar (Tahir, Zöhrə və xidmətçinin oğlu Karaçor) birlikdə böyüyürlər. Gənc yaşlarına çatanda Tahir və Zöhrə biri-birilərinə aşiq olurlar. Eyni zamanda Karaçor da Zöhrəyə vurulur. Bundan sonra hər iki variantın süjet xətti digər Anadolu variantlarında olduğu kimi davam edir: yayılan dedi-qodulardan əsəbiləşən sultan Tahiri sandığa qoydurub dənizə atdırır, Tahir xilas olur, yeddi ildən sonra geri dönür. Kosova variantlarının sonunda Zöhrənin atası bir məclis təşkil edir. Tahiri bu məclisə gətirir və oxumasını tələb edirlər. Əgər Tahir oxuduğu ifalarda Zöhrənin adını çəkməzsə, onu azad edəcək, əks halda isə öldürəcəklər. Bundan xəbər tutan Karaçor məclisdə qəsdən Zöhrəni Tahir ilə üzbəüz oturdur. Tahir Zöhrənin adını çəkdiyi üçün öldürülür.

2.3. "Tahir və Zöhrə" dastanının Azərbaycan versiyası

"Tahir və Zöhrə" dastanı Azərbaycanda ən geniş yayılan və sevilən məhəbbət dastanlardan biridir. Bu versiyanın ölkəmizdə 20-dən artıq variantı toplanmışdır [161, s.78]. Lakin çox təəssüf ki, onların hamısı ayrılıqda nəşr edilməmişdir.

Dastanın Qazax, Tovuz, Şamaxı, Şəmkir, Astraxanbazar (indiki Cəlilabad), Cəbrayıl, Cənubi Azərbaycan, Borçalıda müxtəlif aşıqların dilindən qeydə alınan variantlarından Məmmədhüseyn Təhmasibin istifadə etdiyini bilirik [19, s.313-315]. Bunların içərisində Cəbrayıllı Aşıq Humayunun (1960-cı ildə söyləyib), Cəlilabadın Bəcrəvan kəndin-

də yaşamış Aşıq Ayışın, Tovuzlu Aşıq Əbilin (1960-cı ildə yazıya alınıb) və s. adlarını xüsusi çəkmək lazımdır

Dastanın Azərbaycandan toplanmış, bizə məlum variantları bunlardır:

1. Güney Azərbaycan variantı. Aşıq Həsən Qəffari tərəfindən söylənilmişdir. O, bu dastanı 1989-cu ildə Aşıq Polad Xudafərinlidən əldə etmişdir [52, s. 317-398, 414].
2. Qazax variantı. Qazaxın Düzqışlaq kənd sakini Aşıq Məhəmmədin dilindən qələmə alınıb [19, s. 324].
3. Muğan variantı. Cəlilabad rayonunun Bəcrəvan kəndində yaşamış Aşıq Ayış Fiyaz oğlundan 1956-cı ildə qələmə alınıb [19, s. 314].
4. Şirvan variantı. Aşıq Xanış Zahidovdan (Qobustan rayonunun Nabur kəndi) yazıya alınıb [22, s.104-119, 318].
5. Tovuz variantı. Tovuzlu Aşıq Əbilin dilindən 1960-cı ildə yazıya köçürülüb [19, s. 317].
6. 1937-ci ildə nəşr edilmiş "Dastanlar və nağıllar" kitabında gedən, söyləyəni bilinməyən variant.
7. Dastanın XX əsrin ortalarında Borçalıdan yazıya alınmış, hazırda əldə olmayan variantı.
8. Həmin illərdə Gəncədən toplamış varaint.
9. Göyçə variantı.
10. Kəlbəcər variantı.
11. Şəmkir variantı.

Borçalı, Gəncə, Şəmkir, Göyçə, Kəlbəcər, Şəmkir variantlarının vaxtilə yazıya alındığı və "Tahir və Zöhrə"nin "Azərbaycan dastanları" beş cildliyində dərc olunan mətni-

nin hazırlanması zamanı istifadə edildiyi barədə çox az məlumata malikik.

"Tahir və Zöhrə" tipli məhəbbət dastanları, belə hesab edilir ki, qəhrəmanlıq dastanlarına nisbətən tarixin sonrakı dövrlərində ərsəyə gəlmiş, eləcə də onun ana ideyasını təşkil edən məhəbbət ideyası dastan yaradıcılığının ən son dövrlərində aparıcı motiv olmuşdur. *"XIX əsrin sonu - XX əsrin əvvəllərində yaranmış coxsaylı qəhrəmanlıq dastanları ("Qacaq Kərəm", "Qacaq Nəbi", "Səttarxan" və s.) belə həmin axarın istiqamətini dəyişə bilməmişdir"* [98, s. 6].

Məlum olduğu kimi, özünəməxsus süjet və kompozisiya tərkibinə malik orijinal epik folklor nümunələrindən olan məhəbbət dastanları əsasən üç hissədən: ustadnamə, dastanın əsas hissəsindən və duvaqqapmadan, bəzi hallarda isə cahannamə və vücudnamədən ibarət olur [103, s. 5]. Bu baxımdan "Tahir və Zöhrə" dastanı da istisna deyil.

Dastanın əksər versiyalarında olduğu kimi, onun Azərbaycan versiyası da nəzmlə nəsrin sıralanması formasındadır. Şeirlər nəsrlə nəql edilən hadisələrin və obrazların canlılığını və ifadəliyini artıraraq, onları quru olmaqdan çıxarır, onlara canlılıq və hərəkətlilik qazandırır. Şeir parçalarının daşıdığı funksiya ilk növbədə bilavasitə buna xidmət edir. Bu baxımdan sevgilisindən ayrılmaq məcburiyyətində olan Tahirin Zöhrəyə söylədiyi aşağıdakı nəzm parçasını deyilənlərə ən gözəl sübutdur.

"Mən gedərəm Allah səni saxlasın,
Ağlaya-ağlaya qal innən belə!
Əmanətin neçə-neçə məndədi,
Saxlaya bilmənəm, al, innən belə!

Didərginəm, gəlməm mən buralara,
Axıb didəm yaşı dönüb sulara,
Canım düçar olub çox bəlalara,
Hərdəm-hərdəm yada sal, innən belə.
Tahir deyər: işim ahu-zar oldu,
Şoralandı gözüm yaşı, car oldu,
Dağıldı dövlətim, taru mar oldu,
Atını düzəxə sal innən belə!" [30, s. 37-38].

"Tahir və Zöhrə" dastanının Azərbaycandakı ən geniş yayılmış süjetinin qısa məzmunu belədir:

Zöhrə Qaraman hökmdarı Hətəm Sultanın qızıdır. O, əmisi oğlu Tahirlə eyni gündə, eyni saatda dünyaya gəlib, bir yerdə böyüyüb, bir yerdə oxuyublar. Müxtəlif variantlara görə, Zöhrəni Qara vəzirin oğlu, yaxud Molla Bədəl və yaxud da Keçəl almaq istəyirlər. Bu personajın hiyləsinə uyan Hətəm Sultan Tahirin atasını, yəni öz doğma qardaşını öldürür, qardaşı oğlunu da ölkədən sürgün edir. Tahir qərib həyatı yaşamağa başlayır. Elləri-obaları dolaşıb, sonda Xanverdi adlı bir tacirin qızı Nərgizə rast gəlir. Qız ona aşiq olsa da, Zöhrəni unuda bilməyən Tahir vətəninə dönür. Zöhrə onu sandığa qoyub suda saxlayır. Lakin gözlənilmədən sandığı saxlayan ip qırılır və sandıq girdaba düşür. Lakin Zöhrə onu öz qoşmaları ilə xilas edə bilir. Sandıq Çinə gedir. Dastan Banu adlı Çin şahzadəsinin Hətəm Sultanı öldürməsi və iki sevgilinin vüsala yetisməsilə sona yetir.

Azərbaycan versiyasını tədqiq etmiş M.Təhmasib "Tahir-Zöhrə" dastanının astral dastan olduğunu sübuta yetirmək üçün aşağıdakı dəlilləri irəli sürür:

1. Dastanda şər qüvvə kimi təsvir edilmiş Hatəm Sultanın hökmdarı olduğu Qaraman heç bir dövlət və ya ərazinin adı ilə əlaqədar deyil, bu, tamamilə simvolik məna daşıyan bir addır. Astral mənada qaranlıq "gecə səması" deməkdir.

2. Dastanın əsas qəhrəmanlarından biri olan Zöhrə isə onun qızıdır. Tahirlə eyni saatda anadan olan Zöhrə atası Tahiri sürgün etdikdən sonra xüsusi bir imarətdə göz dustağı kimi saxlanılmış, Hatəm Sultan öldükdən sonra azadlığa çıxmışdır. Aydındır ki, bu axşamdan parlaq bir ulduz kimi görünən, sonra yoxa çıxan, bir də ancaq səhərə yaxın görünən Zöhrə ulduzunun antropomorfizmidir.

3. Dastanın digər əsas qəhrəmanı Tahirin adı Əttar ulduzu, Tair zirvəsi, Tir və ya Müştəriyə çox bənzəsə də, ayın adlarından biridir və "o, *Günəşin qaranlıq gecəni məhv etməsi nəticəsində Zöhrə ilə qovuşur* [51, 2013].

Lakin, bu mülahizələr mübahisəlidir. Birincisi, Qaraman Anadoludakı orta əsr bəyliklərindən birinin adıdır, ikincisi, türk dastanın digər versiyalarında Qaraman ölkəsinin adına rast gəlinmir. Sevgililərin qovuşmasına gəlincə, isə əksər versiyalarda onlar qovuşmur, hətta öldükdən sonra qara bir tikan onların qəbirlərində bitən güllərin qovuşmasına imkan vermir. Zöhrə ulduzunun (əski adı Nahid // Anahid) dünya xalqlarının əski mifik təsəvvürlərində su məbudu, yəni çay və dənizlərin hakimi kimi çıxış etdiyi faktını əldə əsas tutan alimlər dastanda aşağıdakı epizoda diqqət çəkirlər:

"Hətəm Sultan Tahiri sürgün etdirdikdən sonra su kənarında xüsusi bir imarət tikdirir Zöhrəni orada saxlayır. Tahir gə-

lib çıxdıqdan sonra, Zöhrə onu sandığa qoyub gündüzlər su içində gizlədir, gecələr isə öz yanına gətirir. Günün birində ip qırılır, sandıq axır. Lakin uzağa getmir. Elə bil ki, su aparmaqdan ötrü Zöhrədən icazə istəyir.

Su sandığı aparmaqda olsun, görək Zöhrə sandığın dalınca dəryaya nə deyir:

Qanlı dərya, nə axarsan selabnan,
Axıbanı bir ümmana gedirsən.
Əmanətdir, qərq eyləmə sandığı.
Üz tutuban nə məkana gedirsən?

Sandıq getməyib yenə də Zöhrənin üstünə qayıtdı. Kənizlər dedilər:

- Zöhrə, santıq getmir, səndən icazə istəyir. Sandığı girdaba salma, icazə ver, getsin... [103, s. 17-18].

Əgər həqiqətən də bu, Zöhrə obrazının (Nahid ulduzunun) su stixiyası ilə bağlantısının bir rudimentidirsə də, əsərin süjetində kosmosla, ulduzlarla bağlı digər əlavə elementlərə rastlanılmır. Məlumdur ki, astral əsərlər təbiət qüvvələrinin təsiri ilə baş verən hadisələrin, ilk növbədə də müxtəlif göy cisimlərinin, o cümlədən ay, günəş və ulduzların insan kimi, yəni antropomorf şəkildə təsəvvür edilməsinə əsaslanmaqdadır. Bu tip əsərlərin süjetləri ya bütünlüklə də qismən göydə müşahidə edilən astronomil və astroloji hadisələrlə alleqorik şəkildə üst-üstə düşür. Məsələn, bir çox mifoloji mətndə Ay - oğlan, Günəş isə qız və yaxud da əksinə təsvir edilməkdədir. Azərbaycan folklorunda bunun nümunələri az deyildir. Ola bilər ki, dastanın özəyində hansısa astral məzmun və ya kosmik süjet dayanmış, lakin bu əfsanə dastana transformasiya olarkən çox arxa

plana keçərək tamamilə itmişdir. Kosmos, astral mahiyyət dastanda yalnız ad səviyyəsində qoruna bilmişdir. Eyni sözləri az və ya çox dərəcədə "Mehr-Müştəri", "Mehr və Mah", "Mahmehri ilə Xurşid", "Şəms-Qəmər" dastanları haqqında da söyləmək olar. Güman ki, bu səbəbdən Azad Nəbiyev adı çəkilən dastanı və ümumiyyətlə məhəbbət dastanlarını "nağıl motivləri əsasında yaranan dastanlar" sırasına daxil etmişdir [92, s. 357].

Dastanın Azərbaycan versiyasının müxtəlif variantlarının, o cümlədən Aşıq Həsən Qəffarinin dilindən yazıya köçürülmüş Güney Azərbaycan variantının süjeti və məzmunu arasında bir o qədər də böyük fərq yoxdur. Fərqliliklər əsasən dil-ləhcə elementlərində, formullarda və s. özünü göstərir. Məsələn, Aşıq Həsən Qəffarinin dilindən yazıya köçürülmüş variantın sadəcə başlanğıcı [52, s.317-398] digər variantların başlanğıc hissələri ilə müqayisədə fərqlənir.

Ə.Axundov və M.Təhmasibin təqdim etdikləri variant ustadnamə ilə başlayır:

"Gəlin sizə mən ərzimi eyləyim,
Aqil olan, bu dünyada var nədi?
Dünya bir bostandır, pozular gedər,
Çiçək nədi, yemiş nədi, bar nədi?.." [103, s. 124].

Aşıq Həsən Qəffarinin dilindən yazıya köçürülmüş Güney Azərbaycan variantında ustadnamə hissəsi yoxdur. Dastan nəsrlə belə başlayır:

"Bəli, indi söhbətimiz belə başlanır. Mən bu söhbəti idamə verim ki, zamani- qədim Qaraman addı bir şəhri var idi. Bu şəhridə iki qardaş varımış. Biri vəzir, biri soltan. O zamanın şahı idi soltan, amma vəzir çox ədalətdi bir şəxs idi. Çox baiman, çox fəqi-

rə-füqəraya ürəyi yanan bir şəxs idi. Amma padişah çox zülmükar naədavət, namürvət, kasıba, dövlətdiyə yetişmiyən bir şəxs idi. Amma əz qəza buların heç birisinin də övladı yox idi…" [52, s. 317].

Dastanın Hümmət Əlizadə tərəfindən nəşr edilmiş variantında da ustadnamə yoxdur. Burada mətn epik təhkiyə formulları ilə başlayır:

"Qaramanlı şəhrində iki qardaş var idi. Birinin adı Hətəmsultan, o birinin adı Əhmədvəzir idi. Bunların var-dövləti həddən ziyada idi. Yarı sinləri keçmişdi, amma hələ öladları yox idi. Maldölətdən fəqir-füqaraya payladılar. Hər ikisinin öladı oldu. Hətəm sultanın qızı, Əhməd vəzirin oğlu olmuşdu. Qızın adını Zöhrə, oğlanın adını Tahir Mirzə qoydular. Ataları bunları məktəbə qoydu" [48, s. 53].

Dastanın Şirvan variantı da ustadnaməsiz başlayır:

"Sizə hardan xəbər verim, Qareyman vilayətindən. Kimdən? İki qardaşdan. Biri Hətəm Sultan, digəri isə Əhməd Vəzir. Bunların soy-zuryəti olmurdu"[22, s. 104].

Nümunə gətirdiyimiz hər üç variant dərvişin ortaya çıxması ilə davam edir. Bir nurani dərviş Əhməd vəzirin səxavəti müqabilində ona sehrli alma verir. Eyni şəkildə Hatəm Sultan da həyat yoldaşı ilə dərvişin sehrli almasını yedikdən sonra bir övladı olur.

Şirvan variantında bu epizod çox qısa verilir:

"Gecənin bir aləmində bir dərviş gəlir, cibindən bir alma çıxarır, tən ortasından bölür, yarısını Hətəm Soltanın həyat yoldaşına, yarısını Əhməd Vəzirin həyat yoldaşına verib qeyb olur" [22, s. 104].

Bənzər halla sözügedən variantların final səhnəsində də qarşılaşırıq. Şirvan variantının finalında Tahir taxta çıxır və iki qadınla (Banu xanım və Zöhrə) evlənir [22, s.118-

119]. Banu xanım həm də Hatəm Sultanı məğlub edib öldürən cəngavər qadın surətidir. Ə.Axundov və M.Təhmasibin variantında Banu obrazı yoxdur. Onun əvəzinə Sona adlı başqa bir qız çıxış edir. Hətəm Soltanı da sonda paşadan yardım alan Tahirin özü öldürür.

Güney Azərbaycan variantında da Tahirə Sona və Həştərxan paşası Həsən Paşa yardımçı olurlar. Burada da Hətəm Soltanı məhz Tahir özü öldürür.

"Hatəm Soltan dəstur verd. Qaraman şəhrində nə qədər qoşun vardı atdandı. Ağa, cəngi başlandı. Tahir Mirzə gördü ki, əvvəl əldən Hatəm Soltan özü gəldi meydana. Üz tutdu Həsən paşaya ki, icazə versən atamın qısasını mən bu əmimdən alam…Başın döndərdi daldan ata baxanda Tahir Mirzə bir şəmşir vurdu boynuna, nizəni vurdu əmisinin ürəyinin basindan kürəyinin ortasından çıxdı. Cəhənnəmə vasil eylədi. Ordan qoşun qayıtdılar Qaraman şəhrinə. Tahir Mirzəyə 40 gün, 40 gecə toy tutdular" [52, s. 398].

Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutunun "Azərbaycan folklorunun ilkin nəşrləri" seriyasından çap etdiyi "Hümmət Əlizadə. Azərbaycan el ədəbiyyatı" kitabında H.Əlizadənin toplamış olduğu "Tahir Mirzənin nağılı" adlı variantın sonluğu Güney Azərbaycan variantıyla müəyyən qədər səsləşsə də, burada həm Zöhrə, həm də Bani (Banı) xanımla evlənir [48, s. 75].

Qeyd etmək lazımdır ki, Azərbaycanın bir çox folklor nümunələrinin, eləcə də dastanlarının, o cümlədən "Tahir və Zöhrə" dastanının Azərbaycan versiyasının başqa millətlərin nümayəndələri tərəfindən toplanaraq, ana dillərinə tərcümə edərək çap etmələri hallarına da rast gəlinməkdə-

dir [155, s. 77; 166, s.17-36; 162]. Deyilənlərə Avropa dillərinə edilmiş tərcümələri də əlavə etmək lazımdır. Bu baxımdan erməni-hay müəlliflərinin xüsusi fəallıq göstərdikləri məlumdur. Belələrindən biri də Ağek Mxitaryandır [255]. İsrafil Abbaslı haqlı olaraq göstərir ki, A.Mxitaryanın tədbil-tərcüməsi dastanın ilkin türk nəşrləri əsasında işlənmişdir. Onun yazdığına görə, tərcümənin sonluğundan belə aydın olur ki, dastanın həm nikbin, həm də bədbin formada tamamlanan variantları mütərcimə bəlli olub [1, s. 128-129].

Tədbil-tərcümənin bədii bir tərzdə - Tahir Mirzə ilə Zöhrə xanımın ölümü ilə tamamlandığına diqqət çəkən İsrafil Abbaslı bildirir ki, dastanın bu variantı ilə yanaşı nikbin variantı da hələ o zaman xalq arasında geniş yayılmışdı. Alim daha sonra təbdil-tərcümədən bu sitatı gətirir: *"Məhəbbət qurbanı olan bu qəhrəmanların hekayət və xatirəsi uzun müddət nağılsevər xalqın ürəyində dolaşmış, həmişə yad edilmiş, nəğmələri oxunmuş, adları unudulmamışdır. Xalq bundan sonra da onları yad etməyə, nəğmələrini oxumağa ara verməyəcəkdir"* [1, s. 129].

Alim sözügedən tərcümənin aparıcı süjet xəttinin dastanın Türkiyə, Bolqarıstan (Eflatun Cem Güney) və Azərbaycan nəşrlərindən fərqlənmədiyini qeyd edir və yazır ki, sonluq isə Türkiyə və Bolqarıstan nəşrləri ilə üst-üstə düşür. "Bununla bərabər ayrı-ayrı epizodların məzmununda, hadisələrin dinamikasında bir sıra fərqlə nəzərə çarpır ki, belə fərqlər dastanın tərcümə edildiyi orijinalla onun bugünkü variantları arasında fərqdən başqa bir şey deyildir. Məsələn, Xanverdi sövdəgərlə Tahir Mirzənin qarşılaşması səhnəsi və başqa əhvalatlar bu qəbildəndir.

Tədbil-tərcümə dastanın əksər variantlarında təsadüf olunan bir hadisə ilə başlanır: *"Türk hökmdarı Hatəm Soltan (Əmir bəy) və qardaşı Əhməd vəzirin övladları olmur..."* [1, s.129-130].

A.Mxitaryanın tədim etdiyi variantda da buta hadisəsi ilə qarşılaşmırıq. Burada Tahirlə Zöhrənin "Leyli və Məcnun"u oxuduqdan sonra sevişməyə başladıqları bildirilir. Onların qəlbində eşq odu yalnız bundan sonra közərməyə başlamışdır. Bununla da Tahirin macəralarının əsası qoyulmuş, məşuq məşuqəsinə qovuşmaq üçün müxtəlif maneələri dəf etmək məcburiyyətində qalmış, çox dəfə ölümlə qaşılaşmalı olmuş, sandığa qoyularaq dənizə atılmışdır.

Dastanın tədbil-tərcümə variantına Xızır rolunda çıxış edən Surb Sarkis obrazının daxil edildiyini görməkdəyik. Məlumat üçün bildirək ki, ermənilərin müqəddəs ("surb" epiteti erməni dilində "müqəddəs" anlamına gəlir) saydıqları Sarkis erməni əfsanələrinə görə Bizans imperatorunun sərkərdəsi olmuş, xristianlıq uğrunda savaşarkən öldürülmüş, bundan sonra "müqəddəslər" cərgəsinə daxil edilmişdir. Əslində isə bu obraz xristian dini pərdəsinə bürünmüş mifoloji obrazdır və əksər Avropa və Yaxın Şərq xalqlarının folklorunda (Qriqori, Qriqoris, Circis, Cərcis və s. adlarla məlumdur) məhsuldarlığı, cücərən torpağı təcəssüm etdirir.

İsrafil Abbaslının yazdığına görə, tədbil-tərcümədə bəzi hallarda atalar sözü, yaxud məsəli tərcümə etmək mümkün olmamışdır. Görünür mütərcim belə nümunələrin qarşılığını tapmaqda çətinlik çəkmişdir. Bu səbəbdən də bu qəbildən olan müdrik sözləri məxsus olduğu xalqın dilində verməyi lazım bilmişdir. Məsələn, "türklər demişkən, dərdli deyingən olur".

İsrafil Abbaslı haqlı olaraq bildirir ki, *"Tahir-Zöhrə" dastanının ayrı-ayrı dillərdə dəfələrlə çap olunması bu xalq romanının erməni ictimaiyyəti tərəfindən rəğbətlə qarşılandığını sübut edir "*[1, s.130-131].

Qeyd etmək lazımdır ki, sonrakı illərdə erməni saxtakarları Azərbaycan xalqına məxsus bir çox folklor nümunələri kimi, "Tahir və Zöhrə" dastanını da öz adlarına çıxmağa çalışmışlar ki, onların bu kimi əməlləri elə İ.Abbaslının özü tərəfindən, eləcə də digər Azərbaycan müəllifləri tərəfindən əsaslı şəkildə ifşa edilmişdir.

Alim özünün "Folklorşünaslıq axtarışları" [2, 209] adlı ikicildlik monoqrafiyasında da bu mövzunu davam etdirərək dastanın "Tahir Mirzənin nağılı" adı altında erməni hərfləri ilə yazıya alınan və hazırda Matenadaranda qorunan nüsxəsi (Matenadaran № 7318, vərəq 193) haqqında da məlumat verməkdədir. Onun tədqiqatından belə aydın olur ki, eyni əlyazmada eyni əlifbada "Şah İsmayıl-Gülgəz" dastanı da yer almışdır.

Əlyazması yaxşı qorunmadığından onun bəzi vərəqlərinin düşdüyü, nəticədə məzmunda bəzi əksiklərin meydana çıxdığı məlumdur. Bu variantda hadisələr digər Azərbaycan variantları ilə eyni şəkildə inkişaf edir, yer adları, əsas obrazların adları, epizodlar da eynidir. İ.Abbaslı müəyyənləşdirmişdir ki, erməni tərcümə-təbdilində *"Nədən hamı gəldi, Zöhrəm gəlmədi", "Mənə bir bayramlıq verdi, ağalar", "Qadir Allah imdad eylə bu işə", "Unutmanam xəyalımdan yar səni", "Boş qaldı dağlarım mənim", "Gəl rəhm eylə mənə Nərgiz" misraları ilə qafiyələnən qoşma və gəraylılar (Matenadaran № 7318, vərəq 206, 207, 208, 209, 210, 211, 212, 213, 214),*

həmçinin onlarla digər şeirlər xalq romanının məşhur nəğmələrinin variantlarıdır" [2, s. 163-164].

Heç şübhəsiz ki, "Tahir və Zöhrə" dastanının Azərbaycan versiyası mövcud bütün versiyalar içərisində həm süjetin təkmilliyi, həm məzmun dolğunluğu, həm də bədii-estetik keyfiyyətləri baxımından ən mükəmməl versiya hesab edilə bilər və edilməlidir.

"Tahir və Zöhrə" dastanın nisbətən son dövrlərdə Azərbaycandan toplanmış mətnləri sırasına Axıska türklərindən qeydə alınmış iki dastan şeirini də əlavə etmək lazımdır. Bunlar 2010-cu ildə nəşr olunmuş "Axıska türk folkloru" adlı topluda "Tahir və Zöhrə" dastanından" başlığı altında verilmiş "Gəlmədi" rədifli qoşma və Tahirlə Zöhrənin deyişməsi mətləridir [14, s.168-169]. Mətnlərdən birincisinin söyləyicisi kimi Saxanlı Fatimə Ömər qızı Səlimova göstərilib. Qeydlərdə deyişmənin kimdən qeydə alındığı məlum olmur. Deyişmə manilərdən (bayatılardan) ibarətdir. Hər iki mətnin toplayıcısı Asif Hacıyevdir. Azərbaycanda qeydə alınsa da, sözsüz ki, Axıska türklərinin folklorunda hələ də tam şəkildə toplanmamış "Tahir və Zöhrə" variantını Azərbaycan versiyasına daxil etmək olmaz. Əldə olan iki şeir, xüsusən manilər formasında olan deyişmə Axıska variantını Türkiyə variantlarına yaxınlaşdırır.

2.4. "Tahir və Zöhrə" dastanının Qıpçaq versiyası

"Tahir və Zöhrə" dastanının Orta Asiya variantları" adlı hissədə artıq qeyd etdiyimiz kimi, "Tahir və Zöhrə" dastanının Orta Asiya və tatar variantları Çingiz xan nəslinin hakimiyyəti dövründə və onların hakimiyyəti altında

olan torpaqlarda ərsəyə gəlmişdi. Qıpçaqların tarixən məskun olduğu ərazilər – Dəşti-Qıpçaq Qızıl Ordanın əsas hissəsini təşkil edirdi. Buna görə də "Tahir və Zöhrə" dastanının qıpçaq variantlarını da eynən tatar və özbək variantları kimi eyni coğrafi-siyasi və etno-mədəni sferanın məhsulu kimi nəzərdən keçirmək lazım gəlir.

"Tahir və Zöhrə" dastanının qıpçaq variantları deyildikdə, dastanın başqırdlar, tatarlar, karaimlər, qaraqalpaqlar, qaraçay-balkarlar, qazaxlar, qırğızlar, qumuqlar və noqaylar arasında yaşayan və günümüzə qədər gəlib yetişən variantlar nəzərdə tutulur.

Dastanın tatar variantı ilə bağlı bəzi məsələlərə yuxarıda müəyyən qədər toxunduq. Burada fikrimizi daha çox Sibir tatarları, eləcə də qumuq, noqay və başqırd variantları üzərində cəmləşdirməyi lazım bilirik. Qərbi Sibirin köklü yerli əhalisi və əsasən Tümen, Omsk, Novosibirsk, Tomsk, Tobolsk (Tobol), Tara, Baraba və digər bölgələrində yaşayan Sibir tatarlarının noqaylar, qazaxlar [154, s.22; 114, s.106; 143, s.190–194], Əbül-Xeyr özbəkləri [108, s.41–44], Kazan tatarları [106, s. 93], eləcə də Orta Asiyanın xanlıqları ilə [111, s.195–214; 158] genetik və mədəni-siyasi bağlılıqları vardır.

"Tahir və Zöhrə" dastanın Sibir tatarları içərisində ən geniş yayılmış olan adı "Tayırminən Səürə"dir. Bu versiya Al xan və Kül xan adlı iki xanın olması, onların ova getmələri, ov zamanı bir hamilə dovşana rast gəlmələri və öz arvadlarının da hamilə olduğunu bildirib, dovşanı vurmaqdan imtina etmələri ilə başlayır. Bu söhbət əsnasında xanlar əgər birinin övladı qız, digərininki oğlan olarsa, onları gələ-

cəkdə evləndirəcəklərinə söz verirlər [157, s.85]. Bundan sonra hadisələr məlum süjet əsasında davam edir.

Dastanın Sibir-tatar versiyası da əksər versiya və variantlarda olduğu kimi, nəsrlə nəzmin sıralanması şəklindədir. Əsərin nəzm hissəsi canlı xalq dilindədir:

"Inası yidən turup çığıp
Tışkarı kilip kıçkırdı,
Üp başı aiğırnı apkinınq!
Aiğırını alıp saldılar..." [157, s. 74].

Sibir-tatar variantında arxaik motivlər diqqət çəkir. Dovşan xanlara övlad nəsib edən mifik obraz kimi çıxış edir. Sibirin türk xalqlarının, eləcə də monqol xalqlarının folklorunda dovşan cinsi potensianı təcəsssüm etdirən, bundan başqa, dönərgəlik keyfiyyəti olan bir obrazdır [115, s.35]. Xakas folklorunda qızların bu və ya digər səbəbdən dövşana çevrildiyi süjetlər mövcuddur. Bundan başqa, xakas epik folklorunda xan qızı ilə "qəhrəmanlıqla evlənmənin" vacib bir şərti də dovşanın ardınca qaçıb onu tutmaq idi [115, s.40]. Göründüyü kimi, "Tahir və Zöhrə" dastanının Sibir-tatar variantı yerli inamlar və mifoloji elementlərlə zənginləşərək, fərqli özəlliklər qazanmışdır. Bunlarla yanaşı, həmin variantda Al xan və Kül xan obrazlarında gecə ilə gündüzün qarşılaşması motivinin dayandığını da düşünə bilərik.

"Tahir və Zöhrə" dastanının qıpçaq versiyasının ən maraqlı variantlarından ikisini Şimalı Qafqazda balkarlardan toplanmış mətnlər təşkil edir. Başdan-başa nəzm formasında olan bu variantlara həm tatarlar, həm də balkarlar sahib çıxmağa çalışsalar da onun, heç şübhəsiz, ortaq qıp-

çaq abidəsi olduğunu çəkinmədən söyləyə bilərik. Çünki burada demək olar ki, həm bütün qıpçaq xalqlarının, həm də onların yaşadıqları bölgələrin adları ilə yanaşı ayrıca tatar etnoniminə də rast gəlinir:

"Anı aytıp, quuqunun
On Buxarğa terk iydi.
Buxar xan da Tatardan
Kelliklerin bek südün..."

Mətn böyük balkar şairi, eləcə də xalq ozanı Kazım Meçiyevin qələmində 1891-ci ildə yazıya alınıb. Mətn nəsr və nəzm hissələrinin növbələşməsi prinsipi ilə qurulub. Lakin şeirlərin böyük qismi məsnəvi şəklindədir:

Xan bla yözyür – bir kıralda antlıla,
Uruşlada – kerti joldaş, tatlıla.
Tilekleri kabıl boldu, eştildi,
Kadar bolup, jürek kara teşildi.

Süjeti ümumi şəkildə Orta Asiya və tatar varintlarına uyğundur. Zöhrənin atası burada da Babaxan adlı hökmdardır. O və vəziri Baxır övladları olmadığı üçün qəm-qüssə içindədirlər. Xan və vəzir yol ilə gedərkən qarşılaşdıqları bir fəqirə min altun sədəqə verirlər, fəqirin duası, eləcə də bir müdrikin "qoynundan çıxarıb" verdiyi sehrli alma sayəsində hər ikisinin övladı dünyaya gəlir. Tahir yeddi yaşına çatanda atası – vəzir Baxır vəfat edir.

"Sehrli almadan doğulma" motivi, Tahirin Mərdinə getməsi, fitnəkar Ərəb obrazı bu variantı Anadolu versiyası ilə yaxınlaşdırır. Ola bilər ki, ərəb, fars, türk dillərini mükəmməl bilən, dövrünün həm də alim və filosofu kimi tanınan Kazım Meçiyev "Tahir və Zöhrə"nin İstanbul nəşrləri

ilə tanış imiş. O, dastanı qələmə alarkən, xalq arasında dolaşan rəvayətə özünün məlumatlı olduğu Anadolu varintlarından müəyyən elementlər qatmışdır.

Digər variantın müəllifi XIX əsrdə yaşayıb-yaradan balkar şairi Şauaylanı Daud Hacı (1800-1892) hesab olunur. Buna görə də sözügedən variantı da "balkar variantı" da hesab etmək olar. Müəllif öz adını dastanda qeyd etməyi də unutmamışdır:

"Dauud Xaji Çiqemqe
Barğança Narsanadan
Tüyül edi xanlanı
Bir-birine xol açkan" [130].

Bu şeir parçasından müəllifin təkcə adını yox, həm də Narsanlı (Narzanlı) olduğunu öyrənmiş oluruq. Mətn 1975-1976-cı illərdə X.Maldokunov tərəfindən Daud Hacının nəslindən olan söyləyici Cəbrayıl Karakızovdan yazıya alınıb. Mətn 245 bənddən, yəni 980 poetik misradan ibarətdir [129, s.28].

Dastanın məzmunu belədir ki, Kazan şəhərinin hakimi Əhməd xan ilə Buxara şəhərinin hakimi Temir xan uzun illər dostluq edirlər. Onlar hər ikisi övladsız idilər. Gözəl günlərin birində Əhməd xan Temir xana qonaq gəlir. Əhməd xan qonaqlıqda deyir ki, əgər Allah onun dualarını qəbul etsə və ona bir qız uşağı nəsib etsə adını Zöhrə qoyacaq. Temir xan da hamının qarşısında Əhməd xana söz verir ki, əgər Allah-tala ona bir oğul nəsib edərsə, oğlunun adını Tahir qoyacaq və onu böyüyəndə bu qızla evləndirəcək. İsti yay günlərinin birində Kazanda Əhməd xanın qızı, eyni vaxtda Buxara şəhərində Temir xanın oğlu dünyaya

gəlir. Bir müddət keçir, bir münəccim Temir xanın hüzuruna gəlib, onun oğlunu böyük fəlakət gözlədiyi barədə xəbərdar edir. Bundan bərk qəzəblənən xan, münəccimi zindana atdırır, ancaq o, müəmmalı şəkildə zindanda yoxa çıxır. Tahirin on üç yaşı tamam olanda anası xandan oğlunun gedib Kazanda təhsil alması üçün icazə alır. Xan Tahiri baş vəzirə tapşırıb Kazana göndərir. Orada Tahiri böyük təmtəraqla qarşılayırlar. Tahirlə Zöhrə sarayda ilk dəfə biri-birilərini görür və aşiq olurlar. İllər keçir, təhsilini başa vuran Tahir atasının yanına qayıtmalı olur. Tahir yenidən Kazana qayıtmaq istəyir, lakin bu dəfə atası icazə vermir və bildirir ki, artıq Əhməd xanla münasibətləri yaxşı deyil. O, oğluna Zöhrəni deyil, Türkmən elindən Şam Hunkarının qızını almağı təklif edir. Tahir buna qarşı çıxanda onu zindana saldırır, amma az sonra, anasının və yaxınlarının təkidi ilə Tahiri azad edir. O, oğluna Şam Hunkarının yanına gedib, qızla görüşməyi təklif edir. Tahir bu adla şəhəri tərk edir və Kazana yola düşür. Sevgililər yenidən görüşürlər. Bu zaman Tahir ona Buxarada olarkən gördüyü qorxunc yuxusunu danışır. Tahir yuxuda görür ki, onunla Zöhrə böyük bir şəhərdədirlər. Külək bu şəhərin darvazalarını açır və Zöhrə oradan çıxaraq çölə tərəf qaçır. Çöldə böyük bir dəryaya çatır və Tahirin adını çəkərək sulara qərq olur.

Buxara hakimi Temir xan məsələni öyrəndikdə oğlunu zorla qaytarmaq üçün Kazana qoşun çəkməyə hazırlaşır. Baş vəzir bu səfərə qarşı çıxır və bildirir ki, xan özü Zöhrəni Tahirə alacağına and içmişdi. Acıqlı xan onu da həbs etdirir. Temir xanın əsgərləri bir bayram günü Buxaraya girib Tahiri tutur və atasının yanına gətirirlər. Temir

xan bəyan edir ki, o Zöhrəni unutmalı, əvəzində Xunkarın qızını almalı və beləliklə, iki böyük ölkənin – Buxara və Şam Xunkarının torpaqlarının xanı olmalıdır. Tahir atasına nə qədər yalvarırsa da, onu fikrindən döndürə bilmir. Tahir fürsət tapıb dağlara qaçır və dərdindən ağlını itirir. Bu müddətdə Zöhrənin atası Əhməd xan da qızını Krımlı bahadır Qara Noqaya ərə vermək istəyir. Qəhrəmanlar bu dünyada olmasa da, o biri dünyada birlikdə olacaqları ümidilə özlərinə qəsd edirlər: Tahir qayadan atılır, Zöhrə isə Volqa çayının sularında qərq olur.

Bu variantın mühüm fərqli cəhəti verilən andın oğlanın, yəni Tahirin atası tərəfindən pozulmasındadır. Bundan başqa, hökmdarların adları da digər varintlardan fərqli şəkildədir. Baş vəzir müsbət obraz kimi çıxış edir. Buxara xanının öz vədindən dönməsinin səbəbi siyasi motivlərə bağlanılır. O, oğlunun evliliyindən siyasi məqsədlər üçün istifadə etmək niyyətində olur: uzaq Kazandansa, yaxın Türkmən eli ilə siyasi yaxınlığa can atır, oğlunu gələcəkdə bu iki ölkənin hökmdarı kimi görür.

Münəccim obrazının süjetdə peyda olması və söylədikləri öncəgörmələr dastanın arxaik strukturunun hansısa kosmik miflə bağlantısının qalığı ola bilər. Tahirin qayalıqlarda – yüksəkliklərdə, Zöhrənin isə dərinliklərdə, yəni çayda, dəryalarda "yox olması" da bu baxımdan maraqlıdır.

Çox təəssüflər olsun ki, Daud Hacı Nazranlının istifadə etdiyi daha əski qaynaqlar bizə məlum deyildir. Amma bu məsələnin mahiyyətini dəyişmir. Bu variant ümumqıpçaq versiyasına daxildir və deyə bilərik ki, balkar, tatar, qumuq, noqay variantları məhəlli mahiyyəti fərqlərə malikdir

olsalar da, süjet və obrazlar sistemi baxımından böyük fərq göstərmirlər.

"Tahir və Zöhrə" dastanının Şimalı Qafqaz xalqları içərisində Azərbaycan, Anadolu və türkmən variantlarına daha yaxın olanı qumuq variantıdır. Onu elm aləminə Abusupiyan Akayev adlı qumuq şairi tanıtmışdır, fəqət onu hansı qaynaqdan əldə etdiyini bildirməmişdir. Bu variant Anadolu variantına bənzərliiyi və Anadoluda rast gəlinən yer adlarını ehtiva etməsi ilə diqqət çəkir. Elə bu səbəbdən də bəzi mütəxəssislər həmin variantı Anadolu variantının qumuq dilinə tərcüməsi hesab edirlər [185], lakin iki variantın müqayisəsi nəticəsində gözə dəyən fərqli epizodlar bu fikri qəbul etməyə imkan vermir. Həqiqətən də, qumuq variantı qıpçaq versiyasının digər variantlarından fərqlənir və oğuz (türkmən, Azərbaycan və Anadolu) variantlarına yaxınlığı ilə seçilir. Amma bunu da təbii də saymaq olar. Qumuqlar ən əski zamanlardan Azərbaycan türklərinin qonşuluğunda yaşayıblar və Azərbaycan mədəniyyətindən çox təsirlənibiər. Bununla belə, qumuq variantına türkmən variantının təsirinin də olduğunu söyləyə bilərik.

Qumuq variantında Zöhrə "Böyük padşah"ın qızıdır. Tahir onun vəzirinin oğludur. Ataları sonsuz olur və hər şey ortaya bir dərvişin alma verməsi ilə dəyişir. Hadisələr padşahla vəzirinin bazarda gəzərkən bir dərvişlə rastlaşmaları ilə başlayır. Padşah "kim mənə min altun verərsə, Allah da onun muradını verər", - deyən dərvişə istədiyi pulu verir. Bundan sonra padşahla vəzir birlikdə şəhər kənarında olan çox böyük və gözəl bağçaya gəzməyə gedirlər. Padşahla vəzir bağçada gəzərkən bir ağacın altında ağ li-

baslı bir dərviş görürlər. Padşah dərvişdən: "Sən kimsən?", – deyə soruşur. Dərviş: "Mən falcıların ustadıyam, niyyətin nədirsə, bilirəm", – deyə cavab verir. Sonra da bunlardan birinin padşah, digərinin isə vəzir, niyyətlərinin də uşaq sahibi olmaq olduğunu söyləyir. Dərviş qoynundan bir alma çıxarır, dua edir və bıçaqla ikiyə ayırıb yarısını padşaha, digər yarısını da vəzirə verir. Doğulacaq uşaqlarına qız olarsa, Zöhrə, oğlan olarsa, Tahir adı qoymalarını, böyüyəndə onları bir-birləri ilə evləndirmə olduqlarını deyib qeyb olur. Doqquz ay on gün sonra padşahın qızı, vəzirin isə oğlu olur. Oğlana Tahir, qıza isə Zöhrə adı verirlər [227, s.198-200].

Bundan sonra hadisələr Anadolu və Azərbaycan variantlarına yaxın süjet əsasında davam edir. Qumuq variantı da nəzmlə nəsrin növbələşməsi şəklindədir.

Eyni halı qıpçaq versiyasının noqay variantında da görməkdəyik:

"*Bir xan qızı Zuhra ösip yetsə, vəzirninq ulı Tahirgə berəyək bolıp ant etkən.*

Eki sebiy bir orında yatıp, bir ayaktan as isip ösedilər.Balalar ösip yetkən də aşık boladır. Bir kərə süygənnən dayanalmay Tahir Zuhradınq kolın saladı. Sonda Zuhra yırlaydı.

Zuhra:

Yol mınnan yoldasımısınq,
Sır mınnan sırdasmısınq,
Kolınq mennən al, Tahir,
Sen münim kardaşımsınq" [177, s. 84].

"Tahir və Zöhrə" dastanın başqırd variantları isə sovet hakimiyyəti illərində – ilk dəfə 1960-cı ildə K.Mergen tərəfindən Rusiya Federasiyasının Orenburq vilayətinin

Kutuş kəndində R.L.Teləkəyevadan yazıya alınıb. Dastanın süjeti əksər variantlarda olduğu kimi qəhrəmanların ölümü ilə tamamlanır. Dastanın əvvəli məlum şəkildədir. Uşaqlar böyüdükdən sonra qızını artıq yetim qalmış Tahirə vermək istəməyən xan onu sandığa qoyub dəryaya atdırır. Böyük əzab-əziyyətlə vətəninə – Zöhrənin yanına dönən Tahir bu dəfə edam olunur. Buna dözməyən Zöhrə də intihar edir.

Dastanın başqırdlardan yazıya alınmış digər mətnləri ("Zantahir mənan Zənzöhörə", "Yantahir menan Yanzöhörə", "Tahir həm Zöhrə") də Orenburq vilayəti və Başqırdıstan Respublikasının ərazisində yaşayan başqırdlardan toplanıb. Bu mətnlər Rusiya Elmlər Akademiyasının Ufa Elmi Mərkəzinin Elmi arxivində və Başqırdıstan Dövlət Universitetinin Folklor fondunda saxlanılır. Biri istisna olmaqla digərləri nəsrlə nəzmin növbələşməsi şəklindədir. Dastanın şeir fraqmentləri başqırd folklorundakı xüsusi ifa tərzində – hamak-kuy üslubunda oxunur.

Başqırdların "Tahir və Zəhrə" dastanın bir çox variantları – Rəxilə Teləkəyeva, Zəkəriyyə Bulatov, Qafirullin Sabiryən, Mineyyamal Xacıyeva, Nəşixa İşbirzina və başqalarından toplanmış mətnlər kiçik həcmlidirlər. Onların əksəriyyəti "Başqırd folkloru" ("Başkort xalk ijadı") toplusunun 1980-ci ildə buraxılmış altıncı cildində çap edilmişdir [235, s.331-351].

Zəkəriyyə Bulatov variantında Zöhrə ilə Tahirin valideynləri xan və vəzir deyil, Ülməzxan və Ülərxan adlı xanlardır. Tahirın atası Ülərxan erkən rəhmətə gedir, ona görə də Ülməzxan qızı Zöhrəni Tahirə vermək istəmir. Zöhra

sürgün olunan Tahirin ayrılığına dözə bilməyib dəli olur. Tahir də qəm-qüssədən dünyasını dəyişir.

Sabiryən Qafirullin variantına görə Zöhrə padşah qızı, Tahir isə yetim və kasıb bir gəncdir. Onlar məktəbdə oxuduqları zaman biri-birilərinə aşiq olurlar. İki aşiqın qovuşmasına padşah mane olur. Tahir almaz qılıncla başını yarıb özünü öldürür. Bunu görən Zöhrə ağır xəstələnir. Həkimlər deyir ki, əgər ona Tahirin ətindən yemək hazırlayıb versələr sağalacaq. Lakin Zöhrə bundan imtina edir və ölür. Onları bir yerdə dəfn edirlər.

Xənifə Usmanova variantında qəhrəmanların valideynləri və möcüzəli doğulmaları haqqında danışılmır. Dastan sadəcə Tahir və Zöhrənin beşikkərtmə adaxlı olduqları barədə məlumatla başlayır. Burada Qara Qul şeytanın vəsvəsəsinə uyub Zöhrəni ələ keçirmək istəyir. Didərgin düşən Tahirlə Zöhrə qovuşa bilmirlər.

Mineyyamal Xacıyeva variantında aşiqlə məşuqu Ərəb öz sehri və fitnəsi ilə biri-birindən ayırır. Padşah Tahirin üstünə qoşun göndərir. Tahir öldürülür, Zöhrə də bu xəbəri eşidib intihar edir. M.Xaçıyevadan yazıya alınmış variant obrazlar baxımından, eləcə də süjetin bəzi nüansları (məsələn, Ərəbin cadu etməsi və s.) seçilir və müəyyən qədər Türkiyə versiyası ilə səsləşir. Ehtimal edə bilərik ki, söyləyici dastanın Türkiyə nəşrləri ilə tanış imiş və öz rəvayətini Anadolu variantlarından təsirlənərək yaratmışdır.

Nəşixa İşbirzina variantı ("Zantahir menən Zənzöhörə") tamamilə nəsrlədir. Qara Quldan qaçan qəhrəmanlar sonda özlərinə qəsd edirlər. Bu mətni başqırd folklorçuları

hazırladıqları kitaba "dastan" kimi daxil etsələr də, onu janr etibarilə əfsanə hesab etmək daha doğru olardı.

"Tahir və Zöhrə" məhəbbət dastanının qıpçaq versiyası ilə bağlı [142, s.62-65] qeyd etdiyimiz kimi, dastanın qıpçaq mənşəli xalqlara məxsus variantları, tatar və qazax versiyalarını istisna olmaqla, digər versiya və variantlara nisbətən tədqiqatlara daha az cəlb ediliblər. Halbuki, onların yazıya alınma tarixləri kifayət qədər qədimdir. Bunlar daha arxaik semantikaya malik obrazların yer alması, eləcə də mətnlərin bir qisminin kiçik həcmli olması ilə seçilirlər. Şimali Qafqaz mətnləri (balkar, noqay, qumuq) həm də Anadolu-Azərbaycan versiyasına yaxındır. Lakin bu mətnlərin böyük bir qismi yazılı dastan şəklindədir və onları qələmə alanlar məlumatlı olduqları Anadolu versiyasının müəyən elementlərini buraya əlavə etmişlər.

Beləliklə, "Tahir və Zöhrə" dastanının məlum mətnlərini yayılma arealı, eləcə də janr, mətn, süjet, motivlər və obrazlar sistemi nəzərə alınmaqla şərti olaraq iki böyük qrupda birləşdirmək olar: Orta Asiya-Volqaboyu-Sibir və Anadolu-Azərbaycan.

Birinci qrupa türkmən, özbək, uyğur və qıpçaq (qazax-qırğız, tatar, başqırd, balkar, noqay, qumuq) versiyaları və bu versiyalara daxil olan variantlar daxildir.

İkinci qrupa Azərbaycan və Anadolu versiyaları və bu versiyalara daxil olan variantları aid etmək olar.

Bununla belə, qeyd etməliyik ki, Şimali Qafqazın türk xalqlarında yazılı ədəbiyyata gətirilən dastan süjeti kifayət qədər Anadolu versiyasına xas elementlərə də sahibdir.

Beləliklə, biz dastanın formalaşması, yayıldığı coğrafi ərazi, variant və versiyalarını ümumi şəkildə nəzərdən keçirib, belə qənaətə gələ bilərik ki, "Tahir və Zöhrə" dastanı daha qədim bir türk əfsanəsindən qaynaq almışdır. Bu əfsanə və ya mif eynilə "Kozı Köpreş və Bayan Sulu", "Əsli və Kərəm" dastanlarının da əsasında durur. Dastanın süjet xətti qəhrəmanların ölümü ilə bitmiş, lakin sonralar ustad aşıqlar, Molla Nəpəs kimi böyük ozanlar onun xoşbəxt sonluqla bitən variantlarını yaratmışlar. Molla Nəpəsin qeydə aldığı mətn Orta Asiyada, xüsusən, özbəklər və türkmənlər arasında daha populyar olmuş və demək olar ki, bütün məşhur baxşılar onu əzbər bilmişlər. Vaxtilə Osmanlı imperiyası ilə mədəni təmasda olan Qafqaz və Şimal və Şimal-Qərbi Qara dəniz hövzəsi qıpçaq mənşəli türk xalqlarına aid mətnlərdə dastanın tatar versiyasına məxsus elementlərlə yanaşı, Anadolu versiyasına xas elementlər də rastımıza çıxmaqdadır.

"Tahir və Zöhrə" dastanın vaxtilə qeydə alınmış birçox mətnləri hələ də çap olunmamış və ya müəyyən səbəblərdən itirilmişdir. Bundan əlavə, dastana vaxtilə türk xalqları ilə mədəni təmasda olan digər xalqlarda da (taciklər, ermənilər, kosovarlar və s.) rast gəlinir. Lakin bu variantların bir çoxu ya tərcümə-təbdil mətnləri olmuş, ya da qısa həcmli rəvayət şəklini almışdır.



III FƏSİL

"TAHİR VƏ ZÖHRƏ" DASTANI ŞEİRLƏRİNİN BƏDİİ-POETİK XÜSUSİYYƏTLƏRİ

İfadəli nitq və söyləm mədəniyyətinə sahib olan ulu babalarımızın bədii təfəkkürü və onun gözəl, anlaşıqlı və ifadəli şəkildə ötürülməsi vərdişləri türk boylarının heç də hamısında eyni inkişaf səviyyəsinə malik olmamışdır. İşarələr sistemindən ibarət olan dil bitkin fikir və onun ifadəçisi olan cümlə vasitəsilə ünsiyyət vasitəsinə çevrilə bilir. Sintaksis üçün mütləq olan sistemli münasibətlər sintaktik modellər, fiqurlar, cümlə konstruksiyaları yaradır ki, bu da bədii dilin əsasını təşkil edən fakt kimi ortaya çıxır. Yazılı ədəbiyyatla müqayisədə şifahi söz yaradıcılığında bu və ya digər ədəbi növün biçimlənərək ortaya çıxmasını isə fərqli sıra düzümü, poetik xüsusiyyətlər və fiqurlar formalaşdırır.

Qədim və orta əsrlər söz sənətimizin fərqli törəmə şəkilləri lirik üslub və poetik fiqurlar baxımından ənənəvi sxem və modellər üzrə təkamül edərək, dramatik və epik üslublardan fərqli məcrada davam edib. Bu inkişaf prosesinin ilkin mərhələlərində atalar sözü, məsəllər, tapmacalar, sınamalar, yanıltmaclar və s. kimi kiçik janrlar, sonra lirik və epik üslublar və onlara müvafiq fiqurlar ortaya çıxmış-

dır. *"Üslublar ədəbi növə çevrildikcə yaradıcılıq üslublarında korreksiyalar edilmiş, ədəbi nümunələr sabit növ yaradıcılığı tələblərinə tabe olmağa başlamışdır"* [91, s. 208].

Ədəbi növə çevrilmə zamanı informativ aktuallaşma ilə əlaqədar olaraq, konstruksiyalarda struktur-qəlibin standart normalardan kənaraçıxma halları üslubi fiqurların yaranmasını şərtləndirib. Azad Nəbiyev haqlı olaraq yazırdı ki, bir çox folklor nümunələrdə poetik qəliblər şərtidir, onlar ya tam formamlaşmamış, ya da formalaşmanın başlanğıc mərhələsindədir. Məsələn, "b*u cəhət mərasim nəğmələrində daha çox nəzərə çarpır. Mərasim nəğmələrində ölçü, qafiyə, ritm, ahəng, alletrasiya pərakəndəliyi, fərd, yaxud ifaçı sərbəstliyi mövcuddur. Söz və səs komplekslərinin üstünlüyü, bir və ya iki fikrin ifadəsi, onlar üçün səciyyəvi xüsusiyyətdir. Az fikir ifadə eləmək, paremik vahidin bir, yaxud tək-tək hallarda iki fikri əhatə etməsi müşahidə olunur. Eyni fikir qəlibinin həm lirik, həm də epik üslubda ifadə formaları mövcuddur"* [91, s. 208-209].

Şifahi xalq ədəbiyyatının təkmil variantlarından olan ozan-aşıq sənətinin yeni forma və məzmunda tarix səhnəsinə çıxışı ilə epik və lirik ifanın yeni struktur özəllikləri ortaya çıxmışdır. Bu da onun yeni tərkiblər şəklində qəlibləşməsində önəmli rol oynamış, yeni və zəngin aşıq repertuarı yaranmış, bu da öz növbəsində yeni bədii-poetik xüsusiyyətlərin, şeir forma və şəkillərinin, eləcə də poetik fiqurların vücuda gəlməsinə təkan vermişdir. Balkanlardan Sibirədək əksər türk xalqlarının şifahi ədəbiyyatında yer alan "Tahir və Zöhrə" dastanı məhz belə bir mərhələdə türk xalqlarının şeir yaradıcılığının ümumi, xarakterik cizgiləri-

ni izləməyə, türklərin şeir yaratma texnologiyası haqqında ətraflı təsəvvür yaratmağa imkan verir.

3.1. "Tahir və Zöhrə" dastanında poetik fiqurlar

Qeyd etmək lazımdır ki, zaman-zaman dastanlarımızın bədii-poetik xüsusiyyətlərinə, o cümlədən onlarda rast gəlinən poetik fiqurlar məsələsinə bir sıra Azərbaycan alimlərinin tədqiqatlarında geniş toxunulmuşdur. Bu baxımdan M.Adilov, T.Əfəndiyeva, K.Abdullayev, K.Əliyev, K.Vəliyev, R.Qafarlı, A.Bəylərova kimi alimlərin məqalə və monoqrafiyalarını misal çəkmək olar. Bu sırada fiqurların tam halda şərhini verən A.Bəylərovanın "Bədii dildə üslubi fiqurlar" adlı monoqrafiyasını xüsusi qeyd etmək lazımdır [33]. Onun sözügedən monoqrafiyası ona qədər sistemli şəkildə tədqiqata cəlb olunmayan sintaktik-üslubi fiqurlara həsr olunmuşdur. Lakin bu monoqrafiyada fiqurlar (ellipsis, ritorik sual, təcəssüm, antiteza, təkrir və onun növləri, sintaktik paralelizm, bədii xitab) sırf bədii əsərlərdən seçilmiş konkret nümunələr əsasında araşdırılmışdır. M.Hüseynovun "Aşıq Ələsgərin söz ümmanı" adlı monoqrafiyasının "Alliterativ fiqurların səslənmə effektivliyi" adlı bölümündə aşıq şeirində, əsasən də Aşıq Ələsgərin poeziyasında rastlanan poetik fiqurlardan geniş söz açılmaqdadır [60, s. 42-64].

Poetik fiqurlara həsr edilmiş məqalə və monoqrafiyaların çoxluğuna baxmayaraq, indiyədək dastanların dilində, xüsusən də "Tahir və Zöhrə" dastanının poetik dilində rastlanan poetik fiqurlardan xüsusi olaraq bəhs edilməmişdir. Halbuki, bədii əsərlərin dilində olduğu kimi, dastanla-

rın dilində də istifadə olunan üslubi vasitələr arasında sintaktik fiqurların önəmli yeri var. Bu fiqurlar, başqa sözlə, obraz və şəkillər nitqə xüsusi bəzək verməkdədir. Nitqi fərdiləşdirən, ona yüksək emosional çalarlar verən, ifadəli məna qazandıran sintaktik fiqur cümlə konstruksiyalarında üslubi hadisədir. Fiqura çevrilən konstruksiyalar – ellipsis, ritorik sual, təcəssüm və antiteza dastanların dilində, o cümlədən "Tahir və Zöhrə"nin dilində sıx-sıx rast gəlinən hadisələrdir.

"Tahir və Zöhrə"nin dastanında fiqurlar digər məhəbbət dastanlarımızda olduğu kimi, əsasən, personajların hissi aləmini, duyğularının və düşdükləri halların bədii ifadə formasıdır. Bu halda poetik fiqurlar sözlərin anlamını qətiyyən dəyişmir, sadəcə onların sintaksis quruluşuna təsir edir və bilavasitə personajların hiss və duyğularını ortya qoyur. Bununla bağlı olaraq da fiqurların təkrir, anafora, epifora, parçalanma, inversiya, xitab, ritorik nida və ya sual kimi əsas növləri ortaya çıxmış olur. Bəzi tədqiqatçılar anakoluf və antitezanı da bu sıraya aid edirlər. Məsələn, M.Rəfili bu mövzuya toxunaraq bildirir *ki, "dilin ifadə və qüvvətini artırmaq üçün işlədilən intonasion-sintaktik şəkillər, yəni fiqurlar anakoluf, inversiya və paralelizmi, eləcə də, paralelizmin növləri kimi təkrir, anafora və epifora, nida, sual və təzadı əhatə edir"* [95, s.174-177].

Aşıq şeiri, o cümlədən "Tahir və Zöhrə" dastanına daxil olan poetik nümunələr alliterativ və assonans fiqurların poetik silsiləsinin effektliliyi ilə fərqlənir. Dastandakı şeirlərin dil zənginliyi, şifahi xalq ədəbiyyatının özünəməxsus forma komponentlərindən qidalanma onun hər bir misra-

sında açıq-aydın şəkildə sezilməkdədir. Kəlmələrin sıralanmasında, fikrin təkmil ifadə edilməsində hiss edilən lirik səliqə-sahman poetik nümunələrin məğzinin yüksək bədii çalarla açılmasını təmin edir. "Tahir və Zöhrə" dastanının şeirləri belə bir qənaətə gəlməyə əsas verir ki, burada fikir və duyğularının aydın və təsirli ifadəsi dil materialından yüksək səviyyədə istifadə edilmə bacarığından və ustalığından qaynaqlanır. Dastan obrazlarının fikri və hissləri bədii nitqində gerçəkləşir, öz əksini obrazların hazırcavablığında tapır. Bu hal dastanın, demək olar ki, bütün variantlarında təkrarlanır. Bu estetik keyfiyyətlər şeirlərin fonetikasının təhlilində bariz şəkildə üzə cıxır. Bir sözlə, emfaza, başqa sözlə desək, səs, söz və ifadələrin təkrarı, sözlərin sıralanması mətnlərin emosional yükünü nəzərəçarpacaq dərəcədə artırır. Alliterativ və assonas fiqurların poetik silsiləsinin effektliyi bu və ya digər səs ünsürünü fərqləndirib nəzərə catdırmaq hesabına daha da şiddətlənir. Bu, türk dastan üslubu üçün cox doğmadır. Hələ VII-VIII əsrə aid qədim türk yazılı abidələrində konsonansların biri-birini əvəzləməsi ilə alleterasiya yaradıldığının şahidi oluruq. Məsələn Bilgə xaqan abidəsində buna sıx-sıx rastlaşırıq:

"*Körür közüm körməz tək,*
Bilir biligim bilməz təg boltı" [94, s.286].
"Tün udımatı,
Küntüz olurmatı,
Kızıl kanım tökti,
Kara tərim yügürtü…" [94, s.358].

"Tahir və Zöhrə" dastanında poetik assonanslığın əsasında funksional bədii ifadəlilik durur. Konkret misallara diqqət yetirək:

Ə – *"Fürsət əldə ikən yaxşılıq elə", "Hər məclisdə sən hərayi söyləmə".*

Ə, İ – *Gəlin sizə mən ərzimi eyləyim" , "Çiçək nədi, yemiş nədi, bar nədi?".*

A – *"Aqil olan, bu dünyada var nədi?", "Ana, mən qanlar ağlaram"* [19, s. 125-126, 131].

Anadolu variantından bir nümunə: *"Aman ana, canım ana"* [191, s. 18] və s.

Bənzər hala dastanın 1872-ci ildə V.Radlov tərəfindən Peterburqda dərc edilmiş tatar variantının aşağıdakı misrasında da rast gəlməkdəyik: *"Kayt balam, kayt balam*!" [151, s. 277].

Əski türk poetik yaradıcılığı üçün xarakterik alliterativ və eləcə də assonans səs ahəngi, məsələn, "Tahir və Zöhrə dastanı"nın başqırd variantlarında təkcə şeirlərdə deyil nəsr hissədə də özünü göstərir:

Alliterativ və eləcə də assonans səs ahəngi "Tahir və Zöhrə" dastanının poetik sistemində estetik təcəssümlə harmoniya təşkil edir. Səslər poetik məziyyət kəsb edir, bu zaman səs təkrarları fikrin çatdırılmasında və yadda qalmasında önəmli rol oynayır. Məsələn, Azərbaycan aşıq şeirində assonansın ritmik-melodik çalarlarından bəhs edən professor Mahirə Hüseynova yazır ki, *"A" foneminin assonansı sözlərin əlaqələnmə nizamına, ahəngdar qruplaşma prosesinə, misraların optimal ölçülər şəklindəki fikir bitkinliyinə geniş imkanlar açır. Bu da oxucu beynini silkələyir, təkrarlanan dil va-*

hidləri ifadə etdiyi anlayışların zehnə həkk olunmasını qüvvətləndirir" [61,s. 10].

Səslərin işlənmə tezliyi kəmiyyətdən keyfiyyətə keçid yaradaraq, poetik konstruksiyanı müəyyən bir qayda əsasında nizamlayır və bu nizamlanma bədii qayənin tələblərinə uyğun bir şəkildə gerçəkləşir. Məna vüsəti ilə arxitektonik qəliblər əsasında tənzimlənərək nizamlanan səs təkrarlamaları obrazların emosional vəziyyətini əks etdirir. Dastanın dilindəki səs aktuallığı təkmil konstruktiv sxemlərin ortaya çıxmasına şərait yaradır. Bu zaman "fonetik səviyyədə repriz evfemiya, gözəl səslənmə məziyyətinin, həmcinin bədii ünsiyyət prosesinin təməlində dayanır. Fonoloji ifadə vasitələri sadəcə səs obrazları yaratma vasitəsi olmayıb poetik zəriflik örnəyi funksiyasında üslubu siqlət kəsb edir" [60, s. 45]. Səs ahəngi dastanın Qıpçaq variantlarında xüsusi yerə sahibdir və belə düşünmək olar ki, o, türk xalqlarında ilkin şeir yaradıcılığının əsas faktoru olub:

A - *"Aladan ese iqi Jaöırma, dep bazınbay.*
Ana tilim süyüp,
Anqa misel xazırlay... [224].

B - *"Bek aytılğan Buxarada,*
Baylığı çeksiz bolğan...[224].

J – *"Jenqil barğan suuları,*
Jalaulada ökürgən
Jauxar müyüz buuları" [224].

Dastandakı poeziya nümunələri musiqili səs calarları yaradaraq sistem təşkil edir. Eyni məxrəcli səslərin təsiri ilə bir çox halda misraların fonopoetik sistemi formalaşır və bu hal özünü olduqca qabarıq şəkildə göstərir. Beytlərə ina-

nılmaz bir təravət verir, nəticədə ifadələrin cazibəsi ovqatın ifadəçisinə cevrilir:

"Tayım, tuşum yığılıbdı yanıma,
Taqsırım yox, beygünaham, xan əmi!"[19, s.135].

Burada bir məsələyə xüsusi diqqət yetirməyimiz lazımdır. Dastanın, yuxarıda gətirdiyimiz misallardan da göründüyü kimi, müxtəlif variantlarında bir sıra misralarının eyni hərflə başladığının şahidi oluruq. Qeyd etmək lazımdır ki, türk şeir ənənəsində bu hal əski dövrlərdə mövcud olmuşdur. Akademik Nizami Cəfərov bunu "ön uyumluluq" və ya "ön qafiyələnmə" adlandırmışdır. O, buna bariz nümunə kimi Türk buddist ədəbiyyatından aşağıdakı şeiri örnək gətirmişdir:

"Sarvaartasıdı tiqin ad önqdünlüq
Səkiz on yaş yaşamışın körkitmiş erür.
Sartavahı yolçu yirçi aşiça yimə
Sanı yüz minq koldınayut yıl, ay yaşayur"
və s. [37, s. 211].

Akademikin gətirdiyi bu misallarda şeirlərin ön uyumlu olduğunu, sonlarının isə qafiyələnmədiyini görürük. Lakin onun təqdim etdiyi nümunələr içərisində həm ön uyumlu, həm də son uyumlu, yəni həm öndən, həm də sondan qafiyələnən nümunələr də var:

"Önq başlap, adkanğularka biliqlər kaçar,
Öküş kara, ayığ yolluğ uruğuğ saçar.
Öqlüq kişi istimtutçı yaşmaksız baçar,
Öşəliksiz yiq nirvanınğ kapığın açar" [37, s. 187].

"Tahir və Zöhrə" dastanının müxtəlif versiya və variantlarında müşahidə etdiyimiz və yuxarıda nümunə gətirdiyimiz ön uyumlu parçalar həm də son uyumludur:

Məsələn: üy-, -in /-ın:

"Üyşelgeden süyşmäliñ.
Üyüşip aglamalıñ [220].

Bundan başqa, ön uyumlu misraların öz aralarında sonda qafiyələnmədiyini, fəqət onlardan birinin digər misralarla qafiyələndiyini görürük:

Kan oldu gözümün yaşı,
Bu işlər fələgin işi,
Sabrıyla gönül, sabrıyla,
Sabırdır her şeyin başı" [189, s. 43].

Və ya:

"Bülbülüm yox dallar üstə,
Boş qalıb güllərim mənim" [19, s. 139].

Dastanın Bolqarıstan variantında:

"*Bu sevgi nədir, Allah,*
Sən bənə bildir, Allah,
Ya ona da ver bunu,
Ya bəni öldür, Allah" [189, s. 9].

Eyni halla dastanın İran aşıqlarının dilindən toplanmış variantında da rastlaşmaqdayıq:

"Yandı keçdi Tahir Mirzə çırağı,
Dağıldı çöllərə məktəb usagı"

[İran aşıqlarının dastanları].

Bolqarıstan variantında:

-ça (-ca): "*Sən şu dalada bir qoçna,*

Bən dal dibində yonca,
Nə qədər yeltənsəm də,
Yetişməm boyunca" [189, s. 15].

V.İ.Yeremina yazır ki, bəddi düşüncənin müəyyən mərhələsini əks etdirən poetik qəliblər təkcə xalq lirikasının xüsusiyyəti deyildir və buna görə də onların yaylama və qorunma dərəcəsi, eləcə də təzahür şəkillərinin öyrənilməsində digər folklor janrlarındakı yaxın və analoji təzahürlər də diqqətə alına bilər [125, s.3]. Qeyd etmək lazımdır ki, orta əsrlərdə, xüsusən də XVI əsrdə, Səfəvilərin Azərbaycanın siyasət səhnəsinə gəlişi ilə ozan-aşıq şeiri özünün bir yeniləşmə və yüksəlmə dövrünə daxil olaraq təkmil bədii üslub və forma zənginliyi qazanmış oldu ki, bu da özünü dastanlarımızda ən yüksək səviyyədə göstərməkdədir. Məhz həmin dövrdə "*yeni milli reperetuar yarandı, peşəkar ifaçılıq forma etibarı ilə olduğu kimi, məzmunca da zənginləşdi. Oğuz qəhrəmanlarının cəngavərlik həyatını tərənnüm edən yeni dastanlar, oğuznamələr yarandı. Onların ozan repertuarındakı epik üslubla poetik üslub çarpazlaşdı... Nitqin təkamülü, onun üslublararası yaksəliş, qarşılıqlı və müştərək əlaqəsi ozan dilində ahəng, ritmi və alleterasiyasının poetik qəliblərə söykənən formalarının yaratmağa başladı"* [91, s. 567].

Ozan repertuarına qədər türk xalqları içərisində yeddi hecaya qədərki şerimizin müxtəlif ölçü qəliblərinin yarandığını diqqətə çatdıran A.Nəbiyev haqlı olaraq qeyd edir ki, bir sıra hallarda ahəng, ritm, alletrasiya əsasında az hecalı şerimizin stabil şəkilləri şifahi nitqdə mövcud olub. Alim fikrini əsaslandırmaq üçün folklordakı 2, 3, 4, 5 və 6 hecalı poetik nümunələri misal gətirib [91, s. 568]. Maraqlı-

dır ki, alleterasiya hadisəsi bütün bu nümunələrdə müşahidə edilir və bu da sübut edir ki, bu hadisənin tarixi yeddi hecalı şeir formasının ortaya çıxmasından öncəki minilliklərin yadigarıdır. Eyni sözləri poetik fiqur yaradan ellipsis, təkrir və paralelizm hadisələri barədə də söyləyə bilərik. Məlum olduğu kimi, ozan-aşıq şeirində, eləcə də "Tahir və Zöhrə" dastanının poetikasında tez-tez rast gəlinən sintaktik fiqurlardan bir də ellips və ellipsis əsasında yaranan fiqurlardır. Cümlə konstruksiyalarında baş verən üslubi hadisələr arasında özünəməxsus yeri olan elipsis cümlənin çətinlik çəkilmədən bərpa olunan üzvlərindən birinin buraxılması əsasında formalaşır. Nitq onun yardımı ilə dinamik və lakonik xarakter əldə etmiş olur. "*Ellipsisin yaranma səbəbi bütün dillərdə ümumi xarakter daşıyır. Lakin hər bir dilin öz strukturuna müvafiq xüsusi elliptikləşdirmə üsulları vardır. Azərbaycan dilində mövcud olan sintaktik konstruksiyaların - söz birləşmələri və cümlələrin struktur-semantikasında ellipsis hadisəsi mühüm rol oynayır. Ellipsis bu və ya digər formada həm təyini söz birləşmələrinin, həm də cümlələrin müxtəlif növləri üzrə müşahidə edilir*" [33, s.14].

Elliptik forma və ya fiqurlara yeddi hecalı şeirdən öncəki şeir formalarında da sıx-sıx rast gəlinməkdədir.

Məsələn;

Qız yükü
Duz yükü [91, s. 568].

Əslində burada ikinci misradakı "yükü" xəbər mahiyyətindədir, fəqət xəbər şəkilçisiz işlənmişdir, sözün kökü isim olduğundan bu poetik mətni "xəbəri buraxılıb müstəqil işlənən yarımçıq cümlələr" kateqoriyasına aid etməyə

imkan verir. Bənzər hala "Tahir və Zöhrə" dastanının poetikasında da rastlaşırıq:

"Biz yetimik, siz atalı, analı,
Gözləri surməli, əli xınalı.
Qolları bazubənd, başı cunalı,
Tanrı məni sizə qurban eyləsin " [22, s. 117].

Yuxarıdakı beyti iki cümlədən ibarət mürəkkəb cümlə kimi nəzərdən keçirsək, birinci cümlənin "yetimik" xəbəri ilə tamamlandığını, görürük. Birinci misranın ortasından başlanan hissə 2 və 3 misralarla birlikdə elliptik fiqur kimi çıxış edir.

Aşağıdakı beytdə isə fərqli konstruksiyanın şahidi oluruq. Burada 1, 2 və 3- cü misralarında "yoxdur", "hilaldır", "bənzər" kimi xəbərlərlə üzləşdiyimiz halda, ayrıca cümlə olan 4-cü misra ilk üç misradan fərqli olaraq, xəbərin olmaması ilə müstəqil elliptik fiqur yaradır:

"Gözlərində qusur yoxdur,
Bir hilaldır qaşın, Zöhrə.
Dodağın yaquta bənzər,
İnci-sədəf dişin, Zöhrə" [22, s. 118].

Əgər yuxarıdakı beytdə 4-cü misra ilk üç misradan fərqli olaraq, müstəqil elliptik fiqur yaradırsa, aşağıdakı beytdə bu funksiyanı 2-ci misranın ifa etdiyi müşahidə edilir:

"Gəl duraq qabağ-qabağa,
Boyum boyuna sadağa.
Sandıq cıxdı bizim bağa,
Onda bildim işin, Zöhrə" [22, s. 118].

Yuxarıda gətirilən misalların müqayisəsi göstərir ki, istənilən beytin istənilən misrası müstəqil şəkildə və ya bir

neçə misra birlikdə elliptik fiqur yarada bilir. Məsələn, aşağıdakı beytdə elliptik fiqur birinci misranın hesabına yaranmış olur:

"Sən mənim sultanım, sən mənim xanım,
Sənə qurban olsun bu şirin canım.
Adım Əsmayildir, Hinddir məkanım,
Oyan, oğlan, sənlə söhbət eyləyim [22, s. 119].

Dastanın Sarıkışla variantında daha maraqlı mənzərə ilə qaşılaşırıq:

"Ata hareket, kamçıya bereket, yola revan oluyor.
Ata hareket, kamçıya bereket, deh babam…".

Və ya:

"Bakıyor ki, Cadı Karı orada oturuyor.
Bakıyor ki, denizin kenarında bir sandık.
Bakıyorlar ki, kapının ağzında testi verdikleri gibi duruyor…"[191, s. 3-4].

Dastanda hər iki cümləsində xəbərin işləndiyi mürəkkəb cümlələrə də rast gəlinir ki, bu halda belə bir təəssürat yarana bilər ki, elliptik fiqurun yaranmasından söhbət belə gedə bilməz. Amma aşağıdakı misalda, ikinci misrada elliptik fiqur, başqa sözlə yarımçıqlıq mübtədanın olmaması hesabına yaranır:

"Zöhrəyəm canlar alaram,
Bulanıq sel tək çağlaram" [10, s. 441].

Başqa bir misala nəzər yetirək:

"Gəlmisiz, ağır oturun,
Paşaya xəbər yetirin,
Ölürəm Tahirdən ötrün,
Cəbr elədi atam mənə!" [10, s. 442].

Bu nümunədə yalnız dördüncü misrada həm mübtədanın şahidi oluruq, əvvəlki misralarda isə mübtəda işlənməyib və elliptik fiqur bunun hesabına ortaya çıxır.

Ellipsisə məruz qalan cümlə üzvlərindən söz açan A.Peşkovski bu sıraya mübtəda, xəbər, köməkçi fel, predikativ üzv və məsdəri də daxil edir [149, s. 399- 402]. Bəzi tədqiqatçılar isə həmin mövqedə xəbər, mübtəda və məsdərin adını qeyd edirlər [120, s. 91-121]. Yəni dolayısı ilə elliptik fiqurun yaranmasında mübtədanın da rolu qeyd olunur. Lakin bununla hesablaşmayan A.Bəylərova bildirir ki, *"əsl elliptik cümlələr yalnız xəbəri ellipsisə uğrayan cümlələrdir"* [33, s. 19] .

Biz bu fikirlə razı deyilik ki, elliptik fiqurun əmələ gəlməsində həm mübtədasız, həm də xəbərsiz cümlələr eyni dərəcədə mühüm rol oynayır. Lakin, bədii fiqur kimi mübtədasiz cümlələr adətən kontekstual cümlələr kimi xarakterizə olunur.

Mübtədasız cümlələr hesabına yaranan poetik fiqurlar "Tahir və Zöhrə" dastanının dilində də yer alır:

"Ay ağalar, gəlin sizə söyləyim,
Gör necə yad oldu ellər mənimlə.
Beli də veribsən mənim dəstimə,
Xub oynar dəstimdə bellər mənimlə".

Bu beytdə 1 və 3 misralardakı mübtədasız cümlələr kontekstual cümlələr kimi çıxış edir.

Poetik fiqurlar yaradan faktorlardan biri də ritorik sualdır. *"Ritorik sual cümlələri quruluşca sual şəklində olmalarına baxmayaraq, məzmunca sual ifadə etməyən cümlələrdir və bu baxımdan onlar həqiqi sual cümlələrindən fərqlənir. Sual cümlələri-*

nin bu növündə cavab tələb olunmur, bu cavab sualın özündə implisit tərzdə düşünülür" [33, s.29]. S.Abdullayevanın təbirincə desək, "*Ritorik sual müqabil tərəfdən cavab almaq məqsədi ilə işlənmədiyinə və müəyyən informasiya gətirdiyinə görə fikrin bitməkliyi, tamlığı baxımından ona heç bir cavab vermək ehtiyacı da qalmır"* [10, s.84].

Xüsusi poetik fiqur yaradan ritotik suallara dastanlarımızda gen-bol rast gəlinir və bu baxımdan "Tahir və Zöhrə" dastanı da istisna təşkil etmir. Dastanın elə bir "Ustadnamə"sində bu halla düz 5 dəfə, daha dəqiq desək, birinci və üçüncü beytlərdə 2, ikinci beytdə isə 1 dəfə rastlaşırıq:

"Gəlin sizə mın ırazimi eyləyim,
Aqil olan, bu dünyada var nədi?
Dünya bir bostandı, pozular gedər.
Çiçək nədi, yemiş nədi, bar nədi?

Bu dünyada çox-çox şirin mal olur,
Tamahkarın halı müşkül hal olur,
Qol burulur, qulaq batır, lal olur,
Qohum nədi, qardaş nədi, yar nədi?

Dəllək Murad, bu yollarda sürünnəm,
İmdi gedişimdi, nə vaxt görünəm?
Altım torpaq, üstüm daş, hörünnəm,
İsti nədi, soyuq nədi, qar nədi?" [19, s. 128].

Bənzər halla dastanın böyük balkar şairi Kazımın dilindən yazıya köçürülmüş variantında da üzləşmək mümkündür:

"Xan qızına köz salıp,
Qaram ağan kim bolur?
Anı mülkün, qalasın
Maramağan kim bolur?" [257, s. 35].

Fərqli-fərqli araşdırmaçıların əsərlərində ritorik sual bəzən "bədii sual" [10, s. 84], bəzənsə "poetik sual" [109, s. 168] kimi də təqdim edilir. S.Abdullayeva sözügedən sintaksis konstruksiyaları "nəqli cümlə yerində işlənən, ekspressiv təsdiqlik və ekspressiv inkarlıq ifadə edən ritorik sual cümlələri" [10, s. 4] adlandırmışdır. A.Bəylərova da haqlı olaraq qeyd edir ki, təsdiq və ya inkarda deyilməli fikir ritorik sual cümlələri vasitəsilə daha təsirli və qəti şəkildə ifadə olunur. *"Bu nitq formasının ifadə gücü, emosional təsir qüvvəsi də məhz bundadır"* [33, s. 30]. Bunu "Tahir və Zöhrə" dastanındakı ritorik suallar əsasında yaranan fiqurlar da təsdiq etməkdədir:

"Başına döndüyüm Xanların xanı,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi?
Haqq götürsün ortalıqdan yamanı,
Nədən hamı gəldi, Zöhrəm gəlmədi? [19, s. 129].

Və ya:

"*Nədən hər yerin əlvandı,*
Köksün altı sarı bülbül?" [19, s. 143].

Dastanın digər variant və versiyalarında da analoji halları müşahidə edə bilirik:

"Künnü kökden ayırıp,
Jerqe atxan kim bolur?" [225, s. 35].

Təcəssüm üslubi fiquru da dastanda gen-bol rastlanılan fiqurlardandır:

"Aşıqlar oduna yandı..."

Və ya:

"Göz yaşın gülə tökərsən" [19, s. 143].

"Tahir və Zöhrə" dastanı şeirlərində təcəssüm və ritorik sual fiqurlarının çuğlaşmasını da görməkdəyik:

"Fələk, səndə nə adətdi,
Ayırmaq yarı yarından?" [19, s. 145].

Sarıkışla variantında:

"Eti sana, kemikleri bize olacak?...".
"Ateşle barut bir arada durmaz…".
"Bize çektirirsin ayrılık yas?…" [191, s. 3, 5, 15].

"Tahir və Zöhrə" dastanında da fikrin qüvvətləndirilməsinə xidmət edən üslubi hadisələrdən biri də antitezadır. A.Abdullayevin sözlərinə görə, antiteza bədii üslublarda tez-tez müraciət olunan fiqurdur [7, s.100-101].

Sadəcə söz və ya ifadə antonimliyi deyil, xalis fikir təzad sayılan antitezaya dastanda tez-tez rastlaşırıq:

"Gedə bilməm, bir iqrara bağlıyam,
Çar tərəfdən dügünüm var, dağlıyam.
Qaramanlı Əhməd Vəzir oğluyam,
Yeddi eldən gəlit xəracım mənim" [19, s.140].

Dastanın Bolqarıstan variantında fikir təzadı "yok" (yox) və "var" ifadələrinin yardımı ilə ortaya çıxır:

"Yalanım yok sözümde,
Sevdası var özümdə,
Tek Tahir benim olsun,
Sultanlık yok gözümde" [189, s.13].

Burada ilk iki misrada taledən narazılıq əhval-ruhiyyəsi, sonrakı iki misrada ifadə edilən həyatdan razılıq fikri

ilə təzad təşkil edir. Əlbəttə, bu təzad beyti ümumi kontekstdən ayrı götürdükdə yaranır. Çünki bu halda narazılıq və şikayətin səbəbi aydın olmur. Dastanın Sayadi variantının Aşqabad nəşrində də eyni halla rastlaşmaq mümkündür:

"Çün an erteki erdi has-u aşma,
Dolup erdi bu Hindistan-u Şama" [221, s.13].

"Tahir və Zöhrə" dastanında üzləşilən poetik fiqurlardan biri də təkrir və paralelizmdir. Aşıqlar dastanların dilində obrazlılıq, emosionallıq və ekspressivliyi əldə edə bilmək məqsədilə müxtəlif çalarlı poetik fiqurlardan istifadə edirlər. *"Bunlar arasında bir üslubi fiqur - təkrir öz işləkliyi baxımından xüsusilə fərqlənir. Bu fiqur həm leksik, həm də sintaktik vahidlərlə ifadə olunur, yəni leksik təkrirlər olduğu kimi, söz birləşməsi, cümlə (həm sadə, həm də mürəkkəb) və hətta bütöv bir abzasın təkrarından ibarət olan sintaktik təkrirlər də vardır"* [33, s. 63].

Elmi ədəbiyyatda təkririn müxtəlif növ və ifadə formalarından bəhs edilməkdədir [5, s.67-70; 9, s. 234; 13, s.60; 171, s.145-146]. M.Adilovun dediyi kimi, *"bədii ədəbiyyatda belə ifadələr qüvvətli emosiya yaratmaq məqsədilə geniş miqyasda işlədilir"* [13, s. 60].

Təkririn türk dastanlarda ən çox rast gəlinən növləri sərbəst və ya qaydasız təkrirdir. Bu baxımdan "Tahir və Zöhrə" dastanı da istisna deyil və bu üslubi fiqurla elə dastanın Azərbaycan (M.Təhmasib – Ə.Axundov nəşri) versiyasının "Ustadnamə"lərində rastlaşırıq:

"Gəlin sizə mən ırazimi eyləyim,
Aqil olan, bu <u>dünyada</u> var nədi?
<u>Dünya</u> bir bostandı, pozular gedər.
Çiçək nədi, yemiş nədi, bar nədi?" [19, s. 125].

Eyni bədii ifadə vasitəsi dastanın Orta Asiya, Anadolu və digər yerlərdən toplanmış mətnlərində də aktivdir. Türkmən variantında:

"Geliñ gızlar üyşeliñ,
Üyşelgeden süyşeliñ.
Tahır dek zat ölende-
Üyşüşüp aglaşalıñ" [220].

Anadolu variantında:

Sılınan çevresi, bahçeler, bağlar,
Oturmuş analar, oğul der, ağlar,
Yara perde olmuş, yıkılsın dağlar,
Yarın ağzındakı diller ağlasın [189, s. 27]

Şifahi və yazılı ədəbi əsərlərdə, o cümlədən dastanlarda təkririn geniş yayılmış növlərindən biri olan "geminasiya" və ya "reduplikasiya" (qoşalaşma) kimi tanınınr. Geminasiya fiquru tədqiqatçıların ötəri, yəni çox qısa şəkildə söz açdıqları fiqurlardandır [118, s. 83-84; 106, s. 327; 17, s. 317-320; 33, s. 69-70].

"Tahir və Zöhrə" dastanında bu təkrir növü çoxluğu ilə diqqət çəkir. Cənubi Azərbaycan variantı:

"Başına döndüyüm Mirzə,
Oyan Mirzə, oyan Mirzə.
Sözlərimdir tamam doğru,
Yaz olanda bağçalarda,
Oyan Mirzə, oyan Mirzə"

[İran aşıqlarının dastanları].

Dastanın Azərbaycan variantındakı (Məmmədhüseyn Təhmasib, Əhliman Axundov nəşri) "Bülbül" qoşmasında "bülbül" kəlməsi səkkiz dəfə təkrarlanır və geminativ fiqur

yaradır. Onun 2, 3 və 4-cü bəndlərdə anafora, bəndlərin tamamında həm də epifora kimi işləndiyinin şahidi oluruq.

"Bülbül, sənin işin qandı,
Aşıqlar oduna yandı.
Nədən hər yerin əlvandı,
Köksün altı sarı bülbül!?

Bülbül, sən dala səkərsən,
Göz yaşın gülə tökərsən,
On bir ay həsrət çəkərsən,
Bir ayı da zarı bülbül!

Bülbül, geyinmisən yaşıl,
Qolların boynumdan aşır,
Ağlamaq mənə yaraşır,
Qoy ağlayım barı, bülbül!

Bülbül, sən məni qandırdın,
Gülşən bağı dolandırdın,
Axır oduna yandırdın,
Yazıq xan Tahiri, bülbül!" [19, s. 143-144].

Qeyd etdiyimiz kimi geminasiya və ya reduplikasiya adlanan təkrir növündə eyni nitq vahidi bir misra və ya bəmdin əvvəlində, yaxud da sonunda olduğu kimi, ortasında da ardıcıl olaraq təkrar edilə bilir. Dastanın müxtəlif variantlarında bu poetik ifadə vasitəsi geniş yayılıb. Məsələn, V.V.Radlovun topladığı tatar variantında da bənzər halla üzləşməkdəyik:

"Büqendə yaman taş kürdem, balam,
Uynın utuz bürese, balam,

Annan kaydan ųıqarsın, balam?
Kırnın kırıkbürese, balam,
Annan kaydan ųıqarsın, balam" [151, s. 12].

Molla Nəfəs variantında (Daşkənd nəşri):

"Heç kişi bundok balolarqa qiriftor bulmasin,
Ayrilib dildoridan, xar dilbarqa yor bulmasin,
Oşiki beçoralar maxrumi diydor bulmasin,
Almudom yiğlab-kezib, yorim deya zor bulmasin..."
[229, s. 63].

Bolqarıstan variantında:

"Ah edər, biter gönül,
Məcnundan beter gönül,
Zühremden ateş almış,
Dağlarda tüter gönül" [189, s. 20].

Bolqarıstan variantında ən maraqlı məqamlardan biri də odur ki, burada eyni təkrirlə dastanın təkcə nəzm hissəsində deyil, nəzm hissədən yəni şeir parçasından əvvəlki nəsr hissəsinin sonunda da üzləşirik:

"...Tahirle başbaşa maniler bağladığı, gah gülüp, gah ağladığı akşamlar... Bir gün yine:

Akşamlar oldu yine,
Gül benizim soldu yine,
Ellerim yarı geldi,
Benimki noldu yine" [189, s. 22].

Yazılı və şifahi ədəbi əsərlərdə şahidi olduğumuz maraqlı təkrir növlərindən biri olan simplokaya "Tahir və Zöhrə" dastanından aşağıdakı bəndi misal kimi təqdim etsək, yanılmarıq:

Əcəm oğlan, nə yatmısan burada?

Əcəm oğlu, sandığından dur, yeri!
Bəs nə yaxşı qərq olmadın dəryada?
Əcəm oğlu, sandığından dur, yeri! [19, s. 157].

Gətirdiyimiz misalın ilk iki misrasını epimona, yəni fərqli poetik üslub kimi də gözdən keçirmək mümkündür:

"Əcəm oğlan, nə yatmısan burada?
Əcəm oğlu, sandığından dur, yeri!"

Dastanın Molla Nəfəs variantının Daşkənd nəşrində təkrarın eyni qaydada daha maraqlı və mürəkkəb formaları ilə üzləşirik:

"Orazinqin boğ aroçun kürdi, hayron büldi qul,
Barqsiz qoldi, nedimkim, bas parişon büldi qul.
Qul bilan bulbul kelib, qul içra sayron qildi qul,
Qul tomoşasin kürib, üz barqini qon qildi qul"

[229, s. 4].

Epimona poetik fiqurunun "Tahir və Zöhrə"də zəngin növ rəngarəngliyinə rast gəlməkdəyik. Azərbaycan variantında:

"Ağlamaq mənə yaraşır,
Qoy ağlayım barı, bülbül!"[19, s. 143].

Tatar versiyasında ("Babaxan" dastanı):

"Uqıl bulsa, ikese də dus bulsın,
İkese ber tən, həm də ber jan bulsun"

[213, s. 23].

Beləliklə, epimona poetik fiquru eyni nitq vahidinin cüzi dəyişikliklərlə təkrarı əsasında əmələ gəlir. O, təsirli bədii vasitələrdən biri kimi çıxış edir, dastanın poetik mətninin tərkib hissələri arasında qırılmaz bir bağ yaradır və ondakı melodikliyi artırır.

"Tahir və Zöhrə" dastanında rastlanan təkrir növləri bununla bitmir. Müxtəlif variantlarda müşahidə olunan təkrir növlərindən biri də antimetaboladır. A.Axmanovaya görə, bu poetik fiqur eyni sözlərin sintaktik funksiya və əlaqəsinin dəyişməsi sayəsində yaranır və bu dəyişikliyə mütənasib şəkildə ortaya çıxır [106, s. 49]. Məsələn, aşağıdakı misralarda "bənzər" ifadəsinin birinci halda "bənzəyən" məqamında təyin, ikinci halda isə "bənzəyir" məqamında xəbər kimi işləndiyinin şahidi oluruq ki, nəticədə sintaktik funksiya əlaqəsinin dəyişməsi ilə antimetabola poetik fiquru əmələ gəlmiş olur:

"Kövsərə bənzər dodaq,
Ağ gülə bənzər ayaq" [19, s. 164].

Beləliklə, ifadənin ekspressivliyini artırmağa xidmət edən bu fiqur eyni dil vahidlərinin sintaktik funksiyalarının dəyişərək təkrarlanması ilə yaranır. Aşağıdakı beytdə isə "axmaq" feli birinci halda xəbər, ikinci halda isə zərflik kimi çıxış edir:

"Qanlı dərya nə axarsan elavda,
Axıb-axıb nə məkana gedərsən?" [19, s. 155].

Dastanlarda rast gəlinən poetik fiqurlardan biri də əks sıra üzrə təkrirdir ki, "bu bədii priyom həm həmcins üzvlərin, həm də cümlələrin əks sıra üzrə təkrarı nəticəsində əmələ gəlir" [33, s.97]. Bu fiqura "Tahir və Zöhrə" dastanından aşağıdakı bəndi misal çəkmək olar:

"Tahir getdi axa-axa,
Zöhrə qaldı baxa-baxa,
Qabaqda ildırım çaxa,
Getdi, xan Tahirim getdi" [191, s. 156].

Bənzər halı Anadolu variantlarından birində də müşahidə etmək mükündür:

"Bülbül kanadı al olur,
Uçar göğe bir hal olur,
On bir ay bülbül lal olur,
Telef etti canı bulbul" [191, s. 31].

Burada "Tahir" və "mənim Tahirim", "sevdiyim, aşiq olduğum Tahir" məqamında işlənən "Tahirim" ifadələrini "getdi" feilindən ayrıca gözdən keçirsək, məsələnin mahiyyətində başqa bir təkriri fiqurun – dəqiqləşdirici təkririn də durduğunu söyləyə bilərik. Aşıq ədəbiyyatında geniş istifadə edilən bu təkrir növündən söz açan R.Xəlilov yazır ki, "əlavə xarakteri daşıyan belə təkrirlərdən obyekt və hadisələri müəyyən xüsusiyyət, əlamət, keyfiyyət və s. cəhətdən izah etmək, həm də bədii boyalarla vermək məqsədi ilə istifadə edilir. Burada təkrarən işlədilən söz adətən təyinlərlə müşayiət olunur" [17, s. 321].

Bütün dastanlarda olduğu kimi, "Tahir və Zöhrə" dasta sıx-sıx üzləşilən poetik fiqurlardan biri də sadə cümlənin təkriridir:

"Başına döndüyüm, a cavan oğlan,
Ağam üçün mən qaranı geymişəm.
Dolanım başına, mən alım qadan,
Ağam üçün mən qaranı geymişəm" [19, s. 146].

Anadolu Aşıq Qafili variantından :

"Hocalar hocası, mollalar hası,
Silinmedi yine gönlümün pası,
Bize çektirirsin ayrılık yası,
Aman hocam, gidip Şah'a söyleme.

Bize çektirirsin ayrılık yası,
Kurban olam Hoca Şah'a söyleme [191, s. 15].

"Tahir və Zöhrə" şeirləri üçün mürəkkəb cümlənin təkriri ilə yaranan fiqurlar da xarakterikdir:

"Xab içində yatan Zöhrə,
Oyan, Zöhrə, yarın gəldi!
Qəm qüssəyə batan Zöhrə,
Oyan, Zöhrə, yarın gəldi!" [19, s. 149].

Molla Nəfəs variantında:

"Yorim kelmas deya qumen aylama,
Kelar Zuxrajoniną, qamqin bulmaqin.
Tuy kunlarinq oxirzomon aylama,
Kelar Zuxrajoniną, qamqin bulmaqin" [229, s.15].

Sintaktik paralelizm əsasında yaranan poetik fiqurlar da "Tahir və Zöhrə" dastanında çox-çox rastlanan fiqurlardandır. Həmin fiqurlara toxunan K.Vəliyev haqlı olaraq yazır ki, "*sintaktik paralelizm mühüm poetik fiqur kimi yalnız türk eposunda və ümumiyyətlə, folklor ənənəsində deyil, həm də Orxon-Yenisey abidələrinin dilində, M.Kaşğarinin "Divani lüğət-ittürk", Y.Balasaqunlunun "Kutadqu bilik" əsərlərində və söz sənətinin digər abidələrində geniş yayılmışdır. Türkdilli ədəbiyyatda və folklorda geniş şəkildə işlənən bu sintaktik paralelizm digər poetik fiqurların böyük hissəsini öz ətrafında birləşdirir. Epik mətndə sadə və mürəkkəb cümlə, mətn sintaksisi, epik formula məsələlərinin, şeir və nəsr problemlərinin həlli zamanı sintaktik paralelizmə müraciət edirlər*" [116, s. 218; 33, s. 120].

Eyni sözləri "Tahir və Zöhrə" dastanı barədə də söyləmək mümkündür:

"Mən gedirəm, Allah səni saxlasın,
Ağlaya, ağıaya qal innən belə!
Əmanətin meçə-neçə məndədi,
Saxlaya bilmənəm, al innən belə! [19, s. 138].

Beləliklə, biz görürük ki, "Tahir və Zöhrə" dastanı özünün yayılma arealının hədsiz böyüklüyü, müxtəlif türk dillərində qeydə alınmış variantları, onların həcm və forma müxtəlifliyinə baxmayaraq, türk şeir ənənələrini təkcə sillabik prinsipin sabitliyi baxımından deyil, həm də böyük ölçüdə bədii üslub, poetik fiqurlar baxımından da özündə yaşadır. Biz də dastanın Azərbaycan variantları başda olmaqla, əksər mətnlərində bu zənginliyi və inkişafı müşahidə edə bilirik.

3.2. "Tahir və Zöhrə" dastanı şeirlərinin forma və şəkilləri

Aşıq sənətinin bədii təsir gücü və estetik gözəlliyi, onun var olmaq potensiyası bütövlükdə millətin etnik mədəniyyətinin tutumundan irəli gəlir. Ən qədim çağlardan günümüzədək sözügedən sənətin keçdiyi əzəmətli yol öz tarixi vəzifələri baxımından xalqın daxili aləmini, onun keçdiyi yolun tarixi mərhələlərini, arzu və istəklərini, eləcə də uğurlarını və faciələrini ifadə edərək, milli tarixin taleyüklü məqamlarının aynasına çevrilmişdir. Bu səbəbdən də aşıq sənətindəki sinkretiklik "*mahiyyətə yönəlik hadisə kimi bütün dövrlərdə qorunub saxlanmış və etnosun tarixi-mədəni yolunun əsas istiqamətlərindən birini müəyyənləşdirmişdir. Onu da deyək ki, folklorşünaslar, etnoqraflar, musiqişünaslar və digər mütəxəssislər müxtəlif müstəvilərdə ozan-aşıq mədəniyyəti ilə bağlı gərək-*

li işlər görmüş, ciddi elmi-nəzəri mülahizələr yürütmüşlər. Aşıq şeirinin biçim və çeşidləri baxımından yürüdülən mülahizələr də bura daxildir" [71, s. 4].

M.H.Təhmasibin qeyd etdiyi kimi, hər bir aşıq öz əsərini yaradarkən özündən öncə yaşayıb yaratmış aşıqların kollektiv məhsuluna çevrilmiş irsindən əzəmi dərəcədə faydalanır, bəzən hətta ənənədəki hazır süjetlərindən, bədii ifadə və təsvir vasitələrindən, üslubi elementlərdən, musiqi havalarında istifadə edirlər [101, s. 52].

Digər Azərbaycan məhəbbət dastanları kimi, "Tahir və Zöhrə" dastanının da giriş hissəsini ənənəvi üç hissəli ustadnamələr təşkil edir ki, bu da məhəbbət dastanlarının strukturunun önəmli və ənənəvi tərkib hissəsi kimi çıxış edir. Aşıq poeziyasında ustadnamələrin gəraylı, qoşma, təcnis, müxəmməs, divani, varsağı, heydəri, əlif-lam və s. formalarda təqdim olunduğunu diqqətə çatdıran Məhərrəm Qasımlı və Mahmud Allahmanlının yazdıqları kimi, ustadnamələrdə öyüd-nəsihət, məsləhət, atalıq-böyüklük qayğısı, fəlsəfi ümumiləşdirmə, dünya, cəmiyyət, ailə-məişət məsələləri, mənəvi keyfiyyətlər əks olunur [71, s. 188]. Ümumilikdə, struktur-semantik planda nəsr və nəzm hissələrinin üzvi qovuşması kimi çıxış edən dastanların poetik strukturunda nəzmin bir neçə yöndən reallaşan funksional istiqamətləri müşahidə edilir. "*Bunun birincisi dastan şeirinin dastan nəsri (dastanın yurd hissəsi) ilə bir epik sistem təşkil etməsi məsələsidir. İkincisi, dastan şeirinin sistem içərisində "sistem" kimi funksiyasıdır. Yəni dastan şeirinin bütöv dastan həcmində funksiyası var"* [36, s. 293].

Dastan poetikasının əsasının təşkil edən aşıq şeirinin forma və şəkillərinin, başqa sözlə, şeir biçimlərinin müxtəlif formalarda özünü göstərən poetik çeşidləri müxtəlif dövrlərdə fərqli-fərqli tədqiqatçıların araşdırma mövzusu olmuşdur. Bu baxımdan V.Vəliyev [105], M.Həkimov [56; 57], M.Əliyev [45], M.Hüseynova [61], E.Məmmədli [74], A.Hacılı [53], Z.Əsgərli [50], Ş.Ədilli [42], T.Hüseynzadə [62], M.Qasımlı, M.Allahmanlı [71], T.Qurbanov [99] və s. tədqiqatçıları misal çəkmək olar.

Digər dastanlar kimi, "Tahir və Zöhrə" dastanının məlum variantlarının əksəriyyətindəki şeirlər bilavasitə xalq havalarının müşayiəti ilə oxunması nəzərdə tutulan poetik mətnlərdir. Onların böyük qismi heca, az bir hissəsi isə əruz vəznindədir. Bu poetik mətnlər saz havasının müşayiəti ilə oxunduğu üçün onlar arasında qarşılıqlı uzlaşma şərtdir. *"Məsələn, qoşma qəlibi üzərində olan poetik mətnlər on birlik ölçüsünə uyğun gələn saz havaları ("Ovşarı","Göyçəgülü", "Naxçıvanı", "İrəvan çuxuru", "Dilqəmi", "Yanıq Kərəmi", "Ruhani" və s.), gəraylı qəlibində olan poetik mətnlər isə səkkizlik ölçüsündəki havalar ("Dübeyti", "Şahsevəni", "Baş sarıtel", "Orta sarıtel", "Paşaköçdü", "Təbrizi", "Şirvan gözəlləməsi" və s.) üstündə oxunmalıdır"* [71, s. 8].

Yeri gəlmişkən qeyd edək ki, dastanlardakı ayrı-ayrı lirik parçaların müxtəlif havaların müşaiyəti altında oxunması "Dədə Qorqud" eposu ilə bağlı mülahizələrdə də öz əksini tapıb. "Kitabi-Dədə Qorqud"da yelətmə çalınmasından söz açan Əfzələddin Əsgər bildirir ki, ozanın xalq musiqisini və mahnılarını bilməsində qəribə heç nə yoxdur [49, s. 165].

Aşıq şeirlərinin azhecalılıqdan çoxhecalılığa doğru tarixi təkamül prosesi keçdiyini diqqətə çatdıran Məhərrəm Qasımlı və Mahmud Allahmanlı qeyd edirlər ki, yeddi və səkkizhecalı şeir şəkilləri (bayatı və gəraylı) onlara bağlı olan saz havaları ("Çoban bayatı", "Gəraylı", "Dübeyti", "Təbrizi", "Paşaköçdü", "Kərəm köçdü", "Şahsevəni", "Cən-gi Koroğlu" və s.) kimi arxaik keyfiyyətlərə malikdir. "On bir və daha artıq hecaya malik şeir şəkilləri (qoşma, təcnis, müxəmməs, divani və s.) və həmin şəkillərə bağlı olan saz havaları ("Hüseyni", "İncəgülü", "Cəlili", "Qəhrəmanı", "Divani", "Müxəmməs" və s.) isə daha sonrakı mərhələnin yaradıcılıq məhsullarıdır" [71, s. 8-9].

"Tahir və Zöhrə" dastanın "Azərbaycan folkloru külliyyatı"nın XXIX cildində nəşr edilmiş variantını deyilənlərə konkret misal kimi göstərə bilərik. Belə ki, buradakı şeir parçalarının üst hissələrində, mötərizədə hansı hava ilə oxunmalı olduğu da göstərilmişdir. Məsələn:

"(Yayma şikəstə)

Xab içində yatan Zöhrə,
Oyan, Zöhrə, yarın gəlib.
Dərdə, qəmə batan Zöhrə,
Oyan, Zöhrə, yarın gəlib...

(Şikəstə)

Dan yerinə yenə duşdu nişanə,
Oyan, gözlərinə qurban olduğum.
Neçə bülbül uçub qonar gülşanə,
Oyan, gözlərinə qurban olduğum...

(Zarıncı şikəstə)

Zalım atan o atamı öldürdü,
Olsun taxtı-tacı tarımar yeri.

Aldadıban göz yaşımı sildirdi.
Heç qalmadı məndə bir ilqar yeri" [22, s.113-114].

"Tahir və Zöhrə" dastanındakı və ümumiyyətlə dastanlarımızdakı şeir formalarının araşdırılması ilə bağlı diqqət edilməli olan problemlərdən biri şeirin əsas forma elementlərindən olan qafiyə, digəri isə heca vəzninin uzun və qısa hecalar baxımından ritmik xüsusiyyətləridir. Bunları incələmədən məsələnin kökünə enmək, problemi dərindən anlamaq, əlbəttə ki, mümkün deyil.

Məlum olduğu kimi, şeirin, onu nəsrdən fərqləndirən əsas forma elementləri misra, bölgü və qafiyədir. Şeirin bir sətri olan misraların uzunluqları formadan asılı olaraq bərabər və ya fərqli ola bilər. Misraları durğularla (pauzalarla) biri-birindən parçalara ayıran bölgüdür. "*Bölgülərarası durğular, yəni vəzn durğusu adi nitqdəki real, sintaktik durğulardan fərqlənir. Belə ki, vəzn durğusu ani, xəyali də ola bilər. Hətta bir misrada sintaktik durğu, pauza vəzn durğusundan daha böyük ola bilər. Vəzn durğusu sintaksisdən yox, sözlərdəki və misradakı heca sayından, deyilişin ümumi ahəngindən asılıdır*" [42, s. 6].

Almaz Həsənqızı yazır ki, folklor araşdırmalarının əsas açarını dil təşkil etməkdədir. "*Dil folklor və xalq ədəbiyyatımızın mənşəyini aramaqda iki başlıca yolla bizə yardımçıdır. Birincisi, müxtəlif adət və baxışları təsvir edən istilahlar və ifadələr yolu ilə, ikincisi, türk xalq ədəbiyyatının qafiyəsini təşkil etmə-silə*" [89, s. 83]. Qafiyənin ümumi tərifi və müxtəlif təsnifatlarından söz açan dilçi və folklorşünas alimlərimiz daha çox zəngin (tam, uzun) və yoxsul (natamam, qısa), normal və qulaq, misrasonu və daxili, cinas və adi, rədifli və rədif-

siz və s. qafiyə növləri üzərində durmuş, onların qısa təsnifini vermişlər. Burada cinas qafiyələrin geniş şərhini verən Elxan Məmmədlinin adını xüsusi qeyd etmək lazımdır [74].

Qafiyənin səs dayağı kimi bir səsin yox, səs cütlü-yünün götürülməsini daha doğru hesab edən Ş.Dəlidağ tərtib etdiyi qafiyə lüğətində [39] haqlı olaraq sait- samit və samit-sait səs cütlüklərini əsas götürərək, bu səs cütlükləri əsasında qafiyələnən söz köklərinin, həmçinin düzəltmə sözlərin böyük siyahısını tərtib etmiş və daha sadə elmi-məntiqi yanaşma sərgiləmişdir.

Sait-samit səs cütlüyü (qapalı heca) dayağı ilə qafiyələnmə (güclü qafiyələnmə) üçün söz ehtiyatı kifayət qədər çox olduğundan bu tip qafiyələnmələr çox geniş yayılmışdır və onlara "Tahir və Zöhrə" dastanının poetik nümunələrində də sıx-sıx rast gəlinir. Bu zaman həm eyni səsli, həm də yaxın saitli variantlara rast gəlinir. Eyni səsli variantlara aşağıdakı nümunələri misal gətirmək olar:

"Bu dünyada çox-çox şirin mal olur,
Tamahkarın malı müşkül hal olur,
Qol burulur, qulaq batır, lal olur,
Qohum nədi, qardaş nədi, yar nədi?".

Və ya:

"Dörd yanımız bağça ola, bağ ola,
Sinəm üstü dügün ola, dağ ola,
Bir kiçik ki, böyüyünə ağ ola,
Düşər el gözündən, bəxtiyar olmaz…" [19, s. 125].

"Tahir və Zöhrə" dastanının poetik nümunələri içərisində yaxın samitli qafiyələnmə variantlara da rast gəlmək mümkündür.

Ç, Ş:

"Oxuyub könlümün dəftərini açdım.
Hər zamankı nəzərinə sataşdım [19, s. 160].

Aşağıdakı beytdə həm yaxın saitli, həm də yaxın samitli qafiyələrlə üzləşirik.

N, M, A, Ə:

"Eşq əhlinin dərdin bilib anarlar,
Əmib-əmib ləblərindən qanarlar,
Boyu uzun, beli mina kəmərlər,
Tanrı məni sizə qurban eyləsin!" [19, s.159].

Samit-sait səs cütlüyü (açıq heca) dayağı ilə qafiyələnmə (zəif qafiyələnmə) üçün söz ehtiyatı az olduğundan bu tip qafiyələnmələrdə də yaxın samitli variantlara rast gəlinir. Məsələn;

Ş, Ç:

"Mən Zöhrəyəm, qələm qaşlı,
Ala gözlü, siyah saçlı.
Qoyma məni gözü yaşlı!
Nə yatıbsan, Tahir Mirzə?!" [19, s.154].

Qafiyələnmələrdə yaxın olmayan samitlərdən istifadə edilir:

Q, Y:

"Nə baxırsan yana-yana,
Əm ləbimdən qana-qana,
Çəkilək başqa bir yana,
Sarmaşaq, quc belim, oğlan!"

Bənzər tip qafiyələnmələr dastanın digər variantlarının şeirlərində də yer alır. Anadolu (Sarıkışla) variant:

"Tahir'im artıyor gamım,

Deryaya kark oldu gemim,
Gelmez oldu Zühre yarim
Hakkın helal eyle, ana" [191, s.18].

Məlum olduğu kimi, şeirin forması onun vəzni və şəkli ilə səciyyələnir. Vəzn, bir qayda olaraq, misraların bölgülənmə qaydasını, uzunluğunu (misrada olan hecaların sayını) və metro-ritmik quruluşunu, şəkil isə onların qafiyələnmə qaydasını və şeirin bəndlərə ayrılma qaydalarını müəyyən edir. Aşıq şeirində, o cümlədən dastanların poetikasında 3 növ vəzn mövcuddur:

1. Sillabik vəzn;
2. Tonik vəzn;
3. Metrik və ya metro-ritmik vəzn.

Bunlardan birincisi misralarda heca saylarının bərabərliyinə, ikincisi misralarda vurğulu hecaların müəyyən qayda ilə düzülüşünə, üçüncüsü isə uzun və qısa hecaların misralarda müəyyən ardıcıllığına əsaslanır.

"Tahir və Zöhrə" dastanında onların hər üçündən istifadə edilmişdir. Dastanın Azərbaycan versiyasına daxil variantları, eləcə də digər əksər (Anadolu, Bolqarıstan, Türkmənistan və s.) məlum mətnlərində şeiriyyat heca vəznindədir. Bu vəzn misralarda heca saylarının bərabərliyinə, diləyatımlı, ahəngdar bölgülənməyə və bu bölgülənmənin bütün misralarda qismən eyniliyinə (təkrarına) əsaslanır. Şeirlərin heca sayına görə aşağıdakı formaları dastanda yer alır:

8 hecalı:

"Tahir Mirzə bu çağında,
Sinəsi Zöhrə dağında,

Qaldı hovuz ayağında
Sonalı göllərim mənim" [19, s. 140].

8 hecalı şeir forması dastanın türkmən variantı üçün də xarakterikdir:

"Aranızda bir söz vardır,
Şah vəzirə aşikardır.
Tüm əhali xəbərdardır,
Ayan erməz güman ile" [215, s. 20-21].

Bənzər halla özbək variantında da rastlaşırıq:

"Əgri-bügri kərvan ötdi,
Kimlər kəldi, kimlər ketdi,
Endi növbət bizgə yetdi,
Şahım, kimdən sitəm ötdi?" [177, s. 166].

Heca vəznli şeirmizin yayılmış klassik formalarından biri kimi tanınan, 3-5-7 bənddən və hər misrası 8 hecadan ibarət olan gəraylılar "Tahir və Zöhrə" dastanında əhəmiyyətli yerə sahibdirlər. Bu şeir növü həm yazılı, həm də şifahi ədəbiyyatda geniş yayılıb və aşıq şeirinin ən qədim növlərindən biri hesab edilir. Gəraylının ən mükəmməl nümunələrinə Aşıq Qurbani, Tufarqanlı Abbas, Xəstə Qasım, Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər kimi xalq aşıqlarının yaradıcılığında, eləcə də dastanlarımızda sıx-sıx rast gəlirik. Bu baxımdan "Tahir və Zöhrə" dastanı da istisna deyil:

Aman cəllad, gəl rəhm elə,
Dərd məni alacaq oldu.
Malım, mülküm, külli varın
Kimlərə qalacaq oldu?!..." [19, s. 133].

Gəraylıların (eləcə də qoşmanın) böyük ölçüdə üç bənddən ibarət ourlar. Sazın pərdə düzümü həm bəm, həm

orta və həm də zildə, başqa sözlə, əsasən üç yerdə oxumağa imkan verdiyindən aşıqlar şeiri, birinci bəndi bəmyumşaq tərzdə, ikinci bəndi orta səslə, üçüncü bəndi isə zildə və zəngulə ilə olmaqla, adətən, üç bənd halında oxumağa daha çox üstünlük verirlər. *"Üç bənddən artıq olan şeirlərin digər bəndlərini ya deklamativ şəkildə çatdırır, yaxud da birinci bəndlə sonuncu bənd arasında olduğu kimi, orta tempdə oxuyurlar. Klassik aşıq şeirlərinin daha çox üç bənddən ibarət olması sazda üç oxu yerinin mövcudluğundan irəli gəlir"* [71, s. 9].

Molla Nəpəsin yazıya aldığı "Tahir və Zöhrə" dastanda səkkizlik formasında olan xüsusi xalq şeiri şəkilllərinə də rast gəlmək olur. Məsələn,

"Wahyt, gider bolsaň mundan,
Janym söýen jany getir.
Derdim zyýada gün-günden,
Şirin janym çykar tenden,
Pinhan syrym ýokdur senden,
Sen hem el göterme menden.
Maňa dost bolmaz her kandan.
Geler wagtyň çyksa çenden,
El götärmen bu watandan.
Öldüm aýralyk derdinden,
Derdime dermany getir" (222, s. 60-62).

7 hecalı.

Özünün dilə yatımlılığı və gözəl səslənişi ilə fərqlənən 7 hecalı şeir həddən artıq ruh yüksəkliyi yaradan şeir ölçüsü kimi folklor nümunələrində, o cümlədən dastanlarda geniş istifadə olunur. Yeddi hecalı şeir türk epos ənənəsi üçün xarakterik göstəricidir. Məsələn, başqırdların "Ural-Batır"

dastanı yeddilik üzərində qurulub. Türkiyədə işıq üzü görən uyğur variantında da bütün şeirlər yeddilik şəklindədir.

"Tahir:

Derya içre coş urup
Suv buldur-buldur axar.
Men suvda axıp gitsem,
Garıp eneme kim baxar.

Zühre:

Sen mundan axıp gitseñ,
Yürek-bagrım yaxaram.
Bağu-baxcamı satıp,
Eneñi özüm baxaram" [261, s. 395].

Eyni ölçü dastanın Şuaylanı Daud Hacı tərəfindən dərlənmiş balkar variantı üçün də xarakterikdir:

"Taxir bla Zuxura
Atıqız kenq aytıldı
Köl jırçı şayırlanı
Jırsuu bolup qaldı.
Aladan ese iqi
Jazarma, del bazınmay,
Ana tilimi süyül,
Anqa misel xazırlay" [223].

Dastanın 1926-cı ildə Buynakskda nəşr edilmiş qumuq variantında da 7 hecalı şeirə sıx-sıx rast gəlirik. Məsələn, Tahir yeddi il zindanda yatarkən aşağıdakı bayatını söyləyir:

"Günlər geçər yılama,
Qayğı qaçar yilama,

Bu qapunu begitgən,
Bir gün açar yılama".

Dastanın başqa bir yerində Tahirin həsrətiylə yanan Zöhrə bir gün karvana rast gəlir və bayatının dili ilə dərdini belə anladır:

"Göçməgə kərvanmusuz?
Dərtləğə dərmanmusuz?
Qayğısı köp Tahirdən
Bir xəbər alğanmusuz?" [206, s. 83] və s.

Eyni sözləri türkmən variantı üçün də söyləmək mümkündür:

"Bindiğim taxta para,
Biləməm nərə vara.
Bir iman əhli yox mu?
Etməyə bana çarə?" [227, s. 213].

Maraqlıdır ki, "Tahir və Zöhrə" dastanının əldə olan Azərbaycan variantlarında bayatı formasına rast gəlinmir. Yalnız Azərbaycanda məskunlaşmış Axıska türklərindən qeydə alınmış "Tahirlə Zöhrənin deyişməsi" bayatılardan ibarətdir ki, bu şeirlərin də Azərbaycan versiyasına aid etmək doğru olmaz.

3) 11 hecalı (6-5, 4-4-3)*:*

"Qanlı dərya, nə axarsan selavda,
Axıb-axıb nə məkana gedərsən?
Qoymagilən sandıq qalsın girdabda,
Götür apar, hər bir yana gedərsən" [19, s.154].

Anadolu variantlarından:

"Hocalar hocası, mollalar hası,
Silinmedi yine gönlümün pası.

Bize çektirirsin ayrılık yası,
Aman hocam, gidip Şah'a söyleme"

[191, s. 15].

11 hecalı şeir forması dastanın türkmən variantı üçün də xarakterikdir:

"Ben bu gün düşmüşüm aşkın yoluna
Anne, bende ne irade var şimdi?
Zühre canın ak yüzüne benine,
Gönlüm heves, gözüm intizar şimdi"

[215, s. 23-24].

Digər hecalı.

"Tahir və Zöhrə" dastanda şeirlər adətən 7, 8 və ya 11 hecalıdırlar. Lakin digər ölçüdə şeirlərə, qarışıq heca sayına malik misraların biri-birini izləməsi ilə düzələn poetik nümunələrə də rast gəlinir. "Tahir və Zöhrə" dastanının 1872-ci ildə V.Radlov tərəfindən Peterburqda dərc edilmiş tatar variantında Azərbaycan şeiri üçün xarakterik olmayan tamam başqa ölçü və formalarla qarşılaşırıq:

Kayt balam, kayt balam! (6)
Bu yuldan sin kaytmasan, (8)
Min sine taqı kürməsəm, (8)
Bu ələmdə mormaen! (7) [151, s. 277].

Bəzən 7 hecalı misra ilə 9 hecalı misralar bir-birini ardıcıllıqla izləyir:

Kıyqudan ụıkkan кырык büre, (9)
Annan niụeк ụıqarsın? (7)
Ayqaydan ụıkkan алтмыш büre, (9)
Annan niụeк ụıqarsın? (7) [151, s. 277].

Dastandakı şeirlər bəzi variantlar istisna olmaqla böyük ölçüdə dördlüklərdən (dörd misralıq bəndlərdən) təşkil olunub. Azərbaycan variantında (M.Təhmasib-Ə.Axundov nəşri) 3-ü ustadnamə olmaqla 25 onbir hecalı (qoşma), 1 duvaqqapma, 16 səkkizhecalı (gəraylı) şeir verilib. Türk folklorşünası Doğan Kaya dastanın Anadolu (Aşıq Qafili) variantında toplam 24 dördlük olduğunu bildirir və onlardakı heca saylarını belə göstərir:

Tahir, 8 heca: 5, 11 heca: 15

Zöhrə, 8 heca 1, 11 heca: 2

Mələk Suna, 8 heca: 1 [191, s. 5].

Anadolu dastanlarının, o cümlədən "Tahir və Zöhrə" dastanının Anadolu variantından söz açan Özkul Çobanoğlu Anadolu variantlarında 11 və 8 hecalı şeirlərlə yanaşı, çox nadir hallarda divani şəklinə rast gəlindiyini də vurğulayır [181, s. 3]. Azərbaycan dastanlarında poetik şeir şəkil və janrlarının çoxluğu və kamilliyi aşıq sənətinin inkişafına bağlanılır. Ə.Abidin yazdığına görə, bizdə yəni Azərbaycan-Anadolu regionunda, "əsl hecanın" inkişafı məhşur xalq ozanı Kərəmdən sonradır: *"Əsərləri hər kəsə məlum olan Kərəm ilə Anadolunun yetisdirdiyi Qaracaoğlan, Aşıq Ömər, Gövhəri, Dərdli, Quloğlu kimi şairlər sayəsində heca vəzni bitkin bir hal aldı"* [12, s. 50].

"Tahir və Zöhrə" dastanı da Azərbaycan versiyası Tahirin özünə toy etməsi və ustad aşıq tərəfindən duvaqqapma oxunması ilə sona çatır:

"*Tahir təzədən özünə toy elədi. Onun toyuna çoxlu aşıq yığışmışdı. Aşıq o aşiq-məşiqun əllərini bir-birinə verdi, mübarək-*

badlıq elədi. Sonra ustad aşıq sazı döşünə basıb, bu duvaqqapma ilə onun toyunu başa verdi:

Həzarat, bircə baxın,
Canlar alandı bu gələn,
Gözləri cəllada dönüb,
İsmi qaytandı bu gələn.
Özü bir səxa kanı,
Adildivandı bu gələn.
Özü gül, saçı sünbül,
Yaqut-yəməndi bu gələn.
Yaquta bənzər yanaq,
Mərmərə bənzər buxaq,
Bir aya bənzər qabaq,
Kövsərə bənzər dodaq,
Ağ gülə bənzər ayaq,
Qoy bassın gözüm üstə,
Qucmalı candı bu gələn…" [19, s. 164-165].

"Tahir və Zöhrə" dastanının bədii poetik xüsusiyyətlərindən, şeir, forma və şəkillərindən danışarkən qeyd etməliyik ki, onun, demək olar ki, bütün versiya və variantları bu baxımdan öz zənginliyi ilə fərqlənməkdədir. Eyni sözləri dastanın "Qaragöz" türk xalq teatrında istifadə olunan variantı haqqında da söyləyə bilərik. Doğan Kayanın yazdığına görə, burada sırası ilə aşağıdakı şeir forma və şəkillərinə rast gəlinməkdədir:

"*Mani tipi: 115 şeir ,.*
Dördlük: 2 ədəd.
Beyt: 56 ədəd.
Məsnəvi tərzi: 12 beyt və 3 beyt olmaqla iki şeir.

Səmai: 1 ədəd (dörtlük).

Sevilən mətni (Şeirlər əruz və heca ölçüsündədir): səmai-şərqi: 7 ədəd, qəzəl: 1 ədəd, mani: 6 ədəd (bu manilər əlyazma nüsxədə mövcuddur), qoşma: 2 ədəd.

Qüdrət mətni: səmai-şərqi: 5 ədəd, qəzəl: 1 ədəd, qitə: 3 ədəd" [192, s. 3].

Bunlardan əlavə, dastanın qələmə alınmış, "kitablaşmış" variantlarında klassik ədəbi şeir janrı örnəklərinə də rast gəlinir. Məsələn, Molla Nəpəsin qələmə aldığı variantda:

"Gül bilen bilbil gelip, gül içre seýran kıldı gül,
Gül tomaşasın görüp, öz berkini gan kıldı gül"
[222, s.16-17].

"Senden aýry men ýesiri derdi-hijran galmyşam,
Ölmeýin galdym bu gün, halymga haýran galmyşam"
[222, s. 56]

"Dostlar-a, rozy-ezel köňlüm era ja kyldy yşk,
Günde ýüz mähnet bilen başymny gowga kyldy yşk"
[222, s.63-64]

mətləri ilə başlayan üç qəzəl, eləcə də "Zöhre jan, hijriňde köýdüm, janı senden aýrılıp" [222, s. 24-25], "Näzli ýar, eý gulgüzar, çoh bikarar etdiň meni" [222, s. 26], "Ýa ylah-a, barça gullar köňlüni sen şady kyl!" [222, s.30], "Eý sahyby-mahlukat, galdym bir ça içinde" [222, s.32-33], "Üşbu derýa içre gördüm bir ajap zyba ýigit" [222, s.35], "Neýleýin, wahasrata, dildarydan aýrylmyşam" [222, s. 46-47], "Eý saba, zarym meniň arz ile jananymga aýt" [222, s.47-48], "Dilbera, ýadyň bilen synamga gam kän oldy, gel!" [222, s.62-63], "Wahyt, tizden habar ber sowalymnyň jogabyn" [222, s.66-67], "Simi-zer derkar imesdir, simi-rugsarym gerek" [222,

s.77-78], “Neçüýn ola sen gamgyn, bir turpa jenan sen-sen” [222, s.81-82], “Ýokdan bar etgen Alla, saldyň meni bu hala” [222, s.92], “Gark olup gaflatda ýatma, näzli dildarym, oýan!” [222, s.102] bəndləri ilə başlayan on üç müxəmməs yer alıb.

Bütün bu deyilənlərdən də aydın olduğu kimi, “Tahir və Zöhrə” dastanı özünün bədii poetik xüsusiyyətləri baxımından çox zəngin və rəngarəngdir. Bunu şeirlərin forma və şəkilləri sübut etməkdədir. Təbii ki, dastanın Azərbaycan, Anadolu və türkmən versiyaları bu baxımdan daha mükəmməl təsir bağışlayır [192, s. 3]. “Tahir və Zöhrə” dastanın Azərbaycanda və Anadoluda istər havacat, istərsə də məzmun və poetika baxımından zənginliyi, sözsüz ki, aşıq sənətinin bu bölgədəki inkişafına bağlı olmuşdur. Bu dastan Orta Asiya, Volqaboyu, Şimali Qafqazın türk xalqlarında olduğu kimi Azərbaycanda və Anadoluda kitab halına salınmasa, onların yazılı ədəbiyyatına gətirilməsə belə məhz aşıq sənəti sayəsində öz populyarlığını zərrə qədər itirməmiş, əksinə, daha da sevilmiş və qonşu xalqlara da ötürülmüşdür.



NƏTİCƏ

"Tahir və Zöhrə" dastanı türk xalqlarının epik yaradıcılığının vüsətini, poetik kamilliyini əks etdirən, eyni zamanda onların bədii təfəkkürünün məhsulu olan əsərlərin populyarlıq və yayılma arealının inanılmaz hüdudlarda genişliyini nümayiş etdirən bir folklor örnəyidir. "Tahir və Zöhrə" dastanı yayılma arealına, variant və versiyalarının sayına görə hətta "Koroğlu" kimi möhtəşəm eposla mü-qayisə oluna bilər. Kompozisiyası, maraqlı süjet xətti, ideyası, şeirlərinin poetik gözəlliyi "Tahir və Zöhrə" dastanının türk xalqlarının məskun olduğu geniş çoğrafiyada populyarlığını və sevilməsini təmin etmişdir.

Türk xalqlarının mənəvi birliyi, bədii düşüncə sterotiplərinin eyniyyəti məhz "Tahir və Zöhrə" kimi qədim və geniş yayılmış dastanlarda aşkar görünür. Dastanın əldə olan və haqqında məlumat verilən versiya və variantlarını, onların məzmun-süjet, motiv, obrazlar sistemi, bədii poetik və kompozisiya xüsusiyyətlərinin nəzərdən keçirərək, eləcə də bu variantlar haqqında indiyədək yürüdülən mülahizələri ümumiləşdirərək, dastanın yayılma arealı ilə bağlı aşağıdakı qənaətləri irəli sürə bilərik:

1. "Tahir və Zöhrə" dastanı qərbdə Balkan yarımadasından şərqdə Sibirədək məskunlaşmış bütün türk xalqları (Bolqarıstan türkləri, Anadolu türkləri, Axıska türkləri,

Krım tatarları, noqaylar, qaraçay-balkarlar, qumuqlar, azərbaycanlılar, türkmənlər, özbəklər, qazaxlar, qırğızlar, Tobol tatarları və b.) yayılmışdır. Eləcə də dastan şimalda – Volqaboyu ərazilərdə yaşayan tatarlara və başqırdlara da məlumdur. Məhəbbət dastanı kimi xarakterizə edilən "Tahir və Zöhrə" dastanın yazıya alınması, toplanması tarixi, əgər onun Orta Asiyada kitab halına, yazılı ənənəyə gətirilməsi tarixini də nəzərə alsaq, ən azı XVIII əsrin sonu-XIX əsrin əvvələrindən başlanılıb. Dastanın daşbasma yolu ilə ilk nəşri 1883-cü ildə, mətbəə üsulu ilə isə ən əski nəşri 1850-ci ilə Osmanlı imperiyasında – İstanbulda həyata keçirilib.

